AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

XATİRƏ BƏŞİRLİ

# OĞUZNAMƏ DASTANLARINDA QƏHRƏMANLARIN TİPOLOGİYASI

BAKI – 2019

**Elmi redaktoru:** akademik **Muxtar KAZIMOĞLU**

**Rəyçilər:** **Kamil ALLAHYAROV**
filologiya elmləri doktoru, professor

**Tərlan QULİYEV**
filologiya elmləri doktoru, professor

**Xatirə Bəşirli. Oğuznamə dastanlarında qəhrəmanların tipologiyası,** Bakı, Elm və təhsil, 2019, - 150 səh.

folklor.az

B $\frac{4603000000}{N\text{-}098\text{-}2019}$ Qrifli nəşr

© Xatirə Bəşirli, 2019

# KİTAB HAQQINDA BİR NEÇƏ SÖZ VƏ YA OĞUZLARDAN OĞUZNAMƏYƏ

Türk millətinin tarixini əks etdirən (və eyni ilə digər xalqların da) qəhrəmanlıq dastanlarının öyrənilməsi millət olmağın necə və hansı şərtlərdə, hansı mübarizə və çətinliklərlə baş verdiyini göstərmək baxımından ən dəyərli epik mənbədir. Dastan tarix deyil, tarixin ruhunu yaşadandır, sosial hadisələri ümumiləşdirəndir, milli düşüncənin güzgüsüdür. Türk millətinin dəyərli əsərlərindən biri olan Oğuznamələr tarix səhnəsinə Göytürk dönəmindən çıxan Oğuz boylarının özlərinin özləri haqqında gələcək nəsillərə miras qoyduqları ədəbi, folklorik, salnamə növlərində mövcud olan möhtəşəm abidəsidir.

Ümumi sayıları 30-dan çox olan bu dəyişik janrlı və təyinatlı mətnlər semantik funksiyası baxımından oğuzların məişət məsələlərindən tutmuş savaşlarına, əxlaqi dəyərlərindən fütuhat ideyalarına, dövlət qurmaqdan dövlətçilik ənənəsinə, oradan da hərbi-demokratik idarəetmələrinə, mifoloji dünyagörüşlərindən dini inanclarına, estetik dünyalarından əxlaqi davranışlarına qədər çox yönlü, çox təbəqəli olub epik dünyanı xarakterizə edən tarixi-bədii sənəddir. Kosmosun tarazlığı, dünya dövləti udeyası, digər xalqlara münasibət, idarə edənlərlə idarə olunanlar, haqq uğrunda mübarizə və nəhayət, bütün bunların Tanrı borcunu yerinə yetirmək olduğu fəlsəfəsi

Oğuz dastanlarının məğzində durur. Dünyanın heç bir xalqında bu qədər bir-birindən fərqli və müxtəlif missiya daşıyıcısı, bu qədər çox funksiyası olan ikinci bir dastan yoxdur. Oğuz dastanları qəhrəmanları və anti-qəhrəmanları, fövqəltəbii qüvvələri və mifoloji obrazları, tarixi prototipləri və epik obrazları ilə bizimkilər və özgələr qütbünü əks etdirir.

Oğuz qəhrəmanlarının tipologiyasının öyrənilməsində epik dastanlarla yanaşı digər Oğuznamə mətnləri, salnamələr, atalar sözləri, ədəbi əsərlər, şeir parçaları və s. də mühüm rol oynayır. Oğuznamələr bir bütöv halında tədqiqata cəlb olunmasa, bu möhtəşəm abidənin missiya və funksiyasını, ideya və estetikasını başa düşmək olmaz. Buna baxmayaraq Oğuz qəhrəman tipləri haqqında ən tutarlı məlumatı təbii ki, Oğuznamələrin epik variantı olan "Oğuz Kağan" dastanı ilə on iki boydan ibarət "Kitab-i Dədə Qorqud ala lisani taifeyi-Oğuzan" abidəsi verir.

Maraqlananlar üçün bu iki dastan haqqında doğru bilgi vermək gərəkirsə demək lazımdır ki, Turfandan tapılmış fraqmentar xarakterli "Oğuz Kağan" dastanı XIV yüzilin başlarında uyğur əlifbası ilə yazılmışdır. Bu əsərin yeganə əlyazma nüsxəsi Paris Milli Kitabxanasındadır və Supplement Turc 1001 nömrəli başlıq altında qorunur. 12 dastandan ibarət olan Dədə Qorqud Oğuznamələrinin ilk əlyazma nüsxəsi təqribən XV yüzilin ikinci yarısında əsas nüsxədən üzü köçürülmüş bir digər əsərdir. Bu əlyazma Dresden Krallıq Kitabxanası Öffentliche Bibliothek in Dresdendə

qorunur. Bu kitabxananın keçmiş adı Sächische Landesbibliothek in Dresden sonradan dəyişdiriləräk Sächsische Bibliothek – Staats-und Universitätbibliothek olmuşdur. Əlyazmanın latınca ilk təsvirini Henricus Orthobius Fleischer vermiş, Heinrich Friedrich von Diez isə ilk dəfə olaraq həm üzünü köçürmüş (1814-cü ildə), həm də bir boyunu almancaya tərcümə etmişdir. Von Diezin nüsxəsi hal-hazırda Berlin kitabxanasındadır. E.Rossinin elm aləminə tanıtdığı ikinci mətn 6 dastandan ibarət olub başqa bir əlyazmanın 58b-108a səhifələri arasında yer alan Vatikan nüsxəsidir.

Oğuzların mifoloji inanışları, fəlsəfi dünyagörüşləri, ritualları, tarixləri, adət-ənənələri, davranış və yaşamları, bir-biri ilə münasibətləri bu və ya digər dərəcədə Oğuznamə dastanlarına transformasiya olunmuşdur. Oğuznamə adı altında toplanan dastanlar, əfsanələr, salnamələr, atalar sözləri, ədəbi əsərlər və s. bütöv bir oğuz mədəniyyətinin tərkib hissəsinə çevrilmişdir. Ümumilikdə baxdıqda Oğuznamələr oğuzların mənəvi yüksəliş ruhunun, pasionar güclərinin özünəməxsus təzahür formasıdır. Bu təzahürün təqdim şəkli sadəcə xalqın potensial gücü ilə deyil, həm də mifik və epik qəhrəmanlarının ruhu və düşüncəsi, mənəvi və fiziki gücü ilə həyata keçirilir. Ona görə də Oğuz qəhrəmanlarının tipologiyası oğuzların həm keçmişini, həm də bu gününü öyrənməyin ən doğru yoludur. Bu yol dastanlarda mövcud olan bütün surətlərin, xüsusən də baş qəhrəmanla-

rın tipologiyasını, daha doğru bir ifadə ilə tipikləşmiş özəlliklərini araşdırmaqdan keçir.

İstər şifahi, istərsə də yazılı ədəbiyyatda tip və tipologiya haqqında ən yaxşı tədqiqat Mehmet Kaplana aiddir. M.Kaplana görə əski çağlara aid dastanlar ilə məsnəvilərdə, əfsanə və hekayələrdə ümumiyyətlə, xarakterləri eyni olan insanlar, obrazlar vardır ki, onlara tip demək daha doğru olacaqdır. "Tip" adı verə biləcəyimiz bu sadə, bir az da bəsit xarakterli surətlərə kiçik fərqlərlə eyni dövrdə yazılan başqa əsərlərdə də rast gəlinir. Tiplər cəmiyyətin dəyərlərini, inanclarını və düşüncələrini əks etdirən xarakter və simvollardır[1]. Beləliklə, tipikləşməni epik və hətta lirik qəhrəmanın əsas xüsusiyyəti hesab etmək mümkündür. Belə olmasaydı hər bir dastandakı, yazılı ədəbiyyatdakı obraz bir şəxs olar və minlərcə, on minlərcə obraz ortaya çıxardı. Halbuki bu obrazları birləşdirən xarakterik olan ümumi cizgilər vardır ki, bu da onları qəhrəman tipləri kimi araşdırmağa kömək edir. Təbii ki, oxşar hadisələr, oxşar süjet və motivlər oxşar obrazları yaradır ki, bu da tipoloji kateqoriyanın əsas elementinə çevrilir. Həm də qəhrəmanların tipologiyasının araşdırılması Oğuznamə personajlarının semantik strukturunu ortaya çıxartmaqda əsaslı rol oynayacaqdır.

Oğuznamə dastanlarındakı qəhrəmanlar, mifoloji varlıqlar və ümumiyyətlə, bütün canlı-cansız personajlar

[1] Kaplan Mehmet (1996). Türk üdebiyatı üzerinde araştırmalar. 3 Tip tahlilleri, İstanbul: Dergah Yayınları, s.5-6

həm məzmun planında, həm də poetik arxitektonika baxımından bir-biri ilə sıx bağlıdır. Birinin varlığı o birinin varlığını şərtləndirir. Məsələn, Salur Qazan boyların demək olar ki, bütün digər personajları ilə əlaqədardır. Onun özünəməxsus funksiyası olduğu kimi bağlı olduğu qəhrəmanların hər birinin də dastanda öz funksiyası vardır. Ona görə də Salur Qazanın tipolojiləşdirilməsi üçün təkcə onun özünü təhlil etmək kifayət etmir. Təhlilin yarımçıq olmaması üçün Alplar başı Qazandan dastanın bütün əsas obrazlarına, məsələn, Boz atlı Beyrəyə, Qaragünəyə, Bayındır Xana, Alp Aruza və hətta Qaraca Çobana gedən mühüm və zəruri xətlər, tellər araşdırılmalıdır. Bu semantik bağlar dastanın poetik ünsürlərini bütöv şəkildə bir-birinə bağlayaraq mətni vahid və bölünməz poetik sistem halına gətirir.

Bir digər mifoloji varlıq Təpəgöz də bir tərəfdən Oğuz elinə və konkret olaraq Alp Aruza, digər tərəfdən də Basata, pəri qızına, günah işləmiş çobana və nəhayət, xaotik dünyaya bağlıdır. Burada təbii ki, xaos-kosmos zidliyi və məsələnin kosmosun (yəni düzənli dünyanın) xeyrinə həlli əsasdır. Obrazların kontekstini öyrənmədən təbii ki, onların tipologiyasını tədqiq etmək istənilən elmi nəticəni verməyə bilir. O halda Oğuznamə dastanlarının vahid poetik strukturu obrazların bir-birinə bağlılığından, digər ünsürlərin inkişafından, eyni süjet xəttində birləşməsindən asılıdır. Bir sözlə, Oğuznamə dastanlarında hər bir persona-

jın, qəhrəmanın dəqiq, müəyyənləşdirilmiş funksiyası, mürəkkəb semantik dairəsi vardır.

Xatirə Bəşirlinin Oğuznamə dastanlarına müraciətlə qəhrəman tipologiyası haqqındakı yazdığı bu monoqrafik əsəri dünyada mövcud olan qəhrəman tipologiyalarından, o cümlədən Johann Georg von Hahn, Axel Olrik, Otto Rank, Lord Raglan, Joseph Campbel və başqalarının qismən bir-birinə bənzər bu qəhrəman tiplərindən fərqli olaraq türklərin tarixinə, psixologiyasına, dünyagörüşlərinə dayanmaqla yeni bir tipikləşdirmə formalaşdırması ilə seçilir. Belə ki, konkret olaraq Oğuz dastanlarına əsaslanan qəhrəman tipologiyası digər türk xalqları dastanları üçün tətbiq edilə bilməsi ilə yanaşı ümumən, dastan, qismən də mif, əfsanə, nağıl qəhrəmanları üçün də ortaq tərəflərə malikdir. O baxımdan kitabda folklorçular üçün zəruri olan bir çox metodoloji yeniliklər vardır. Bu da əsərin müasir folklorşünaslığın nəzəri və metodoloji bazasına uyğun şəkildə yazıldığını sübut edir. Əminliklə deyə bilərik ki, kitab Oğuznamə dastanlarını öyrənməkdə irəliyə doğru atılmış mühim addım olacaq, gələcək tədqiqatçılara örnək təşkil edəcəkdir.

Kitabda bir əsaslı məsələ də tədqiqatçının Avropa və Amerika folklor məktəblərinin elmi qənaətlərinə əsaslanaraq qəhrəman dedikdə nəyi nəzərdə tutduğu ilə bağlıdır. Azərbaycan folklorçularından fərqli olaraq X.Bəşirli qəhrəman termini adı altında mifoloji obraz, epik obraz, yazılı ədəbiyyatın personajı anlayışlarını baş qəhrəman, anti-qəh-

rəman, köməkçi surətlər, qeyri-adi varlıqlar başlıqları altında araşdırmışdır. Bir sözlə, o, qəhrəman dedikdə sadəcə müsbət obrazları və qəhrəmana yardım edən surətləri deyil, həm də mənfi obrazları nəzərdə tutmuş, onların tipoloji özəlliklərini nəzərə alaraq yeni bir tipləşdirməyə getmiş və yeni bir qəhrəman tipologiyasını təyin etmişdir.

**Füzuli Bayat**

## BİRİNCİ FƏSİL

## TÜRK DASTANÇILIQ ƏNƏNƏSİNDƏ OĞUZNAMƏ QƏHRƏMANLARI

Türk dastançılıq tarixində Oğuz (Oğuznamə) dastanlarının özünəməxsus yeri vardır. Tarixin qaranlıq səhifələrindən orta çağa qədərki hadisələrin izlərinə bu və ya digər şəkildə rast gəldiyimiz bu dastanlar və təbii ki, digər janrlar, əsasən XII əsrdən sonra formalaşmağa başlamış, özünün zirvə nöqtəsinə və mükəmməlliyinə XV-XVI əsrlərdə çatmışdır. Bu dastanların, əfsanələrin, hekayətlərin, ədəbi əsərlərin və nəhayət, şəcərələrin mövzusu fərqli olsa da ideyası, fəlsəfi qənaətləri eynidir. Bu da oğuzların "ol zaman"larının epikləşmiş tarixini, mübarizələrini, dövlət qurmalarını öncə soylulara, sonra xalqa və nəhayət, gənclərə həm də qopuzun müşayəti ilə, Oğuz dilinin şirin ləhcəsində çatdırmaqdır.

Geniş planda götürdükdə türk dastançılıq ənənəsində Oğuznamələrin xüsusi yeri və xüsusi çəkisi vardır. Orta çağda Oğuznamə yaradıcılığı o qədər geniş və müxtəlif janrlarda – dastan, salnamə, ədəbi əsər, atalar sözləri, şeir parçaları, əfsanə və deyimlər – yayılmışdı ki, ayrıca Oğuznamə epik ənənəsi yaranmışdı. Bu epik ənənənin təkrarlanan spesifik motivləri, süjet xətti, obrazlar sistemi vardı. Təbii ki, bu obrazları qəhrəman tipologiyası baxımından araşdırmaq müəyyən mənada və geniş planda türk epik

yaradıcılığında qəhrəmanların tipologiyası deməkdir. Qəhrəmanların tipologiyasının öyrənilməsi bizə oğuzların düşüncə tərzini, dünyaya baxışlarını, yaşam və mübarizələrini başa düşməkdə kömək edəcəkdir.

Müasir insan cəmiyyətlərində olduğu kimi əski türklər və ortaçağın oğuzları da bəyənib qəbul etdikləri əxlaqi, etik normalarla, davranışlarla, hətta həyat fəlsəfələri ilə bərabər bir də rədd etdikləri, bəyənmədikləri ilə mövcuddurlar. Bu fərqlilik, biz kateqoriyasının yanında bir də özgələr və ya o birilər kateqoriyasını da formalaşdırır. Bizim aid olduğumuz cəmiyyət, xalq və nəhayət, millət məhz başqaları adlandırdığımız qrupların, xalqların həyat normaları, dünyagörüşləri fonunda yaranır. Və biz onlardan özümüzü fərqləndirən bir sıra kateqorizə edilmiş davranışlar formalaşdırıb onları həyatımızın məğzinə çeviririk[2].

Oğuz dastanları bütün bunları, yəni hadisələri idarə edən, hadisələri istiqamətləndirən qəhrəmanların, anti-qəhrəmanların, fövqəlvarlıqların simasında yerinə yetirir. Hər bir oğuz qəhrəmanı fərdi keyfiyyətləri, davranışları ilə seçilsələr də, xarakter olmaqdan uzaq olduqları üçün onları bir və ya bir neçə qrupda birləşdirən tipoloji və tipik özəlliklər də mövcuddur. Və hər bir qəhrəmanı qəhrəman edən bir anti-qəhrəman, başqa sözlə tipikləşmiş düşmən obrazı vardır. Dastan məhz zidlikləri, ikili qarşıdurmaları birinci-

---

[2] Bayat Füzuli (2015). "Multikulturalizm baxımından oğuz cəmiyyətində fərqlilik və çoxçeşidlilik düşüncesi", Milli Zəka. Oktyabr-Dekabr, s.32-40

lərin: qəhrəmanların, yəni bizimkilər dediyimiz qrupun lehinə həll etmək üçün söylənir. İdealizə edilmiş qəhrəmanların şərdən, zülmdən, pislikdən uzaq, saf bir dünya yaratmaq təşəbbüsləri də buradan qaynaqlanır. Bütün bunlar isə oğuzlarda ozan adlandırılan sənətkarın (başqa türk xalqlarında baxşı, akın, jırau və s.) yaradıcılıq məhsuludur.

Epik Oğuznamə ənənəsində söyləyici tipi olan ozana xüsusi əhəmiyyət verilməsinin zəruriliyi dastan ənənəsinin davamlılığı, fasiləsizliyi baxımından vacibdir. O halda mətnin informativ yükünün məsuliyyəti bütün hallarda ozan adlı xalq sənətkarlarının üzərinə düşür. Söyləyici və mətn, söyləyici və dinləyici arasındakı münasibətin dialektik qanunauyğunluğu ozanla dastan əlaqəsinin vəhdətindən doğur. Burada variant-invariant, motiv-arxetip əlaqəsi süjet, motiv, obraz, epik formullar baxımından da qorunur. Hər halda Oğuz epik ənənəsində "Haqq-Taala könlünə ilham etmiş" ozanın rolunu ümumtürk kontekstində tədqiq etmək, Oğuz tarixini, Oğuz düşüncəsini, Oğuz estetikasını, Oğuz əxlaqını, Oğuz məişətini öyrənmək baxımından zəruridir.

Oğuznamə dastanları, xüsusən də Dədə Qorqud boyları obrazların tipologiyası baxımından çox zəngindir. Burada məsələyə iki aspektdən baxmaq mümkündür:

Birincisi, Oğuznamə oğuz türklərinin bədii yaradıcılığını, özünüifadə formasını əks etdirir.

İkincisi, Oğuznamə oğuz türklərinin yaradıcılıq nümunələrindən biridir.

Və nəhayət geriyə "Oğuznamə" sözünün Heinrich Friedrich von Diez tərəfindən verilən izahı qalır. Von Diez Təpəgözlə bağlı məqaləsində bu barədə aşağıdakı məlumatları verir. Oğuznaməni Oğuz kitabı, yaxud Oğuz tarixi kimi başa düşmək məsələyə birtərəfli yanaşmaq olardı. Əksinə, bunu oğuzlara əlavə yazı, yaxud oğuzlara həsr kimi aydınlaşdırmaq lazımdır. Əgər hər bir hekayət bütöv və bitkin olsaydı, bu oğuz tarixi adlanmalı idi. Ancaq müəyyən bir hadisə baş verdikdən sonra Dədə Qorqudun üçüncü bir şəxs kimi onu söyləməsi, hər dəfə yalnız tərif və xeyir-dualarla məhdudlaşır. Çox güman ki, "Oğuznamə" ifadəsinin tez-tez təkrar olunması bütün kitaba həmin adın verilməsinə xidmət edir. Bütün bunlardan o qənaətə gəlmək olur ki, kitab üçüncü naməlum bir şəxs tərəfindən toplanmışdır. Belə ki, Qara dəniz sahilindəki yunanlılarla baş verən hadisələr və İç oğuza Daş oğuzun asi olması hadisələri çox sonralar, oğuzların soykökü dövründəki hadisələr isə bir neçə min il əvvəl baş vermişdir. Burada da Dədə Qorqud iştirak edə bilməzdi. Bu ziddiyyət yuxarıda adı çəkilən müqəddimədən görünür: belə ki, burada Dədə Qorqudun axırıncı Oğuzları tanıya bilməsi əvəzinə, onun ilk Oğuzları tanıması söylənilir, çünki oğuz millətinin soykökü üç min ildən də çox əvvəl yaşamışdır[3].

Kamil Vəliyə görə: "Oğuznamə – oğuz eposudur. Oğuznamə – oğuz tarixidir. Oğuznamə – oğuz mədəniyyəti-

---

[3] Dits. F.H (2014). "Təğəgöz, yoxsa oğuz siklopu". Tərcümə edən T.İ.Kazımov. Folklor və etnoqrafiya, 2014, sayı 3-4. s.5

nin nəsildən-nəslə keçə-keçə yaşayan həyat kitabıdır”[4]. Bizə qədər müxtəlif əlyazma nümunələrində gəlib çatan Oğuznamələr salnamə, mənzumə, atalar sözləri, əfsanə, rəvayət və dastanlardan ibarətdir. O halda Oğuznamə nədir. Bu suala cavab verən Füzuli Bayat Oğuznaməyə belə bir tərif verir: “Oğuzların ictimai-siyasi, tarixi-mifoloji, dini-fəlsəfi görüşlərini, epik-bədii təfəkkürünü əks ətdirən nümunələrə elmi ədəbiyyatda “Oğuznamə” deyilir. Oğuznamə geniş anlayış olub, özündə oğuzların kosmoetnoqonik və təqvim miflərini, dastanlarını, rəvayətlərini, atalar sözlərini, şəcərə dəbini, məsəllərini, şeir parçalarını birləşdirir. Bir sözlə, oğuzlar haqqında hər hansı bədii, tarixi, təsviri məlumat Oğuznamə adlanır”[5]. Təbii ki, daşıdığı məlumatın səciyyəsi baxımından Oğuznamələr tarixi, epik, poetik və paremioloji şəkilləri özündə ehtiva edir. Onu da demək lazımdır ki, bu monoqrafiyada əsasən, Oğuznamə silsiləsinə daxil olan digər mətnlər və “Koroğlu” dastanı, salnamə və ədəbi Oğuznamələrin hamısı araşdırma obyekti olmamışdır. Ancaq əsasən, “Oğuz Kağan” dastanı, “Kitab-i Dədə Qorqud” qəhrəmanları tədqiq edilmişdir.

“Oğuz Kağan” dastanının, Dədə Qorqud boylarının, Mənzum Oğuznamələrin, Oğuznamə parçalarının, şəcərə Oğuznamələrinin, müxtəlif Oğuznamə əhvalatlarının hər

---

[4] Oğuznamələr (1993). Tərtibçilər və ön sözün müəllifləri: K.Vəliyev, F.Uğurlu. Bakı: Bakı Universiteti nəşriyyatı, s.3

[5] Bayat Füzuli (2000). “Oğuznamələr. 1-8”, Kitabi-Dədə Qorqud ensiklopediyası, Cild II, Bakı: Yeni nəşrlər evi, s.225

biri zəngin epik məlumatlardan yararlanan, möhtəşəm Oğuz dastanının məlumat qaynağıdır və onun hissələri, qırıntılarıdır. Bunlar hamısı vahid bir obrazın – Oğuzun ətrafında birləşmiş, əsl qəhrəman, əsl müdriklik simvolu buradan paylaşılmışdır. Burada qəhrəmanlar, onların yoldaşları, düşmənlər, qadın obrazları, dini-mifoloji varlıqlar, xalqın müxtəlif təbəqələrinin nümayəndələri var. Bu isə bir çox tipoloji paralellərin mövcudluğundan xəbər verir. Sadəcə Oğuznamələr deyil, ümumiyyətlə, digər dastanların obrazlar sistemi də iki semantik sahəyə bölünmüş obrazların ətrafında təmərkəzləşir. Bunlardan biri qəhrəman, onun silahdaşları, köməkçiləri, digəri də antoqonistdir. Antoqonist real obraz olduğu kimi, xüsusilə, arxaik epik dastanlarda dini-mifoloji varlıqlar da ola bilər. Həm qəhrəman, həm də antoqonist konsentrasiya mərkəzidirlər ki, ətraflarında bir çox obrazlar vardır.

Oğuznamə dastanlarındakı epik qəhrəmanlar oğuzların ictimai şüurunun uzun zaman kəsiyində formalaşmış etik, mənəvi-əxlaqi normaları ifadə etmələri ilə diqqət çəkirlər. Alp və onun alp-ərən, qazi kimi törəmələri epik mətnlərin məzmunundan da göründüyü kimi yalnız xeyirxahlıqlar etmək, qəhrəmanlıq göstərmək üçün dünyaya gəlmişlər. Oğuz qəhrəmanlarının başlıca mahiyyəti də məhz digər qütbdə yer alan anti-qəhrəmana qarşı mübarizədən ibarətdir. Oğuznamələrdə Oğuz elində baş verən hadisələr dünya dövləti qurmağa və onun sərhədlərini qorumağa yönəlmişdir. Bu aparıcı ideya ətrafında təmərküzləşən qəhrə-

man tipləri qruplaşaraq epik təhkiyənin vahidliyini təmin edir.

Oğuz dastanlarında diaxronik planda qəhrəmanlar əcdad, mədəni qəhrəman, qurtarıcı kimi ilkin funksiyaları yerinə yetirmiş, bu mifoloji qəhrəman modeli epik yaradıcılıqda yeni dəyər qazanmış və hər birinin tipləri ortaya çıxmışdır. Daha doğrusu bəzən bir mifoloji qəhrəmanın simasında özünü göstərən əcdadlıq, demiurqluq və xilaskarlıq diferensiallaşaraq ilk hökmdar, dövlətin və dövlət müəssələrinin qurucusu, vətəni, dövləti təhlükə anında xilas etmək üçün səfərbərliyə alan arxaik, qismən də klassik qəhrəman tiplərinə dönüşmüşdür. Oğuz dastanlarında qəhrəmanların tipologiyası mifdən dastana, ritualdan mərasimlərə keçidin təzahürüdür. Qəhrəman nə qədər epikləşirsə epikləşsin, o hər zaman aid olduğu mifoloji-ritual dünyanın özəlliklərini az və ya çox dərəcədə özündə saxlaya bilir. Bunun ən əsas əlaməti mifoloji qəhrəmanların tipologiyasının (eyni ilə epik qəhrəmanların da) bir-birinə bənzəməsidir. Bu bənzərliyi, sadəcə mələklərdən də gözəl olan heyvan əlamətli Oğuzda deyil, heyvan özəllikli Basatda, dünyanın başqa xalqlarında, məsələn, Beovulfda, Siqmundda və başqa dastanlarda da görmək mümkündür. Bu paradoksallıq mifin və ritualın təbiətini qoruyan mifoloji düşüncə ilə bağlıdır.

Mifoloji-ritual dünyanın bir çox elementini, motivini özündə qoruyan ilk qəhrəman Oğuz Kağanın özüdür, çünki o, zooloji varlıqları özündə birləşdirən alp olmaqla yanaşı

həm də ilk dünya hökmdarıdır, tayfalara ad verəndir. Sonrakı oğuz qəhrəmanları da rudiment formasında olsa da, bəzi mifoloji ünsürləri qoruyub saxlamışlar. Bunu Bayındır Xanda, Salur Qazanda, Alp Aruzda, Bayböründə, Buğaçda, özəlliklə Basatda, qeyri-adi varlıqlardan Təpəgözdə, pəridə və digərlərində görmək mümkündür.

Yüksək fəlsəfi, estetik, əxlaqi, dini-mifoloji, mənəvi dəyərə sahib Oğuznamələr və Oğuz dastanları qəhrəmanları, anti-qəhrəmanları, dini-mifoloji varlıqları, spesifikliyi, motiv və süjetləri, xronotopik məziyyətləri ilə türk dastan dünyasının başlıca əsərlərindən biridir.

# İKİNCİ FƏSİL

# OĞUZ DASTANLARINDA ALPLIQ, ALP-ƏRƏNLİK VƏ QAZİLİK TİPOLOGİYASI BAXIMINDAN QƏHRƏMAN

## 2.1. Mövzuya Giriş

Epik əsərdə, xüsusən də tarixiliyi, hadisələrə real baxışları, ideyası və missiyası ilə seçilən dastanlarda qəhrəmanların tipologiyası ilə bağlı araşdırmalar çox az aparılmışdır. Əslində qəhrəman və anti-qəhrəman obrazlarını öyrənməyin ən doğru yolu epik əsərdə mövcud olan bütün surətlərin (qəhrəman, anti-qəhrəman, yardımçı və qeyri-adi varlıqlar) tipologiyasını tədqiq etməkdən keçir. Mifoloji obrazın epik qəhrəmana, xaosun kosmosa, mifoloji zamanın epik zamana dönüşümü qəhrəmanların tipologiyasının öyrənilmə dərəcəsinə bağlıdır.

Təbii ki, hər bir dastanda ideal bir cəmiyyət və bu cəmiyyətin ideal qəhrəmanı, hiyləgər və güclü düşməni, qeyri-adi varlıqları təsvir olunur. Özəlliklə ideal cəmiyyət, ideal dövlət və ideal qəhrəman tipləri söyləyənlə dinləyənin davranışlarını, həyat fəlsəfəsini təyin edir. Şifahi ənənədə yaşayan dastan bir tərəfdən fərdi azadlıq, cavabdehlik, birləşmə, yardımlaşma, doğruluq, dürüstlük, çalışqanlıq, cəsarət, mərdlik, əliaçıqlıq, sədaqət, vəfa, əxlaq və s. kimi keyfiyyətlərlə bizi həyata hazırlayan fərdi dəyərlərə, digər

tərəfdən vətən, bayraq, xalq, din, namus, qeyrət kimi milli dəyərlərə önəm verməklə insanları həyata hazırlayır. Dastan eyni zamanda bizi barış, sevgi, qarşılıqlı hörmət, tolerantlıq, humanistlik kimi bəşəri dəyərlərə xidmət etməyə səsləyir. Belə bir fərdi, milli və bəşəri missiya ilə yüklənmiş dastanlar bütün zamanlarda xalqın tarixi, istəkləri fonunda şəkilləndiyi üçün bir növü sözlü tarix vəzifəsini yerinə yetirir. Buna görə də hər bir xalqın dastanında və ümumiyyətlə folklorunda ortaq motivləri, ortaq süjetləri təsbit etmək mümkündür. O baxımdan Johann Georg von Hahnın, Axel Olrikin, Otto Rankın, Lord Raglanın, Joseph Campbelin qəhrəman tipologiyası dünyanın müxtəlif xalaqlarının folkloruna uyğulana bilir. Ancaq türk dastanları üçün əsas qəhrəman tipi alp, alp-ərən, qazi və ya bahadırdır.

Onu da qeyd etmək lazımdır ki, qəhrəman tipləri özünün bariz ifadəsini bəylik institutunda göstərir, çünki bəylik kodu dastan qəhrəmanlarının davranışını müəyyən edir. Oğuz bəyliyi xalqın əxlaqi-mənəvi ideallarının, arzularının ifadəsidir. Oğuznamə təfəkkürü dastan personajlarını fərdiləşdirmir, buna baxmayaraq onları iki ideal tipdə təqdim edir. Bunlardan bir alp, alp-ərən, qazi olan oğuz bəyləridir, digərləri də əsilzadə davranışından uzaq kafirlərlərdir. Bu barədə F.Sümerin fikirləri də maraqlıdır. Onun səciyyələndirməsində oğuz bəylərinin xarakteri aşağıdakı kimidir: “Oğuzların xasiyyət və xarakterinə gəlincə, məlumat azlığı üzündən bu xüsusda tam və qəti hökm vermək o qədər də asan deyil, ancaq onu söyləmək mümkündür ki, oğuzlar

sürdükləri həyat tərzi və yaşadıqları mühitin çətin şərtlərinin təsiri ilə olduqca tündməcaz idilər. Vuruşqan olmaq onların başlıca fəzilətlərindən biri idi. Bununla bərabər, onlar namuslu, doğruçu və qonaqpərvər insanlardır. Oğuzlar öz başçılarına (dini və siyasi) son dərəcə bağlı və hörmət edən insanlardır”[6] (108, 68).

## 2.2. Oğuznamələrdə mifik və epik qəhrəmanın tipologiyası

Öğuznamə dastan silsiləsi heç şübhəsiz “Oğuz Kağan” dastanı ilə başlayıb ən mükəmməl şəklinə “Kitab-i Dədəm Qorqud Ala Lisan-i Taifey-i Oğuzan” adlı 12 dastanla çatmışdır. Uzunkörpü variantı və salnamələrin çoxu hər nə qədər İslamdan öncəki türk düşüncəsinin bir çox elementlərini yaşatsa da Oğuz Atalar Sözündən başlayaraq Əndəlibin ədəbi Oğuznaməsinə qədər İslami bir dəyər içində təqdim edilmişdir. Burada bizi İslamın Oğuznamə dastanlarına və geniş mənada mətnlərinə sonradan əlavə edilməsi kimi məsələlər maraqlandırmır, çünki Dədə Qorqud dastanlarına dayanaraq İslam ünsürlərinin katib tərəfindən mətnə sonradan daxil edilməsi məsələyə səthi yanaşmadır və elmi olmaqdan daha çox ideolojidir. Dədə Qorqud Kitabına qədərki Oğuz dastanlarında qəhrəmanların alp kateqoriyası üzərində dəyərləndirilməsi onu göstərir ki, davra-

[6] Sümer Faruk (1987). Köroğlu. İstanbul: Türk dünyası araşdırmaları, s.68

nış formasının ən üst qismində alplıq institutu durur. Alplıq sadəcə igidlik, qəhrəmanlıq, şücaət, qorxmazlıq, fədakarlıq, güc simvolu deyil, həm də orta çağ Oğuz qəhrəmanlarının yaşam biçimidir. O halda qəhrəman tipologiyasında alplıq dəyərlər silsiləsinin həm də özüdür. Bütün qalan davranış, əxlaq, igidlik normaları alplığa görə dəyərləndirilir. Qısacası, alplıq bir ölçü vahididir.

Oğuz dastanının ilk variantı olan "Oğuz Kağan"da qəhrəman epikləşsə də məhz bir neçə mifoloji funksiyanı özündə saxlamaqla ilk əcdad, ilk hökmdar, ilk mədəni qəhrəmandır. Dastanda onun Ay Kağanın gözlərinin yarıb butamasından dünyaya gəlməsi və "Ay kağanın Oğuzu dünyaya gətirməsi əski möcüzəli doğuluş motivinə (partogenez) uyğun gəlir və Oğuzun bakirə, pak hesab olunan Aydan doğulması onu Tanrı oğlu hesab etməyə imkan verir"[7]. "Oğuz Kağan" dastanında qəhrəman alpdan daha çox mifoloji aktların daşıyıcısıdır. Mifologiya bir millətin ortaq keçmişinə aid xatirələrinin yeganə qaynağıdır və insan bütün həyatı boyu tarix, din kimi mifi də özünə model olaraq qəbul etmişdir. Oğuzun epik qəhrəmandan çox mifoloji qəhrəman olması onun möcüzəli doğuluşunda da özünü göstərir. Belə ki, onun mifoloji qəhrəman olması, anasının astral kulta bağlanması, üzünün göy, ağzının qırmızı, gözlərinin ala, saçlarının qara, ayağının öküz ayağına, belinin qurd belinə, kürəyinin samur kürəyinə, köksünün qurd köksünə

[7] Bayat Füzuli (1993). Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah, s.141

bənzəməsi və bədəninin hər yerinin tüklə örtülməsi kimi özəllikləri əcdadlığına işarə edir. S.Rzasoya görə "doğuluş" bir mifologem olaraq mifoloji kosmogenezin əsasını təşkil edir. Mifoloji dünya modelində gerçəkləşən dünyanın strukturunun bütün özünəməxsusluğu bu doğuluşa müncər olunur. Doğuluş öz strukturuna görə qatbaqat paradiqmatik quruluşa malik mürəkkəb semiotik sistemdir. Burada doğuluş – yaradılışla bağlı müxtəlif süjet, mifologem və obrazlar biri-biri ilə paralelləşmiş və biri-birinə transformasiya olunmuşdur. "Oğuz kağan" mifində də müxtəlif mifoloji təsvir kodlarının (zooloji, antropoloji, astral və s.) biri-birinə kodlaşmasını müşahidə edirik. Oğuz Kağanın bir insan olaraq doğuluşu eyni zamanda canlı və cansız dünyanın bütün mənalı ünsürlərinin doğuluşunu özündə işarələyir. Bu da öz növbəsində həmin kodları təcəssüm etdirən mif tiplərinin bir-biri ilə paradiqmatik bağlılığından irəli gəlir. Bütün miflər vahid kosmoqonik mif ətrafında birləşir[8].

Həm də Oğuzun evlənməsi ilə oğuzların yaranması onun bütün oğuz qövmünün əcdadı hesab etməyə əsas verir. Oğuz altı oğlu (Gün, Ay, Ulduz, Göy, Dağ, Dəniz) ilə həm oğuz xalqını, həm də oğuzların kosmik dünyasını yaradır. "Oğuz Kağan" dastanı özündə yaradılış aktını, yəni kosmologiyanı və epik əsər olduğu üçün də qəhrəmanlıq qəlibini birləşdirmişdir. Mifoloji alt qatla epik xarakterlərin

---

[8] Rzasoy Seyfəddin (2009). Oğuz mifologiyası (metod, struktur, rekonstruksiya). Bakı: Nurlan, s.90-91

bir-birini əvəz etdiyi Oğuznamələrin ilki və sonuncusu yaradılış mifi ilə epik qəhrəmanlığı birləşdirmişdir.

Oğuznamələrin mükəmməlliyi də bu birləşdiricilik xüsusiyyətindədir.



**Şəkil 1. Oğuz Kağan**

Əcdadlıq həm də mədəni qəhrəmanlıqdır. Mədəni qəhrəmanlıq isə nizam, qayda-qanunlar yaratmaq, adət-ənənələri müəyyənləşdirmək, həyatın davamlılığı üçün lazım olan əşyaları düzəltmək, yaxud əldə etmək, sosial təsisatları qurmaqdır. Oğuzun daha sonrakı fəaliyyəti mədəni qəhrəman funksiyasına uyğun gəlir. Oğuz Kağan ilk öncə özünü hökmdar elan edir, bəylərin, vəzirlərin vəzifələrini müəyyənləşdirir, "buyan"ı oğuzların damğası, "Bozqurd"u isə hərb hamisi elan edir. Bundan sonra dünyanı fəth etməyə başlayır. Bütün bu fəaliyyətində o, özünü bir mədəni qəhrəman, ilk əcdad kimi göstərir. Daha sonra Oğuz altı oğlunu sağ və sol qanada ayırmaqla Oğuz elinin strukturunu müəyyənləşdirir.

Dastanda onun əcdadlığı ilə mədəni qəhrəmanlığı bir-biri ilə bağlı şəkildə təqdim edilmişdir. Məsələn, Oğuz Kağanın xalqlara səkləb, qıpçaq, kaqarluk, xalaç kimi ad verməsi, adət-ənənələri müəyyənləşdirməsi, dövlətin strukturunu təyin etməsi, protokolda oturmanı, yemə-içməni qaydaya salması və s. onun mədəni qəhrəmanlıq funksiyasına aiddir. "Kanğalar takı çaptılar munlar kanğa yürüməktə kanğa kanğa söz berə turur erdilər erdi. Anunq üçün anlarğa kanğa at koydılar. Oğuz Kağan kanğalarnı kördü güldi, takı aytdı kim kanğa kanğa birlə ölüqni tiriq yürüqürsin. Kanğaluğ sənqə at bolğuluq kanğa bilqürsün deb dedi"[9]. (Arabalar düzəltdilər. Kanğa, kanğa deməklə kanğa sözü

---

[9] Bayat Füzuli (1993). Oğuz epik ənənəsi, s.120, 134

belə yarandı. Bunun üçün də onlara kanğa adını qoydular. Oğuz Kağan arabaları gördü, güldü, belə dedi: Araba ilə cansız qəniməti canlı qənimət çəkib aparsın. Kanğaluğ sizə ad olsun. Bilginiz də araba olsun). Ad vermə Dədə Qorqud dastanlarında Qorqud Atanın funksiyasına daxildir.



**Şəkil 2. Oğuz Kağan və altı oğlu**

Burada kaqarluk/kanqlı, qıpçaq, karluk, xalaç, türkman kimi boyların ortaya çıxması və hamısının əcdadlarını Oğuza bağlamaları oğuzların adları çəkilən türksoylu qruplardan ibarət olan oba və oymaqları öz içərisinə almasının nəticəsidir. Ona görə də Oğuznamə dastanlarında karlukların, qıpçaqların, hətta türkmənlərin deyil, oğuzların vəsf

olunması məqsəd və mövqe ilə bağlıdır. Hətta Dədə Qorqud boylarında "türkmənin arsızı" ifadəsi və düşmən məliklərindən ən böyüyünün Qıpçaq Məlik ünvanı daşıması buna misal ola bilər. Ona görə də Oğuznamə dastanlarında Oğuz birliyinin subyekti olan tayfalar təriflənir, onların qəhrəmanlığı, alplığı vəsf olunur.

Qəhrəmanın adı mifin gücünü ifadə edir. "Mifin ən güclü cəhətlərindən biri məşhur adqoyma prosesi ilə bağlıdır. Dastandan məlum olur ki, qəhrəmanlara ad birdən-birə, onlar doğulan kimi verilmir. Adı qazanmaq lazımdır. Və bəzən ad qazanmaq uğrundakı mübarizə özü bütövlükdə boyun meydana çıxmasını, formalaşmasını şərtləndirir... Ad sanki onlara gələcək konkret fəaliyyət proqramı verir"[10].

Dədə Qorqud Oğuznamələrinin I, III, VIII boylarının süjetində adqoyma bir ritual içində təqdim olunur. Bu ritualın məqsədi qəhrəmanın (neofitin) ad alması - yəni sosial status – bəylik statusu qazanmasını şərtləndirir. Ancaq adalma süjet strukturu mühüm ritual səciyyə daşıyan aktdır. "...Dastanlarda adqoyma ritual səciyyəli olub, inisiasiya mərasiminin tərkib hissəsidir. Adalma bir gəncin kişilər cəmiyyətinə daxil olmasıdır. Şaman mətnlərində şaman olma mərasimindən sonra şamanın ad alıb şaman kimi yenidən qurulması dastanlarda qəhrəmanın yeni ad alıb, yeni status qazanması ilə üst-üstə düşür"[11]. Qəhrəmanın adalması onun

---

[10] Abdulla Kamal (1999). Sirr içində dastan və yaxud Gizli Dədə Qorqud- 2. Bakı: Yeni nəşrlər evi, s.94

[11] Bayat Füzuli (1993). Oğuz epik ənənəsi, s.21

bütövlükdə varlığını şərtləndirən məsələ olduğu üçündür ki, "Eyni ritual aktın Altay-Sayan xalqlarının dastanlarında, özbək, qazax, qırğız folklorunda, bütün türk folklorunda təkrarlanması bunun etnoqrafik baxımdan gənc döyüşçü cərgəsinə qəbul mərasiminin qalığı kimi yozulmağına imkan verir. Belə mərasimdə gənc döyüşçüyə adla yanaşı at, qılınc və kəmər də verirdilər"[12].

Dastanda Oğuzun bir funksiyası da dünya dövləti qurmaqdır. Onun hərbi birlikləri müəyyən etməsi, oğuzları 24 tayfaya bölməsi oğuz cəmiyyətinin mükəmməl struktura sahib olduğu mənasına gəlir. Bu tayfa strukturunu Oğuzla bərabər Uluğ Türk adlı vəzir yaratmış olur.

"Oğuz dastanının semantik-arxaik strukturunda hər şeyi bilən (müdrük qoca) ağsaqqal, bilgili, uzun təcrübəli Uluğ Türük/Türk obrazı da böyük maraq doğurur. Arxaik dastanlarda və mifoloji əfsanələrdə bilgə qoca xarakteri, bir çox məqamda ilk şaman ruhunun analoji halı kimi təqdim edilir. Dastanın salnamə variantlarında hər şeyi bilən bilgələr, vəzir funksiyasını yerinə yetirirlər. Oğuz dastanında Ulu Türkün (dastanda Uluğ Türük) simasında ilk şaman və ya el ağsaqqalının funksiyası açıq şəkildə görünür. Bu epik varlıq "Oğuz Kağan" dastanının son qismində, daha doğru-

[12] Bayat Füzuli (2004). "Advermə", Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, s.9

su Oğuz dövlətinin idarəedici sistemindən söz açılanda ortaya çıxır"[13].

Mifoloji qəhrəmanın tipologiyası ilə epik qəhrəmanın tipologiyası arasında sələf-xələf ardıcıllığı olsa da oxşarlıqlarla bərabər fərqlər də vardır. Mifik qəhrəmanın tipologiyası əsasən üç əsas xətt üzərində qurulur:

1. Mifik qəhrəman əcdadır, yəni bütün oğuzlar Oğuz Kağandan törəmiş, onun nəslindən olan xalqdır. Elə buna görə də Oğuz Kağan oğuzlarda ilk insan, ilk əcdaddır.

2. Mifik qəhrəman bu və ya digər şəkildə mədəni qəhrəmandır. Oğuz Kağan ayrı-ayrı türk qəbilələrinə ad verməklə faktiki olaraq onlara var olmaq statusu verir. Oğuz Kağan eyni zamanda oğuz boylarının cəmiyyətdaxili həyat normalarını, adət-ənənələrini, dövlətin simvollarını, xarici və daxili siyasətini müəyyənləşdirir, adamların, tayfaların, xalqların spesifik özəlliklərini müəyyənləşdirir.

3. Mifik qəhrəman xilaskardır. Oğuz Kağan xalqını qorxunc mifoloji varlıq olan Kıatdan qurtarır, oğuzları potensial təhlükə mənbəyi ola biəcək qonşulardan xilas edir.

Mifoloji qəhrəmanın tipologiyası ilə epik qəhrəmanın tipologiyasında üst-üstə düşən yerlər çoxdur: Mifik qəhrəmana məxsus keyfiyyətlər Dədə Qorqud dastanlarında təkcə özünü qorumaqla qalmır, əcdad-qəhrəman, mədəni qəhrəman, xilaskar-qəhəman cizgiləri "Dədə Qorqud" qəhrəmanlarının cilalanmasına, inkişafına səbəb olur.

[13] Bayat Fuzuli (2006). Oğuz destan dünyası. Oğuznamelerin tarihi, mitolojik kökenleri ve teşekkülü. İstanbul: Ötüken, s.75

Dədə Qorqud dastanı qəhrəmanları hər hansı şəkildə mifik cizgilərdən qidalanır. Mifik cizgiləri bu obrazların poetik quruluşunda görmək, bərpa etmək mümkündür. Buna baxmayaraq fərqli cəhətlər də vardır: Dədə Qorqud qəhrəmanları mifik qəhrəmanlar kimi sadə, primitiv, sxematik surətlər deyidir. Buradakı qəhəmanlar bədii cəhətdən mükəmməldir və onlarda qəhrəman obrazının xarakterik əlamətləri mükəmməl cizgilərə malikdir. Bu fərqlər özünü üç əsas istiqamətdə göstərir:

1. Qəhrəmanın igidliyi, ərdəmliyi. Buraya anaya, qadına hörmət, kişinin ailədə mövqeyi, igidliyin oğuz qəhrəmanları üçün bir ərdəm olması, ata, qardaş qanını və ya intiqamını almağın fəzilət olması və s. daxildir. Bayındır Xanın ağ meydanında azğın buğanı basıb başını kəsən gənc alpın simasında ozan ərdəm və hünərin nə olduğunu aşağıdakı kimi sıralayır:



**Şəkil 3. Buğaçın buğa ilə savaşı**

Hey Dirsə Xan! Biglik virgil bu oğlana
Taxt virgil ərdəmlüdür
Boynı uzun bidəvi at virgil bu oğlana
Binər olsun, hünərlüdür
Ağayıldan tümən koyun virgil bu oğlana
Şişlik olsun ərdəmlüdür
Qaytabandan qızıl dəvə virgil bu oğlana
Yüklət olsun, hünərlüdür
Altun başlı ban iv virgil bu oğlana,
Kölgə olsun ərdəmlüdür
Çigni quşlu cübbə ton virgil bu oğlana
Geyər olsun hünərlüdür[14].

2. Qəhrəmanın sosial statusu. Cəmiyyətdə uşaqlıq, gənclik dövründən bəyliyə keçid, bu zaman sosial statusun dəyişməsi ilə bəzi şeylərin dəyişməsi (yeni ad alma, qılınc, yay-ox alma, hədiyyələr alma və s.) baş verir.

3. Qəhrəmanın alplığı, alp-ərənliyi, qaziliyi. Qəhrəman tipologiyası baxımından ən çox üzərində durulan məhz bu üçüncü istiqamətdir.

### 2.3. Alp və alp-ərənlik

Oğuz dastanlarının araşdırılmasında epik qəhrəmanın cəmiyyətin, millətin ideal insan tipi olduğunu görürük.

[14] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1. Giriş-metin-yıpkıbasım. Ankara: TDK, s.82-83

Oğuzlarda alp, qıpçaq və karluqlarda bahadır olan dastan qəhrəmanı içindən çıxdığı millətin mənəvi dəyərlərini yaşadan insandır. "Oğuz Kağan" dastanında belə bir qəhrəman tipi alpdır. Türk alplığının kökündə qonar-köçər qəbilə mədəniyyətinin sosial statusu və bu statusun alplığa dayanan mədəni-mənəvi institututu durur.

Mənası qorxmaz, igid, cəsur və ya sadəcə qəhrəman olan alp sözü İranlıların Əfrasiyab dedikləri əfsanəvi türk hökmdarı Alp Ər Tunqanın adında, bir sifət kimi də Göytürk imperiyasında cəsarətli kağanların adlarında işlədilmişdir. Alp deyəndə ilk növbədə təbii ki, adında bu ünvanı yaşadan əfsanəvi Turan hökmdarı Alp Ər Tonqa başa düşülür. Alp Ər Tonqa adı mifoloji və epik düşüncədə bir arxetip-simvol kimi qalmışdır. Qədim türk yazılarında Alp tərkibli adların (Yigin Alp Turan) mövcudluğu bu arxetipin böyük və şərəfli  tarixindən xəbər verir. Göytürk kağanlığında da alp adında hökmdarlar olmuşdur. Məsələn, Alp Kağan buna misal ola bilər. Alp sifəti Uyğur Kağanlarının da adında var. Ancaq alp adı sadəcə məşhur kağanlara, qəhrəmanlara deyil, eyni zamanda heyvanlara da verilirdi. Məsələn, Kül Tiginin atlarından birinə Orxan-Yenisey yazılarında Alp Şalcı deyildiyi bilinir. Alplıq Alp Ər Tunqa ilə başlayaraq  Orxon-Yenisey abidələri ilə davam edir. Daş kitabənin üzərinə həkk olunmuş Yigin Alp Turan adı, epik dastan qəhrəmanları Alpamış, Alıp Manaş adları alplığın bilinəndən daha geniş ərazidə və türk boylarından göytürk-

lərdə, oğuzlarda, karluqlarda, Altay-Sayan türklərində də mövcud olduğunu göstərir.

Alplıq "Koroğlu" dastanının həm Azərbaycan, Anadolu, həm də Orta Asiya variantlarında qoçaqlar, dəlilər, çoralar, kələşlər adı altında yeni bir anlam qazanmışdır. "Koroğlu" dastanı orta əsr abidəsi olsa da onun variantlarında alp-ərən və qazi tiplərinə rast gəlmirik[15].

Bəzi ümumiləşdirmələrlə (F.Köprülünün, F.Bayatın məqalə və kitabları[16]) türk mədəniyyətində alplığın mahiyyətini aşağıdakı formada vermək mümkündür: Bəzi elm adamlarına görə[17] türk qəhrəmanlıq dastanlarındakı alp tipini türk xalqlarının tarixindəki sosial, iqtisadi, coğrafi və mədəni dəyişikliklərlə bağlı 3 qrupda öyrənmək daha məqsədəuyğundur:

1. Böyük dövlət qurmaq idealları ilə yaşayan İslamiyətdən öncəki alp tipi. Buraya "Oğuz Kağan", "Alp Ər Tonqa" kimi dastanlardakı cahangirlik və cahan hakimiyyəti məfkurəsi ilə dövlət qurmaq istəyən alp-bahadırlar daxildir.

---

[15] Bax. Bəşirli Xatirə (2000). "Koroğlu" dastanı. Tarixi-mifoloji gerçəklik və poetika. Bakı: Elm; Bəşirli Xatirə (2016). "Koroğlu" dastanı. Azərbaycan və Orta Asiya versiyaları əsasında. Bakı: Xəzər Universiteti Nəşriyyatı

[16] Bax. Köprülü Fuat (1989). "Alp", İslam Ansiklopedisi. c.2. İstanbul: MEB; Bayat Füzuli (1993). Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah; Bayat Füzuli (2000). "Alp", Kitabi-Dədə Qorqud ensiklopediyası, C.II, Bakı: Yeni Nəşrlər Evi, s.20-21

[17] Bayat Füzuli (2000). "Alp", Kitabi-Dədə Qorqud ensiklopediyası, C.II, Bakı: Yeni Nəşrlər Evi, s.20-21

2. Vətəni qoruyan, xalqı əsarətdən qurtarmaq, insanların uğradığı haqsızlığa qarşı mübarizə aparan alplar, qıpçaq dastanlarında isə bahadırlar. Buraya bütün türk dünyasında mövcud olan "Koroğlu" dastanının, həmçinin "Manas" dastanının qəhrəmanları daxildir.

3. İslami dəyərlər uğrunda mübarizə aparan, əsasən "Dədə Qorqud" və qəzavatnamə tipli dastanların alp-ərənləri daxildir.

T.Hacıyev hesab edir ki, Alpamış Alp Bamsının fonetik kipləşməsidir[18].

Qazan Xan da dastanda alplar başı kimi təqdim olunur: "Alplar başı Qazana bir zərbə urdı". Dastanda Basat dini (İslami) bilgilərlə alp bahadırlığı özündə birləşdirən maraqlı qəhrəman tipidir. Təpəgözün əlindən qurtulub mağaraya, günbəzə girən Basat oradan ilahi möcüzənin köməyi ilə (müqəddəs kəlamı deməklə) qurtulur: "Basatın dilinə bu gəldi kim La ilahə illaillah Muhamməddün Rəsulullah, didi. Haman dəm künbəd yarıldı, yidi yerdən kapu açıldı, birindən taşra gəldi. Dəpəgöz künbədə əlin sokdı, eylə kaçdı kim künbəd zir ü zəbər oldı. Dəpəgöz aydur: Oğlan kurtıldunmu. Basat aydur: Tanrım kurtardı didi"[19]. Türk alimi R.Korkmaz aslan südü ilə böyümüş Basatı "alp-bilgə tipi" kimi səciyyələndirir: "Böyləcə Basat türk ədəbiyyatında sözü edilməyən bir alp-bilgə tipi örnəyi əks etdirir. Bu

---

[18] Hacıyev Tofiq (1983). Azərbaycan dilinin yazıya qədərki izləri haqqında // Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, s.13

[19] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.213

tip əski ulu insanların, şamanların və ya qamların bilgəliyini alp tipinin gücüylə birləşdirən və daha sonra İslami qəbulların təsirilə bilgəliyi ərənliyə "dönüşdürən dərin və əsli xarakterli bir keçiş tipidir. Bu tipik bilgəliyi ərənliyə dönüşdürməyin bir cizgisinin tarix içindən axaraq günümüzə qədər gəldiyini də özəlliklə göstərməyimiz gərəkdir"[20].

Digər tərəfdən dastanın II boyunda İlək Qoca oğlu Alp Ərən adı vardır. Bu alp Sufi Sandal Məlikə qan qusdurması ilə oğuznamə yaddaşında qalmışdır: "Kafirləri it ardınca burağıb xorlıyan, ildən çıkub Ayğırgözlü suyundan at yüzdürən, əlli yidi kalanın kilidin alan, Ağ Məlik Çeşmə kızına nikah idən Sufi Sandal Məlikə kan kusduran, kırk cübbə bürünüb otuz yidi kala biginin məhbub kızlarını çalub bir bir boyun kucan,yüzindən tudağından öpən İlək Koca oğlu Alp Ərən çapar yitdi...". Ə.Tanrıverdinin linqvistik (etimoloji) təhlilinə görə, "Alp Ərən" adındakı hər iki apelyativ – "alp" və "ərən" igidlik, cəsurluq, qəhrəmanlıq xəttində birləşir. Bu da qədim və müasir türk adlarındakı qüdrətlilik fünksiyası ilə bağlıdır"[21].

Ə.Quliyev "Kitab-i Dədə Qorqud"dakı alplıq hadisəsində Orta Asiya izləri axtarır və  bu zaman Ə.Cəfəroğlunun mülahizələrinə istinad edir və dastanın iki obrazı üzə-

---

[20] Korkmaz Ramazan. Mitik terör tipi olaraq Tepegözün fenemenolojik açıdan yorumu // Epos və etnos. Beynəlxalq konfransın materialları. Bakı: Elm və təhsil, 2016, s.311

[21] Tanrıverdi Əzizxan. "Dədə Qorqud kitabı"nın obrazlar aləmi. Bak: Nurlan, 2013, s.176

rində xüsusi dayanır: “Bunlardan biri İlək Qoca oğlu Alp Ərəndir. Qədim türklərdə cəngavər, alp, ər, alp igid düşmən qüvvələr üzərinə təkbaşına hücum edərdi. Ona görə də hələ göytürklər dövründə alp igid tipi mühüm yer tutmuşdur...”. Alp Ərənin əsərdəki təqdimatı və künyəsi onu tamamilə Orta Asiya şovalyeliyinə yaxınlaştırır. Daşıdığı ad belə bu igidin öz qabına sığmaz bir savaşçı olduğunu açıklamaqda və onu türklər arasında məşhur olan Alp Ər Tonqanın bir növü qarşılığı olaraq tanıtmaqdadır”[22].

“Dədə Qorqud”dakı ikinci alp titulu ilə şərəfləndirilən qəhrəman Dözən oğlu Alp Rüstəmdir, adı 7 dəfə keçir, xüsusən VIII, XI və XII boylarda bu Oğuznamə qəhrəmanı belə təqdim edilir:

> “Kalkubanı yirindən turı gələn,
> İki kardaş bəbəgin öldürüb zəlil gəzən,
> Dözən oğlı Alp Rüstəm mana dirler didi”.

Dastanın ən fəal və önəmli qəhrəmanlarından biri, heç şübhəsiz, At ağızlı Alp Aruzdur. Alp Aruz Qoca Oğuzda doqquz qoca başlarından biri olub, İç Oğuza (XII boy) qarşı asilik edənlərin başında gəlir.

Alpların həyat dolu enerjiyə malik, coşğun qəhrəmanlar olduğunu bildirən M.Kaplan alplığı “dionislik” ilə (Yu-

---

[22] Quliyev Ə. Dədə Qorquddakı şəxs adlarının tarixi-filoloji təhlili // Epos və etnos. Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm və təhsil, 2016, s.119

nan mifologiyasında məhsuldarlıq tanrısı Dionisin adı ilə bağlı olan həyatvericilik, məhsuldarlıq, coşğunluq mənasındakı davranış tipidir) müqayisə etmişdir. O yazır: "Alp tipində dionislik cəhəti vardır. O, ölçü-hesaba sığmır, coşğundur, bəzən "dəli" sözü ilə vəsfləndirilir. Bu coşğunluq və dəlilik üzündən başı tez-tez bəla çəkir"[23].

F.Köprülünün yazdığına görə alplıq Səlcuqlu cahan dövləti zamanında rəsmi ünvan idi. Bunu alp sözünü hökmdar ləqəblərində, məsələn, Alp İnanç, Alp Kutluk, Alp İnanç Kutluk kimi sultanların epitetlərində də görmək mümkündür[24]. Bu isə alplıq ünvanının İslamiyyətdən sonra da mövcud olduğunu göstərən faktdır. Böyük Səlcuqlu hökmdarı Alp Arslanın, Qarahanlılardan Alp Ər Xanın və başqalarının adları da dediklərimizi təsdiq edir. Alplıq epitet kimi ən azından iyirmi əsrdən çox türk hökmdarlarının, qəhrəmanlarının adlarında yaşamışdır. Buradan çıxarılan nəticəyə əsasən demək mümkündür ki, alplıq sadəcə qəhrəmanlıqla, igidliklə bağlı məsələ deyil, alplıq eyni zamanda həm də əslzadəlikdir. Missiyası vətən torpaqlarını genişlətməyə, yeni yurdlar tutmağa, dünyanın dörd bir tərəfini bir bayraq altında birləşdirməyə yönəldilmiş "Oğuz Kağan" dastanında alp qəhrəman tipinin görülməsi epik ənənədə bu institutun çoxdan var olduğunu isbat edir. Alp qəhrəman tipi qırğızların "Manas" dastanında da eyni yüksək poetika

---

[23] Kaplan Mehmet (1996). Türk üdebiyatı üzerinde araştırmalar. 3, s.51

[24] Köprülü Fuad (1989). Edebiyat araştırmaları, cild 1, İstanbul: Ötüken, s.380-381

ilə tərənnüm edilir. Bu da, hər iki dastanın ideologiyasında dövlət qurmağın ön plana çıxarılması ilə bağlıdır.

Oğuznamə dastanlarında boyların ilk ataları, ilk liderləri olan bəylər də öz xarakterləri, davranışları, cəsarətləri ilə bir alpdırlar. Füzuli Bayat "Kitabi-Dədə Qorqud" ensiklopediyası üçün yazdığı "Alp/Alb" maddəsində deyir ki, bu bir ünvandır, dastan qəhrəmanının mədəni-davranış kodudur. Boylarda alplıq ruhu qəhrəmanlıq, cəsarət, güc rəmzi, əsgəri ünvandır. Alp əski tayfa strukturunda qoçaqlığına, mərdliyinə görə seçilən, bir zümrə təşkil edən, davranış, rəftar, geyim və silahları ilə başqalarından fərqlənən imtiyazlı təbəqədir. Bunu Dədə Qorqud boyları açıq şəkildə göstərir. Belə ki, Dədə Qorqud qəhrəmanlarının demək olar ki, hamısı bəydir. Hətta Oğuz cəmiyyətinin başında duran xanlar xanı Bayındır Xan öz mülklərini idarə edən bütün bəylərin hökmdarıdır. Dədə Qorqud dastanlarında Bayındır Xan idarə etdiyi xalqa hər il yeməkli-içməkli böyük toy verir, acları doydurur, çılpaqları geydirir: "Kam Gan oğlı Xan Bayındır yirinden turmış idi. Şami günlüği yir yüzüne dikdürmüş idi. Ala sayvan gök yüzine aşanmış idi. Biñ yirde ipek halıçası döşenmiş idi. Xanlar xanı Xan Bayındır yılda bir kerre toy idüp Oğuz biglerin konaklar idi"[25]. Onun əsas funksiyası Oğuz dövlətinin bütünlüyünü qorumaq, xalqın rəfahını saxlamaqdır. Dədə Qorqud boylarında o, savaşda iştirak etməsə də, bütün savaşların onun icazəsi ilə baş ver-

[25] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.77

diyi də ozan tərəfindən bildirilir. Onun bəylərin işinə qarışmaması türk mifologiyasındakı deus otiosus olan Tanrı qavramına yaxın bir özəllik göstərdiyini sübut edir. Çünki türklərdə əzəli və əbədi olan Tanrı bütün varlıqların qaynağıdır. Onun funksiyasına daxil olanlar bunlardır: xaqanlara güç vermək, kut paylamaq, nizamı təmin etmək, insanların qədərini təyin etmək və s. kimi vəzifələr yalnız mütləq güc sahibinə aid olanlardır.

Təbii ki, mütəxəssislərə görə oğuzların dövlət qurmaları da Tanrı borcudur: "Qədim türklər Tanrının iradəsinin hər şeyin üstündə olduğuna inanırdılar. Bu sistemdə haqq və ədalətin, nizamın qorunması, Göy Tanrının əmrini yerinə yetirmək kimi başa düşülür. Sadə qonar-köçər türkdən kağana qədər hər bir insan etdiyi bütün yaxşı və pis işlərinə görə yalnız Tanrıya hesab verər, gerçək köməyi də ondan gözləyərdi. Bu baxımdan Tanrıçılıq əski türklərin və monqolların maddi və daha çox mənəvi həyatlarında böyük rol oynayırdı. Ailənin, soyun və nəhayət, dövlətin iqtisadi, siyasi, ideoloji düşüncələrində Tanrıçılıq istiqamətləndirici mövqedə idi"[26]. Bayındır Xanın da əsas gücü – Tanrı kutunu əlində tutması, bəylərə yetki verməsi, sülh bağlaması, savaş elan etməsi bir növ onu tanrısallaşdırır. Bu epik obrazda birləşdiriciliyin olması, alplığa qəbul edilənlərə adsan verməsi, diplomatik və iqtisadi məsələləri həll etməsi

---

[26] Bayat Fuzuli (2007). Türk mitolojik sistemi. Ontolojik ve epistemolojik bağlamda türk mitolojisi. I cılt. İstanbul: Ötüken, s.214-215

onu tanrısallaşdıran əsas əlamətlərdir. Bayındır Xan Dədə Qorqud boylarında

1. Tanrının yer üzərindəki vəkildir
2. Tək güc sahibidir
3. İdarə edəndir
4. Haqq və ədalətin simvoludur
5. Bütün çətin məsələləri həll edəndir
6. Böyükdür və oğuzların içində ən varlı olandır
7. Cəzalandırıcıdır və bəylərin qorxduğu iqtidar sahibidir
8. Mükafatlandırıcıdır
9. Xalqın birliyinin təminatçısıdır

İbrahim Kafesoğlu xan titulunun il/el strukturu ilə III yüzildən işlədilməyə başladığını bildirərək bu ad türklərdə "İl-xan" şəklində mövcud olmuşdur, deyə yazır[27].

Tanrıçılıq sisteminin tədqiqindən çıxarılan nəticəni aşağıda veririk: "Əski və orta çağ Türk kitabələrində, xüsusilə də Tonyukuk, Kül Tigin və Bilgə Kağan abidələrində Tanrı haqqında verilən məlumatlardan yola çıxaraq onun başlıca sifətlərini belə sıralaya bilərik:

1. Tanrı əbədidir, başlanğıcı və sonu haqqında heç bir məlumat olmadığı kimi təsviri də yoxdur.

2. Deus otiosus mövqeyində olsa da hər şeyin yaradıcısı odur.

[27] Kafesoğlu İbrahim (1997). Türk milli kültürü. İstanbul: Ötüken, s.268

3. Tanrı yalnız dövləti, milləti qoruyur, fərdlərin işinə qarışmır.

4. Kağana kut verən və kutu geri alan da Tanrıdır.

5. Hər şeyi bilən, görən olduğu üçün hər şeyə cavabdeh, hər şeyin sahibi də Odur.

6. Həyat və ölüm onun əlindədir.

7. İnsanların duasını qəbul edəndir”[28].

Təbii ki, salnamə Oğuznamələrində alp tipi olsa da onun ən nümunəvi forması “Oğuz Kağan” dastanında və “Kitab-ı Dədə Qorqud” boylarında ətraflı şəkildə təqdim edilir. Bunun başlıca səbəbi dastanların epik dünyanın qanunları üzərində formalaşmasıdır. Hətta Dədə Qorqud dastanlarında alp titulu daşıyan qəhrəmanlar da vardır. Alplar başı Qazan, Alp Aruz, Alp Rüstəm, Alp Ərən. Dastandan da göründüyü kimi oğuz elində bəylər bəyi Salur Qazan eyni zamanda həm də alplar başıdır. Bu isə alp titulunu daşımasa da Qaragünənin, Qara Budağın, Beyrəyin, Dondarın, Bügdüz Əmənin, Alp Aruzun, Yegnəyin və digərlərinin alp-bəy olduğunun isbatıdır. Hətta “Bəgil oğlu Əmrənün boyu”nda “Üç-yüz altmış altı alp ava binsə, kanlu geyik üzerinə yorıyış olsa, Bəgil nə yay kurar idi nə ox atar idi, haman yayı biləgindən çıkarur idi, buğanun sığınun boynına atar idi, çeküb turqurur idi”[29] deyilir. “Üç yüz altmış altı” alp ifadəsinə Dədə Qorqudun digər boylarında da rast gəlirik.

[28] Bayat Fuzuli (2007). Türk mitolojik sistemi, s.216

[29] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.216

Oğuzların dastan dövründə alplığın tərənnümü xüsusi məna qazanmışdır. Buna görə də Oğuznamələrdə və KDQ-də alplıq təkcə mədəni-sosial termin yox, həm də siyasi istilahdır. Oğuzçuluq hərəkatının alplara söykənməsi də təsadüfi deyildir.

Dastanın epik məkanında alplığın, alp ərənliyin, qaziliyin müəyyən davranış kodlarını simvollaşdırması qəhrəman tiplərinin idealizə edilməsini şərtləndirir. Dədə Qorqud boylarında bunun birinci şərti igidin adını gizlətməsinin ayıb olması məsələsidir Məsələn, "Uşun Koca oğlı Səgrək boyı"nda iki qardaş döyüş səhnəsində qarşılaşdıqlarında böyük qardaş Əgrək Səgrəkdən "Alp ər ərdən adın yaşurmak ayıb olur. Adun nədür yigit"[30] deyə soruşur. Eyni ilə Salur Qazan da Dönəbilməz Dölək Əvrəndən adını soruşur və ər ərdən adınu yaşırmaz deyir.

İkinci kod alp olan birinin qorxu bilməməsidir. Dastanda kafirlər Bəkilin oğlunun təcrübəsizliyini və çox gənc olduğunu görüb ona hərbə-zorba gəlirlər. Əmran bu hədə-qorxuya belə cavab verir. "Alp ərə korku virmək ayıb olur. Bərü gəlgil, mərə kafir dürişəlüm"[31].

Alp olan düşmənin önündən qaçmaz, savaş meydanından dönməz, zorluqlardan çəkinməz, ən qorxulu vəhşi heyvanla da tərəddüt etmədən savaşa girər. Məsələn, "Kanlı Koca oğlı Kan Turalı boyu"nda Qanturalı üç vəhşi heyvanın zəhmi qarşısında belə deyir:

---

[30] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.232
[31] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.223

“Babanun ağ ban işigində
Karavaşlar inək sagar görmədünmi
Buğa, buğa! didükləri
Kara inək buzağusı degülmidür
Alp ərənlər karımından kayurırmı olur”[32].

Və ya aslandan qorxmadığını belə bildirir:

“Canavarlar sərvəri kağan aslan kıran
Ala köpək ənügină kəndüzin taladurmı
Alp yigitlər savaş güni karımından kayururmı”[33].

Oğuz Kağan da elə-günə zərər verən, mal-qaranı yeyən təkbuynuzlu Kıatla qorxmadan savaşa girir.

Alp olan yalnız olmaz, bu hətta atalar sözündə də qalmışdır “Yalunuz yigit alp olmaz, yavşan dibi bərk olmaz”[34]. Alpın yanında hər zaman qırx igidi olar. Dirsə Xan qırx igidlə ova çıxır, Dəli Dumrul qırx igidi ilə yeyib-içir. Dəlü Karçar da qırx igidi ilə ziyafət məclisində əylənməkdədir. Uruzun qırx igidi onun uğrunda şəhid olur, Beyrək qırx igidinin eşqinə ox atır, Qanturalı Trabzona qırx igidi ilə yola düşür və s.

Alp kodunda ad alma da önəmlidir. Alpın adı yalnız qəhrəmanlıq göstərdikdən sonra verilir. Dədə Qorqud dastanlarında Qorqud atanın bəzi igidlərə ad verməsi oğuz elində adın mərhələli şəkildə verilmiş olduğunu və igidin

---

[32] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.189
[33] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.190
[34] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.222

alplıq adının, həm də onun sosial statusunu müəyyənləşdirdiyi məlum olur.



**Şəkil 4. Dədə Qorqud**

Beləliklə, alplığın bir yaşam biçimi, bir davranış norması olduğu haqqında bütün deyilənləri və Fuat Köprülünün alplığın məziyyətləri haqqında verdiyi məlumatları türk dastan qəhrəmanları baxımından aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Qorxusuz ürək (Dastanlarda belə qəhrəmanlara qurd ürəkli deyilir. Məsələn, türkmənlərin "Yusuf və Əhməd" adlı dastanında qəhrəmanlar qurd ürəkli gənclər kimi tərif edilirlər. "Koroğlu" dastanının Azərbaycan variantında dəlilər və Koroğlu qurd oğlu kimi təriflənirlər.)

2) Güc (Dastan və nağıllarımızda fiziki güc kamillik kimi başa düşülür.)

3) Geyrət

4) Qeyri-adi və gözəl at (Qəhrəman atsız, ümumiyyətlə qəhrəman deyildir fikri, bütün türk qəhrəmanlıq dastanlarından qırmızı xətt kimi keçir.)

5) Savaş paltarı (Altdan geyinib üstdən qıfıllanmaq, qəhrəmanın zirehlərinin və silahlarının sadalanması və s.)

6) Yay-ox

7) Qılınc

8) Mızraq

9) Sadiq yoldaş[35].

Alplığın nə olduğunun ən yaxşı izahını yenə də Oğuznamələr verir. Dədə Qorqudun dördüncü boyunda Alplar başı Qazanın oğlu Uruza cavabında alplığın, igidliyin məziyyətləri sıralanır. Bunlar:

1. Düşmən başı kəsib qan tökmək;
2. Yay çəkib, ox atıb hünər göstərmək;
3. Oğuz bəylərindən "çöndi", yəni mükafat almaq;
4. Ad qazanmaqdır.

Əski türklərin alp anlayışı İslam dinin qəbulundan sonra yeni bir məzmun qazanmışdır. Xüsusən də təriqətlərin geniş yayılması ilə təkkələrdə yetişən yeni qəhrəman tipi ortaya çıxdı ki, buna alp-ərən deyilməyə başladı. Ona görə də "Oğuz Kağan" dastanında əsas qəhrəman modeli

---

[35] Köprülü Fuat (1976). Türk edebiyatında ilk mutasavvuflar. Ankara: Türk Tarih Kurumu Basimevi, s.244

alpdırsa, Dədə Qorqud boylarında qəhrəman tipi alp-ərəndir. Boylardakı bütün əhvalatlar alp-ərənlikdən bəhs edir. Ozanlar oba oba, diyar-diyar gəzərək toylarda, ziyafətlərdə, ümumxalq şənliklərində alp-ərənlərin başlarına gələnləri söyləyir, milli ruhu canlı tutmağa çalışırdılar. Alp-ərənlər İslamı yaymaq, müsəlman ədalətini dünyaya yaymaq üçün yeni yerlər alır, oralarda yeni yurdlar qururdular. Alp-ərənlərin fütuhat anlayışı İslamı qorumaq və yaymaq missiyası üzərinə keçirilirdi.

## 2.4. Yalnız alplar

Haqlarında yalnız bir boyda məlumat verilən qəhrəmanlar da vardır. Kütləvi savaş səhnələrində bu qəhrəmanlara rast gəlmirik. Sanki bu alplar boyun bitməsi ilə tarix səhnəsindən birdəfəlik çəkilmişlərdir. Məsələn, alplığı ilə dinləyənləri heyran qoyan Qanturalı, Dəli Dumrul və Basat bunlara misal ola bilər. Özəlliklə mifoloji xaotik gücə qarşı vuruşan Basatın qəhrəmanlığı ictimai məzmununa görə fərqlənir. Basatın uşaqlığı, köç zamanı itkin düşüb aslan südü ilə böyüməsi erkən görüşlərlə bağlıdır ki, bu da çox qədim əsatirlərdən baş alıb gəlir. Aslan südü ilə böyüyən gənclər fövqəladə gücə malik olurlar. Düşmən qarşısında məğlubiyyət bilmir, nağıllarımızda gördüyümüz kimi, daim elin, ulusun çətin günündə ona dayaq çıxırlar. Ən mürəkkəb vəziyyətlərdə düşmən üzərində qələbə çalırlar. Görünür, aslan südü ilə bəslənmə bizim hələ bilmədiyimiz daha başqa

fövqəl qüvvələr və görüşlərlə bağlıdır, çünki onunla böyüdülən qəhrəmanlara fövqəltəbii güc verilir. Basatın belə gücə malik olmasında, öz elinə, torpağına bağlılığında bu qüvvələrin təsiri də az deyildir. Basat Təpəgözlə sadəcə qardaşının intiqamını almaq, fiziki gücünü nümayiş etdirmək üçün savaşmır o, Oğuz elinə təhlükə yaradan xaosu



**Şəkil 5. Basatın Təpəgözlə döyüşü**

aradan qaldırmaq üçün kosmik bir döyüşə girir. Bu döyüşdə onun mifoloji mənşəyi "Atam adın sorar olsan kaba ağaç[36]" ilə yanaşı hər çətinlikdə sığındığı Tanrı da yanındadır: "Tanrım kurtardı" formulu Basatla Təpəgözün mübarizəsində ən çox təkrarlanan epik klişedir.

[36] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.214

Eyni ilə üzü niqablı Qanturalı da göstərdiyi qəhrəmanlığı ilə alplığa nümunədir. İlk olaraq onun özünə alp bir qız istəməsi diqqəti çəkir. “Baba mən yirümdən turmadın ol turmış ola, mən kara koç atıma binmədin ol binmiş ola, mən kanlı kafir ilinə varmadın ol varmış mana baş gətürmiş ola didi. Kanlı Koca aydur: Oğul sən kız istəməz imişsin bir cilasun bahadır istər imişsin”[37] Qanlı qocanın da dediyi kimi Qanturalı bahadır (alp) bir qızla evlənmək istəyir və belə bir qız Tırabuzan təkürinün qızı sağına-soluna qoşa yay çəkən, atdığı ox yerə düşməyən sarı donlu Selcan xatundur. Qızı istəyənlər sınaq olaraq üç canavarla: kağan aslan, kara buğa və kara buğra ilə savaşmalı idi. Qanturalının alplığı 32 kafir igidindən fərqli olaraq bu üç vəhşi heyvanı öldürərək qızı almasıdır. O da Basat kimi hər çətinlikdə Tanrıya sığınır: “Kara polat öz kılıçım yok kim karvaşduğı dəm iki piçəydüm, sana sığındum comərdlər cömərdi gani Tanrı, mədəd didi” və ya “kolça kopuzum çalun ögün məni, yaradan kadir Tanrıya sığındum”[38] və s. Ancaq bu qədər qorxmaz, mərd və inanclı bir alp Dədə Qorqudun sonrakı boylarında xatırlanmır.

“Məndən dəlü məndən güçlü ər varmıdır ki çıka mənüm ilə savaşa dir-idi, mənüm ərligüm bahadırlığum cılasunlığum yigitligüm Ruma Şama gidə çavlana” deyən Dəli Dumrul da yalnız alpdır. Ozanlar tərəfindən ucaltılan, haqqında dastan qoşulmasına baxmayaraq, sonrakı boylarda

[37] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.185
[38] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.190, 192

oğuz alplarına qarışmayan, savaşlarda iştirak etməyən Dəli Dumrul ölüm mələyi ilə mübarizəyə qalxır. Ozan da bunu onun dəliliyinə, səmimiyyətinə, insanların taleyinə acımasına bağlayır. Ancaq nə olursa olsun Dəli Dumrul Oğuz eli qəhrəmanları ilə münasibətdə deyildir, özünün ayrı bir dünyası vardır və orada xəstəliyə, ölümə, həyatdan erkən ayrılmağa yer yoxdur.

Dəli Dumrulun Əzraillə savaşı çox araşdırılmışdır. Burada biz bu obraza fərqli bir müstəvidən baxacağıq. Əzrailə qalib gələcəyi ilə qürrələnən Dəli Dumrul, ölümün nəfəsini yaxından hiss etdikdə əvvəlki qürurunun mənasız olduğunu anlayır: "Azrail atunun gözinə görindi. At ürkdi, Delü Dumrulı götürdi yirə urdı. Kara başı bunaldı, bunlu kaldı. Ağ göksinün üzərinə Azrail basup kondı. Baya mırlar idi, şimdi xırlamağa başladı"[39] və qurtulmaq üçün sonsuz güc sahibi Tanrıya yalvarır:

Mərə Azrail aman
Tanrınun birliginə yokdur güman[40].

Dəli Dumrulla bağlı boyda qadın sədaqəti, ölüm qarşısında ata-ananın can verməkdən imtina etməsi və s. kimi əlavə motiv və süjetlər də vardır. Məsələn, qadının ərinin canı əvəzinə can verməyə hazır olması, Əzrailin qadının canını almaq istədikdə Dəli Dumrulun ya hər ikisinin canını almasını, ya da hər ikisinin canını bağışlamasını Tanrıdan niyaz etməsi və Tanrının bunu bəyənməsi belə təqdim

---

[39] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.179
[40] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.179

edilir: “Hak Taalaya Dəlü Dumrulun sözi xoş gəldi. Azrailə əmr eylədi: Dəlü Dumrulun atasınun anasınun canını al, ol iki halala yüz kırk yıl ömür virdim didi”[41].



**Şəkil 6. Əzrail**

[41] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.184

Oğuznamə dastanında Dəli Dumrulla eyni funksiyanın daşıyıcısı olan Dəli Karçar adlı bir obraz da var. O da çox güclü, alp olmasına baxmayaraq Oğuzlarla kafir məmləkətinə yürüş etmir. Hətta onun bacısını istəyənləri öldürəcəyindən qorxanlar Banu Çiçəklə evlənməkdən vaz keçirlər. Bamsı Beyrəyin atası da ondan çəkinir və qızı istəməyə Dədə Qorqudu göndərir. Buna baxmayaraq Dəli Karçar başqa boylarda iştirak etmir, akınlara getmir və kafirlərlə savaşa qatılmır.

## 2.5. Qazavat və qazilik ideyası

Alplıq ideyası orta əsrlər türk savaş mədəniyyətində, qazavat, fəth yürüşlərində öz aktuallığını saxlayır. "Alplıq fütuhat ideyası ilə mübarizə edən oğuz igidlərinə aid edilir. Dünyanı tutmaq uğrunda mübarizə aparan qəhrəmanın əsas ideya qaynağı tək Tanrı, yaxud da vahid Allah ideyasıdır. Vəhdət düşüncəsinə görə Allah (cc) bütün yaradılışın başlanğıcı və idarə edənidir. Oğuz hökmdarları dünyanın vahid Tanrı tərəfindən idarə edildiyinə əsaslanaraq, ölkələrin də vahid hökmdar tərəfindən idarə edilməsini Tanrı missiyası kimi qəbul edirdilər. Bu ideya tədricən inkişaf edir və sonralar dini yaymaq uğrunda müqəddəs mübarizə şəklinə düşür. Yeni ideyanın üzərindəki sakral mahiyyət daha da qüvvətlənir. Bu zaman qəhrəmanın alp tipində dəyişiklik baş verərərək alp-ərənə çevrilir. Alp-ərən ölkələri vahid Allah ideyasını yaymaq üçün fəth edir. Bu mübarizədə daim uğur

qazanan qəhrəman qazi adlandırılır. Bunlara qazi ərənlər də deyilir. Bütün məzmunu və mahiyyəti etibarilə İslam dini uğrunda mübarizə aparan qəhrəmana Battal Qazini misal göstərmək olar. Qazilik qəzavat sözündəndir. Qəzavat isə müqəddəs mübarizə deməkdir. Bu sözə ilk dəfə qədim türk yazılarında, Yigin Alp Turan və bahadır İnancu Alp adlarının tərkibində rast gəlinir”[42].

Dədə Qorqud boylarında alplığın, həm də qaziliyin ən böyük təmsilçisi yuxarıda da deyildiyi kimi heç şübhəsiz Alplar başı Qazan Bəydir. Salur Qazanın adı həm epik dastanlarda, həm də salnamə variantlarında keçir. Onun mifoloji, tarixi və epik səciyyəsi bir-birinə bağlı şəkildə verilmişdir. Ancaq bütün tərəflərinə baxmayaraq Salur Qazan daha çox epik obrazdır, çünki həm mifiklik, həm də tarixilik epik qanunlara tabedir. Hətta Dədə Qorqud dastanlarında Qazan Xanın Bayındır Xana aid olan bir çox təyinlərin indaşıyıcısı olması onu ilkin variantda salnamələrdə xatırlanan hökmdar funksiyası ilə bağlamış olur. Bunu Salur Qazanın iki dəfə toy verməsi, el-günü ağırlaması (Bayındır Xan dörd dəfə toy verir), bəzi bəylərin akın üçün ondan izn istəməsi epik ənənədə xüsusi mövqedə olduğunu göstərir. Dastanda Ulaş oğlı Tülü quşun yavrusı, bizə miskin umudı, Amit soyının aslanı, Qaracuğın qaplanı, Qonur atın iyəsi, xan Uruzın ağası, Bayındır Xanın göygisi, Qalın Oğuzın dövləti, qalmış yigit arxası kimi epitetlərlə vəsf edilən Qa-

---

[42] Bayat Füzuli (2000). “Alp/Alb”, Kitabi-Dədə Qorqud ensiklopediyası. II c. Bakı: Yeni Nəşrlər Evi, s.20-21

zan Xan Oğuz dövlətində ikinci şəxsdir. Alplar başı Qazan Xanın ən başlıca özəlliyi savaş vaxtı ən öndə döyüşməsi, ildə bir dəfə xanımının əlindən tutub evdən çıxması və evini yağmalatmasıdır.



**Şəkil 7. Qazan Xan səfərə çıxır**

"Şəcəreyi-tərakimə"də türkmən söyləyicilərinə istinadən Salur elinə başçılıq edən hökmdarların maraqlı tarixçəsi verilir: "Ögürcik Alpın atası Qara Qazi, onun atası Burıcı Qazi, onun atası Behnam Qazi, onun atası İnal Qazi, onun atası Süleyman Qazi, onun atası Otküzlü Uruz, onun atası Ender, onun atası Ata, onun atası Qazan Alp, onun atası Sa-

lur, onun atası Dağ Xan, onun atası Oğuz Xan”[43]. Əbülqazinin yad etdiyi oğuz hökmdarlarının adındakı qazi ünvanı əslində bu hökmdar qəhrəmanların din uğrunda cihadlarına işarə edir.

Ona görə Dədə Qorqud dastanlarında oğuz bəyləri haqq din uğrunda savaşa başlayır, əl götürüb Tanrıya niyaz edir, üzü görklü Məhəmmədə salavat gətirirdilər. Başqa türk qəbilələr və digər müsəlmanlar bu qəhrəman tipinə qazilik deyirdilər. Buna görə də savaşdan öncə oğuz alp-ərənləri “Kalın oğuz bigləri aru sudan abdəst alıdılar, ağ alınların yirə kodılar iki rikat namaz kılar. Adı görklü Muhamмədi yad gətürdilər”[44] və bundan sonra düşmənin üzərinə yeridilər. Bu klişeləşmiş ifadənin bir çox yerdə təkrarlandığını görürük.

Oğuz dastanının sevilən qəhrəmanlarından biri də üzü niqablı Bamsı Beyrəkdir. Beyrək Oğuz elində üzü niqablı gəzən dörd igiddən biridir. "Oğuzda dört yigit nikab-ilə gəzər-idi. Biri Kan Turalı, biri Kara Çəkür və oğlı Kırk Kınuk və Boz aygırlu Beyrək"[45]. Burada üzün gizlədilməsinin cəmal və kəmal yiyəsi olmağa bağlanması və bunun da təsəvvüf anlayışı olması məsələsinə toxunmadan niqabın alpərənlikdə və sonrakı dönəmdə qazilikdə mühüm rol oynadığını da demək lazımdır. Çünki niqablı yigidlər sadəcə alp

---

[43] Əbülqazi Bahadır xan (2002). Şəcəreyi-tərakimə. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, s.97

[44] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.152, 175

[45] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.188

deyillər, alp-ərəndirlər, din uğrunda kafirlərlə savaşan qazidirlər. Onu da demək lazımdır ki, bu dörd alp-ərəndən Kan Turalının və Bamsı Beyrəyin şücaətləri, hünərləri haqqında ayrıca dastan (III və VI boylar) mövcuddur. Beyrək kafirlərin əlində dustaq olan və dustaqlıqdan qurtulduqdan sonra kafirlərlə savaşıb Oğuza dönən qazi tipidir.

Dədə Qorqud dastanlarının III boyu məhz "Kam Pürə oğlu Bamsı Beyrek"ə həsr olunmuşdur. Beyrəklə bağlı üçüncü boy bu qəhrəmandan bəhs edən mövcud əfsanə, rəvayət və nağılların sintezindən ibarətdir. Beyrəklə bağlı hekayələr Türkmənistan da daxil olmaqla əsasən, Anadoluda geniş yayılmışdır. Onun rəvayət və nağıl variantları iyirmidən çoxdur. Buraya təbii ki, özbək və qazaxların "Alpamış"/"Alpamsa", Altay-Sayan türklərinin "Alıp Manaş" dastanlarını da əlavə etmək olar. Qəhrəmancasına sevgi (yəni buta almadan sevmək) motivi üzərində qurulan bu dastanların rəvayət və nağıl formasındakı variantları Dədə Qorqud dastanları ilə paralel şəkildə mövcud olmuşdur. V.M.Jirmunski və H.T.Zərifov bu prosesi türk eposuna məxsus yaradıcılıq hadisəsi kimi dəyərləndirirlər. "Alpamış"ın dastan yaradıcılığında ondan artıq variantı vardır ki, onların hamısı müxtəlif dövrlərdə ayrı-ayrı baxşılar tərəfindən yaradılmışdır. Onların içərisində ənənəvi epos tələblərinə daha çox uyğun gələnləri isə Pulkan şair Camradoğluna, Erqaş şairə, daha mükəmməli isə Fazil Yuldaşoğluna məxsusdur. Bu variantlarda üst-üstə düşən bir çox epizodlarla yanaşı, fərqli hadisələrin təsviri də az deyildir. Bunu isə yanlışlıq və

ya təhrif kimi yox, epik süjetin ifaçı sənətkarlar tərəfindən fərqli variantlarda söylənməsi kimi qəbul etmək gərəkdir. Türk eposu yarandığı zamanlardan çoxşaxəli, geniş məzmunlu olub, epik düşüncədə müxtəlif variantlarda yayılmışdır[46].

Bamsi Beyrək obrazının bir çox məziyyətlərinə Dədə Qorqudun digər boylarında rast gəlsək də o, əsasən, sonuncu "İç oğuza taş oğuz asi olup Beyrek öldügi boy"da daha aktiv şəkildə təqdim edilir. Taş oğuzların çıxardığı üsyan əhvalatında Beyrək Qazan Xan cəbhəsində çıxış edir. Digər tərəfdən Beyrək oğuzların özləri tərəfindən öldürülən yeganə qəhrəmandır. Oğuz cəmiyyətində onun yüksək mövqeyi Qazan Xanın inağı olmasından məlum olur. Onu da demək lazımdır ki, III boy həm motivlərinin zənginliyi, həm də məhəbbət mövzusunun aparıcı olması ilə digərlərindən fərqlənir. Toplama nəticəsində Türkiyənin müxtəlif yerlərində nağıl, dastan mahiyyəti qazanmış əfsanələr əldə edilmişdir. P.N.Boratav bir yazısında Bamsı Beyrək dastanını ən qədim mövzulardan biri hesab etmiş və onun XVI yüzildən öncə var olduğunu vurğulamışdır. Onun yazdığına görə: "Bu gün üçün təsbit edə bildiyimiz ən əski mövzu da Beyrək (bugünkü şəkli ilə Bəy Böyrək) mövzusudur. Ana xətləri ilə bu dastanın məzmununa Dədə Qorqud oğuznamələrində rast gəlirik. Ancaq Anadoludaki əfsanə və rəva-

---

[46] Жирмунский Ви́ктор Макси́мович (1974). Тюркский героический эпос. Ленинград: Наука; Зарифов Хади (1997). «Узбекские народные сказители». Сборник «Пулкан шаир». Ташкент

yətlərə Dədə Qorqud dastanlarından deyil, əksinə "Kitab-i Dədə Qorqud"a və Anadoludan kənardakı bəzi türk zümrələrindəki (qaraqalpaqlar, qırğızlar kimi) variantlarına qaynaq olmuş daha əski bir rəvayətdən keçmişdir. Beyrək adına oğuz qəhrəmanlarının adlarını verən başqa mətnlərdə də rast gəlirik. Anadoludakı Bəy Böyrək rəvayətlərində isə, mənası məlum olmadan Beyrəyin məmləkəti olaraq Oğuz elinin adı çəkilir. O halda Beyrək mövzusunu Dədə Qorqudun yazıya keçirildiyi tarix olan XV əsrin başlarından çox daha əvvələ aparmaq mümkündür"[47].

Oğuz elində özündən başqa heç kimin çəkə bilmədiyi qatı yayı olan boz atlı Beyrək savaşda ən ön cərgələrdə vuruşan alpdır. Üzü niqablı boz atlı Beyrək o qədər cəsurdur və tanınmış igiddir ki, taş oğuz bəyləri Qazana asi olduqda ilk öncə Beyrəyi aradan qaldırmağı düşünürlər: "Aruz cümlə bigləri xilatladı. Döndi aydur: Biglər Beyrək bizdən qız almışdur güyəgümüzdür, amma Qazanın ınağıdur, gelsün bizi Qazan ilə barışdursun diyəlüm gətirəlüm, bizə muti olur-isə xoş, olmaz isə bən sakalını tutayın siz kılıç üşürün paralan, aradan Beyrəyi götürəlüm, andan sonra Qazan ilə işümüz xayır ola didi"[48].

Beyrəyin alplıq tipologiyasında:

Fiziki güc

İgidlik

---

[47] Boratav Pertev Naili (1998). Halk hikâyeleri ve halk hikâyeceliği, İstanbul: Adam yayınları, s.41

[48] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.246

Cəsarət

Sədaqət

Səbr

kimi keyfiyyətlər özünü göstərir.



**Şəkil 8. Boz atlı Beyrək**

Oğuznamə boylarında qəhrəmanlığı ayrıca öyülən qazilər vardır ki, haqqlarında müstəqil dastan olmasa da, bu alp-ərənlər kafirlərlə savaşların hamısında iştirak etdiklərinə, eyni epitetlə xatırlandıqlarına və qazavata qatıldıqlarına görə qazidirlər.

Kafirlərlə savaşan, yaralanan və sağ-salim geri Oğuz elinə dönən alp-ərənlər qazi olurlar. Əslində qazilik alp-ərənliyin başqa bir adıdır. Müsəlmanların din yolunda vuruşan qəhrəmanlarına qazi, din uğrunda ölənlərinə şəhid deyildiyi məlumdur. Oğuz alpları da onların torpaqlarına girmiş kafirləri savaşaraq yenir, kilsələrini yıxıb yerində məscid tikir, məğlub olanları İslama dəvət edirlər. Bu isə tipik qazilikdir. Mənkabə janrının geniş yayılması ilə qazilik və ya bəzən deyildiyi kimi qazi-ərənlik əski oğuzların qəhrəman tipi olan alplığın və ardınca da alp-ərənliyin yerini aldı. XIV yüzildən yayılmağa başlayan salnaməçilik dəbi İslam dininin təsiri ilə Oğuz Kağanı vəliyə, oğuz savaşçılarının da yeni dini yayan qazilərə çevirdi. Bu dəyişiklik bərabərində söyləyici tipinin də dəyişməsinə səbəb oldu. Alplığı öyən ozanların yerini qaziliyi tərənnüm edən qissəxanlar, məddəhlar aldı. Çünki bir tərəfdə yəsəvilik, bəktaşilik, heydərilik, babailik, digər tərəfdə səfəvilik, xəlvətilik qazi qəhrəman tipologiyasının mədəniyyətdə tam yerini almasını saxladı. Təbii ki, Oğuznamələrdə digər alp-ərənlər də igidlikləri ilə, yüksək əxlaqları, insani keyfiyyətləri ilə seçilirlər. Oğuz dastanında nə Qaragünə, Qıyan Səlçükdən, nə Dəli Dondar Alp Rüstəmdən, nə Yegənək Alp Aruzdan, nə Qazılıq Qoca Bügdüz Əməndən, nə Basat Dəli Dumruldan geri qalmır. Hər halda haqlarında dastan olan və olmayan oğuz alpları, oğuz qaziləri şanlı tarixin epikləşmiş, tipoloji özəllik qazanmış qəhrəmanları kimi xalqın deyimlərində ideallaşdırılmışdır.

Beləliklə, qonar-köçər oğuzların ideal qəhrəman, hətta ideal insan tipi alp idisə, zamanla İslamın ilk dövrlərində alp-ərənlik önə çıxdı. Fəthləri gerçəkləşdirən alplarla Allah eşqini yayan sufilər birləşərək alp-ərənlik institutunun əsasını qoydular. Təsəvvüfün intişarı və türk-İslam dövlətlərinin güclənməsi ilə də ideal insan, ideal qəhrəman tipi qazi ortaya çıxdı. Oğuznamə dastanları həm alplığın, həm alp-ərənliyin, həm də qaziliyin qəhrəman modeli üzərində təhkiyə olunmuş, sonra da yazıya alınmışdır. Təkkələrin fəaliyyəti ilə qazilik önə çıxdı ki, bunun da ən önəmli nümunələri mənkabələrdə qorundu. Bir sözlə alp və alp-ərənlik fiziki gücün, qazilik isə fiziki güclə mənəvi gücün birləşməsi formasında yarandı[49]. Bu struktur-semantik fərq, şamanlıqdan sufiliyə, başqa sözlə alplıqdan aşiqliyə keçid mərhələsidir. Alplıq və alp-ərənlik qonar-köçər türk mədəniyyətini simvolizə etdiyi halda aşiqlik (həm də qazilik) daha çox oturaq mədəniyyətin kodudur. Alplıq, alp-ərənlik və qazilik Oğuznamə qəhrəmanlarının əsas tipoloji özəlliyi olduğundan bütün yuxarıda deyilənləri bir yerə gətirərək və digər qəhrəman obrazlarını da nəzərə alamaqla aşağıdakı nəticəyə gəlmək mümkündür:

a) alp,
b) alp-ərən,
c) qazi,
d) anti-qəhrəman və

---

[49] Bax. Kaplan Mehmet (1996). Türk edebiyatı üzerine araştırmalar, 3 Tip tahlilleri, İstanbul: Dergah yayınları

e) qeyri-adi varlıqlar.

Bu beş tipik obraz və ya qəhrəman çeşidlərinin hər birinin özünəməxsusluğu vardır. Burada kişi və qadın tipləri və ya qəhrəmanları bölgüsü də aparmaq olar. Ancaq belə bir bölgü elmi olmaqdan daha çox təsviridir, çünki epik əsərdə və xüsusən də qəhrəmanlıq dastanlarında qəhrəman hər iki cinsdən insan, heyvan, mifoloji varlıqlar, dini surətlər ola bilər. Ancaq Oğuz elində qadınların xüsusi mövqeyi olduğu üçün qadın tiplərini də araşdırmaya cəlb etmək lazımdır.

Beləliklə, yuxarıdakı beş ana qrupu birləşdirən tipik və ya tipoloji özəlliklər vardır ki, bunların təhlili dastanın strukturunu anlamağa yönəlmişdir.

# ÜÇÜNCÜ FƏSİL

## QƏHRƏMAN-ANTOQONİST ZİDLİYİNDƏ DÜŞMƏN OBRAZLARI (ANTİ-QƏHRƏMAN) VƏ ONLARIN TİPOLOGİYASI

Dədə Qorqud Oğuznamələrində milli kimliyin formalaşmasında bir çox psixoloji amillərlə, anlayışlarla bərabər fərqlilik və çoxçeşidlilik kimi etnik psixologiya da əsas göstəricidir. Mifoloji şüurun biz-onlar qarşılaşması orta çağ məntiqində müsəlman-kafir zidliyinə çevrilmişdir. Oğuzlar bir xalq kimi dəyərlərini, adətlərini, törələrini, yaşayışlarını məhz başqa xalqlardan fərqli olmaları üzərində formalaşdırırlar və ya bu fərqlərin özgələşdirdiyi etnosların varlığında görürlər. Hər şey zidliyi ilə vardır məntiqinə uyan oğuzlar özlərindən olmayanlara görə fərqlənirlər. Bu, başqa xalq və ya özgələşmiş xalq Oğuznamə dastanlarının ilki olan "Oğuz Kağan"da Urum, Masar, İt Barak və s.dir. Bu düşmən obrazları dastanda fərd kimi yox bütöv bir xalq kimi çıxış edir. Oğuzun dünyanın dörd bir tərəfinə hökmranlıq etmək üçün başlatdığı savaşda sırası ilə şimal, cənub və qərb istiqamətləri önə çıxır. Digər tərəfdən mətndə Oğuzun özünə tabe etdiyi düşmənlər Urum (Bizans), İtil çayı (Volqa) boyu yerlər, Urus (Rusiya), Saklab (Slavyanlar və ya Slavlar), Cürcit (Mancuriya), Sındu (Seylon və ya Hindistan), Tankut (Tibet ola bilər), Şağam (Suriya, Şam), Baraka (Mısır) kimi mifoloji və bir az da xəyali adlar, bilinən və bilinmə-

yən xalqlarla oğuz alplarının döyüşdüyünü göstərir. Ancaq Oğuz Kağan" dastanında düşmən obrazlarının səciyyəvi özəlliklərinə çox az yer verilmişdir. Bu həm də dastanın fraqmentar xarakter daşıması ilə izah edilə bilər. Sadəcə olaraq Oğuz Kağanın düşmənlərinin bəzilərinin ona savaşsız tabe olması, məsələn, Urus Bəyin, bəzilərinin çox zəngin, yerlərinin isə çox isti olması, məsələn, Baraka kimi, bəzilərinin də uzaqda yerləşməsi qeyd edilmişdir. Oğuznamə dastanının bu variantında düşmən obrazlarının identifikasiyası güclüdür, səciyyəvi özəlliklər yox dərəcəsindədir. Buna baxmayaraq oğuz-düşmən qarşılaşmasından oğuz alplarının əzmkarlığını, cəsarətini, igidliyini, savaşçı ruhlarını görmək mümkündür.

Oğuznamə dastanlarında alp, alp-ərən, qazi və düşmən zidliyinə etno-psixoloji və milli özünüdərk aspektindən baxan F.Bayat qəhrəman-anti-qəhrəman tiplogiyasını belə dəyərləndirir: Dədə Qorqud dastanlarında təqdim və təsvir edilən oğuzlar bütün tərəfləri ilə, bütün davranış kodları ilə, bütün savaşları ilə, mənəvi dəyərlərə münasibətləri ilə kafirlərdən fərqlənirlər. Birincilərdə milli psixoloji özəllik qonar-köçər, maldar şüuruna dayanırsa, ikincilərdə bitki yetişdirən, torpağı əkən, əkinçilik edən oturaq xalqların dünyagörüşü ön plana çıxır. Bu halda hər bir hadisə, hər bir süjet, əxlaqi dəyərlər təbii olaraq milli şüur prizmasından keçərək qavranılır... Milli psixoloji zidliyin bir tərəfində çadırlarda yaşayan qonar-köçər oğuzlar, o biri tərəfində isə qalalarda oturan kafirlər – gürcülər, abxazlar, yunanlar var-

dır. Dədə Qorqud dastanlarında oğuz alp-ərənlərinin dəfələrlə qala bürclərini dağıtması, qalaların kilidini alması, kilsələri yıxıb, yerində məscid tikməsi, qapalı dünyanı açmaları ilə bağlıdır... Qonar-köcər müsəlman şüuruna görə dünya iki qismə bölünmüşdür: bir tərəfdə haqq din olan İslam, o biri tərəfdə yontma ağac tanrılı paqançılıq. Kafirlərin dünyası və onların savaşçıları fiziki cəhətdən nə qədər güclü olsalar da haqqın qarşısında gücsüzdürlər, məğlub olmağa məhkumdurlar. Bu isə türk müsəlman şüurunun məntiqi nəticəsidir və dastanda dəyişməz bir koddur... Oğuzlarda ruh, mənəviyyat, əxlaq güclüdürsə, kafirlərdə hiylə, fürsətçilik, heç bir əxlaqi qanun tanımamaq xarakterikdir. Qonar-köçər şüurunda İlahi ruh təbiətin saflığı ilə vəhdətdədir, uyumlu ahəng içindədir. Oğuz cəmiyyətində oturaq mədəniyyətin şəhər, qala yaşamından gələn normaları yoxdur. Əksinə oğuzların həyatında təbiətlə cəmiyyəti birləşdirən İlahi bir ahəng vardır[50].

Dədə Qorqud boylarında kafir ümumi adı ilə bilinən düşmənlər iki kateqoriyada birləşir:

Bunlardan birincisi, xarici düşmənlərdir ki, hər zaman fürsət gözləyir, münasib məqamda Oğuz elinə basqın edirlər.

İkincisi, daxili düşmənlərdir ki, bunlara çox vaxt casuslar deyilir. Bunlar Oğuz elinin içində yaşayıb düşmənlərə çalışan insanlardır.

---

[50] Bayat Fuzuli (2016). Mitten tarihe sözden yazıya Dede Korkut Oğuznameleri. İstanbul: Ötüken, s.128-130

## 3.1. Xarici düşmənlər

Xarici və daxili düşmənlər zahirən bir-birindən ayrılsalar da mahiyyət etibarı ilə bu düşmənlər yaxın olub bir-birini tamamlayırlar. Onlar yalnız fəaliyyət meydanı baxımından fərqlənirlər. Bu fərqlər isə özünəməxsus düşmən modelini formalaşdırır. Xarici düşmənin fəaliyyət meydanı daha genişdir. Onlar Oğuz elinin sərhədlərindən xaricdədir və oğuza basqınları da kənardan olur, onların yürüşləri, talanları da fürsətlə bağlıdır. Eyni zamanda daxilə nüfuz edir, ölkə içərisində insanlar, qəbilələr, tayfalar arasında nifaq salır, bununla da Oğuz elində daxili düşmən obrazını formalaşdırırlar, parçalayıb narazılıq yaradırlar. Ona görə də Oğuznamə dastanlarında nəzərə çarpan düşmən obrazlarını ayrıca tədqiq etməyə ehtiyac vardır.

Oğuznamə dastanlarından hadisələrin çoxşaxəliliyi ilə seçilən "Kitab-i Dədə Qorqud" boylarında oğuz alp-ərənlərinin bütün keyfiyyətləri məhz düşmənlərə münasibətdə üzə çıxır. Dədə Qorqud dastanlarında oğuzlara düşmən olan, Oğuz elinə gecə basqınları edən, Oğuz igidlərini, qızlarını, gəlinlərini əsir götürənlər kafir ümumiləşmiş adı altında təqdim olunan qonşu etnoslardır. Dədə Qorqud boylarında düşmən kodu mürəkkəb olub, qeyri-müəyyənliyi ilə səciyyələnir. Onun məzmunu, ünvanı, yeri, məkanı məlum deyil. Qeyri-müəyyən məna yükü daşıyan kafirin kimliyi açıq şəkildə bəlli olmur. Ancaq dastan mətnindən də göründüyü kimi oğuzlar kafirlərin fərqli yaşamlarından, davranışların-

dan, inanclarından ötürü onlara düşmən deyirlər. Kafirlər oğuzlara bənzəməsələr də, oğuzlar kimi dəyərlər sisteminə sahib olmasalar da, bu, onların oğuz toplumu tərəfindən xor görülməsinə, məhv edilməsinə səbəb olmaz. Qazan Xanın "İt kibi güv güv idən Çerkez hırslı"[51] deyimi də kafirləri xor görməkdən deyil, onların xislətinə görədir. Əksinə kafir adlanan bu topluluq oğuzları başqalaşdırmış, onların kimlik aidiyyatını düşmənlik açarına çevirmişdir. Ona görə də basqınları həyata keçirən, düşmənlik yaradan əsasən, kafirlərdir ki, onların başçıları çox vaxt məlik ünvanı daşıyır.

Hətta Dədə Qorqud dastanlarında adları türkcə olub oğuzlara düşmən kəsilən bu məliklərdən Qara Tükən Məliyi, Buğacıq Məliyi, Şöklü Məliyi, Qara Arslan Məliyi və başqalarını göstərmək olar. Digər tərəfdən etnik mənsubiyyət bildirən məliklər də var. Məsələn, Qıpçaq Məlik buna misal ola bilər. Ancaq Şökli Məlik Qalın Oğuzun düşməni, Oğuz bəylərinin antitezi kimi ümumiləşmiş kafir obrazıdır. Bu tipik kafir obrazı dastanın II, III, IV və IX boylarında xatırlanır. M.H.Təhmasib bu anti-qəhrəman haqqında yazır ki, Şöklü Məlik düşmən başçısı kimi Şah Məlik, Şahlı Məlikdir[52]. Qeyd etmək lazımdır ki, Dədə Qorqud dastanlarında Şöklü Məliklə yanaşı, daha altı məlik də var. Məliklərin ümumi sayı isə yeddidir:

---

[51] Ergin Muharrem. Dede Korkut Kitabı-1, s.238

[52] Təhmasib Məmmədhüseyn (1972). Azərbaycan xalq dastanları (orta əsrlər) Bakı: Elm, s.41

Şöklü Məlik
Qara Tükən Məlik
Buğacıq Məlik
Qara Arslan Məlik
Qıpçaq Məlik
Ağ Məlik
Sufi Sandal Məlik.

Bilindiyi kimi "məlik" - ərəb mənşəli söz olub sahib, mal-dövlət sahibi, başçı mənasına gəlir. Şökli Məliyin və o biri məliklərin adındakı "məlik" termini titul, rütbə bildirir və düşmənlərin tipologiyasında kafir ümumiləşdirici təyinatından sonra birləşdirici ikinci əsas amildir. Məlik titulu daşıyan kafirlərdən başqa təkür rütbəsində olan düşmənlər də vardır:

Qara Təkür Məlik,
Təkür,
Dirək Təkür,
Trabuzan Təkürü

Ayrı-ayrı kafir obrazları: Şöklü Məlik, Qıpçaq Məlik, Təkür, Arşun oğlu Dirək Təkür, Buğacıq Məlik, Aznaur və başqaları ilə bərabər bir də düşmən obrazı kimi qara donlu, sası, azğın dinli kafir və yağı sözü vardır.

Xarici düşmən ordusunun başında Şöklü Məlik dayanır. O, gah qara donlu kafirlərin başçısı, gah düşmən sər-

kərdəsi kimi təqdim edilir. Bir neçə boyda oğuz bəyləri ilə üz-üzə gəlir, böyük güc və qüvvə nümayiş etdirir. Özünəməxsus qəfil hücum və ağır talan taktikası vardır. Şöklü Məliklə Oğuz elinin, xüsusilə Salur Qazanın ixtilafı boylarda daha kəskindir. Qazanla üç döyüşdə üz-üzə gələn Şöklü Məlik hər dəfə məğlub olur (Salur Qazanın evinin yağmalandığı boy, Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy, Bəkil oğlu Əmranın boyu) və öldürülür. Bəzən bu öldürülmələri rəmzi hesab edən tədqiqatçılar da vardır. Ancaq bu məsələ ozan repertuarı ilə əlaqədardır. Şöklü Məlik Qazanın anasını və xanımını əsir götürən, hətta xanımına saqilik etdirmək, sonra da döşəyinə çəkmək istəyən düşməndir. X.Koroğlu bu faktla bağlı bəzi tarixi hadisələri xatırlayır və onları müqayisəyə cəlb edir. “Qədimlərdə arvadın əsir alınması çox güman ki, düşmənə vurula biləcək ən ağır zərbə hesab olunmuşdur. Oğuz qəhrəmanlıq eposunda, “Qorqud Kitabı”ndakı boy nadir hadisə deyil. Türkmənlərin “Goroğlu” dastanında Ərəb Reyhan da dayısı Ərəb Bektaşın arvadını eyni şəkildə qaçırır[53]. Tarixçilər daha qədim dövrə aid misalları da qoruyub saxlayıblar. Məsələn, “Təbəkati-Nasiri” əsərinin müəllifi Curcani Sultan Səncərin arvadı Türkan xatunun qarakitaylar tərəfindən əsir alınmasını xəbər verir: “Qarakitaylar Türküstanın Qaraqurum rayonuna gəldi və Sultan Səncərdən otlaq ayrılmasını xahiş etdilər… sonra Sultana qarşı çıxdılar, onun ordusunu dağıt-

[53] Bax. Bəşirli Xatirə (2016). “Koroğlu” dastanı. Azərbaycan və Orta Asiya versiyaları əsasında. Bakı: Xəzər Universiteti Nəşriyyatı

dılar, sultanın arvadı Türkan xatunu əsir aldılar. Sonra əmin-amanlıq yarandı. Türkan xatun sultana qaytarıldı. Hakim Quşqani bununla əlaqədar antologiyalara və başqa kitablara salınmış çoxlu həcvlər yazdı"[54].

Ozan repertuarında oğuz-qıpçaq, oğuz-düşmən eli, oğuz-təkur, oğuz-gürcü qarşıdurmaları ilə bağlı şübhəsiz ki, sayıları çox, məzmunları müxtəlif olan dastanlar olmuşdur. Ancaq repertuarda daha işlək olanları katiblər seçib əlyazma mətninə daxil etmişlər. Həm də ozan repertuarında onların hər birinin beş-altı variantda yayılması da mümkündür. Çünki ozan repetruarı zəngin idi, hər bir ozan boyları özünəməxsus variantlarda ifa edirdi. Bunlar məzmunca oxşar olsalar belə quruluş, forma, ifa tərzinə görə bir-birindən şübhəsiz ki, fərqli idi. Ona görə də Şöklü Məlik-Qazan qarşıdurmasını əks etdirən boyların hər birində Şöklü Məliyin öldürülməsi müxtəlif variantlarda təkrarlanmışdır. Bu isə dastanlarda Şöklü Məliyin ölüb-dirilməsi, onun mifoloji səciyyəyə malik olması kimi yox, oğuz eposuna məxsus ozan repertuarının variant yaradıcılığı ənənələrinə uyğun şəkildə baş verən hadisə kimi qəbul edilməlidir.

Bundan əlavə, xarici düşmənlər içərisində düşmən qalalarının, ellərinin başçıları olan təkurlar (təkür) da vardır. Kafirlərin bir qismi oğuz qəhrəmanlarına pusqu qurub onları əsir götürür, ya da kiçik döyüşlərdə onları min-bir hiylə ilə həlak edib aradan çıxırlar.

---

[54] Koroğlu X.H. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, s.110-111

Dədə Qorqud dastanlarında düşmənə kafir terminindən başqa, ümumi bir adla yağı deyirlər. Yağının kim olduğunu isə dastanda Qazan Xanın oğluna cavabından öyrənmiş oluruq. "Oğlan aydur: Yağı diyü, nəyə dirlər?. Qazan aydur: Oğul anun-içün yağı dirlər ki biz anlara yetsəvüz öldürürüz, anlar bizə yetsə, öldürür didi"[55]. Oğuznamə dastanlarında kafirin təsviri isə belədir: "yidi bin kaftanınun ardı yırtuxlu yarımından kara saçlu sası dinlü din düşməni alaca atlu kafir"[56]. Buradan yağı ilə kafir arasındakı fərqi görmək mümkündür. Bundan başqa başlarında dəbilqələri, əyinlərində zirehləri olan kafirlərin bəzən altmış batmanlıq gürz daşıdıqları da bildirilir. Oğuzlar ordusu çox, yaxşı silahlanmış, fiziki cəhətdən güclü kafirlərlə vuruşurlar. Düşmən əsgərlərinin zəif olmaması oğuz alp-ərənlərinin, qazilərinin daha güclü olması ilə mütənasiblik yaradır. Bəzən isə düşmən üzərində çalınan qələbə Oğuzların tək Tanrı inancına bağlanır. Kafir Təkürlə Bəkil oğli Əmrən öncə gürzlə, sonra qılıncla, sonra süngü ilə döyüşsələr də bir-birini məğlub edə bilmirlər. Ən sonda "At üzərindən ikisi karvaştılar, tartışdılar. Kafirün güçi ziyadə, oğlan zəbun oldı. Allah Taalaya yalvarup soylamış"[57] Əmrən Tanrını öydükdən sonra Allah ona qırx insan gücü verir və bundan sonra o, fiziki cəhətdən çox güclü olan yağıya qalib gəlir.

---

[55] Ergin Muharrem. Dede Korkut Kitabı-1, s.158

[56] Ergin Muharrem. Dede Korkut Kitabı-1, s.96

[57] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.224

Düşmən obrazı Dədə Qorqud boylarında özünəməxsus yer tutur. Onlar öz səciyyəsinə görə müxtəlifdirlər: Qeyri-ciddi, zəhmli, hiyləgər və fürsətçidirlər. Buna baxmayaraq savaşmağı da bilirlər və fürsət ələ düşən kimi, hər cür imkandan istifadə edib Oğuz elinə zərər vurmağa çalışırlar. Düşmən obrazı bütün qütblərdə və cəbhələrdə Oğuz elinə qənim kəsilən, qorxunc, əzazil, zalım bir qüvvədir. Geniş mənada o, tək bir pəhləvan, igid, yaxud ölkənin başçısı deyildir. Dini baxışı, etiqadı, soykökü ilə Oğuza düşmən olan barışmaz düşmən obrazıdır. Düşmənin məramı təkcə Oğuz elini talamaq, viran qoymaq, igidləri, qız-gəlini əsir götürmək deyildir. Bütövlükdə o, oğuzları yer üzərindən silərək onun torpağına sahib olmaq niyyətindədir.

Bunun əksinə oğuzların kafir elinə akın diləmələri, kafirləri məhv etmək üçün deyil, ərliklərini, cilasunluqlarını sübut etmək üçündür. Belə ki, Uşun Qocanın oğlu Əgrək bəyləri basaraq başa keçdikdə bir danlaq üzərinə baş kəsib, qan tökməklə hünərini sübut etmək üçün Qazan Bəydən akın diləyir və Şirügüvən ucundan Gökçə Dənizə qədər el çapıb talayır[58]. Bu akında Əgrəkin kafirləri öldürdüğü, əsir aldığı haqqında ozan heç bir şey məlumat vermir. Eyni ilə Qazılıq Qoca da, şərabın istisi başına vurduğu zaman əyləncə olsun deyə Bayındır Xandan kafir düşmən üzərinə akın diləyir. Bayındır Xan da haraya istəyirsə getsin deyə buyruk verir. Qazılıq Qocanın da kimisəni öldürdüyi, kimisəni

[58] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.225

yağmaladığı haqqında heç bir məlumat verilməz, ancaq Qara dəniz kənarındakı Düzmürd Qalasını görən kimi savaşa başlaması və qalanın təkürü tərəfindən əsir alınması bildirilir[59].

## 3.2. Daxili düşmənlər və ya casuslar

Daxili düşmənlər dedikdə Oğuzun içinə sızmış kafir casusları başda gəlməkdədir. Bu casuslar yerli oğuzlardan da olabilir. Casuslar Oğuz elində yaşadıqları kimi sərhəd bölgələrində də məskunlaşmışlar. "Oğuz Kağan" dastanında daxili düşmənlərə rast gəlmək mümkün deyildir. Ancaq Oğuznamələrin salnamə varianrlarında daxili düşmənlərə rast gəlmək mümkündür. Dədə Qorqud boylarında isə casus adı ilə bilinən daxili düşmənlər vardır. Qara donlu sası dinli kafirlər oğuzlarla açıq savaş meydanında baş edə bilmədiklərindən casuslardan istifadə edir, Qalın Oğuz elinə gecə basqınları edirlər. Hətta kafirlər bir çox halda Qazan Xanla oğlu Uruzu, Əgrəklə Səgrəgi, Bügdüz Əmənlə oğlu Əmrəni bir-birinə öldürtmək istəyirlər. Məsələn, "Kafirlər yinə təkürə gəldülər. Təkür aydur: Bu katla üç yüz varun didi. Kafirlər aydur: Varmazuz kökümüz kəsər, həpümüz kırar, didlər. Təkür aydur: Ya niçə eyləmək gərək, varun ol tutsak yigidi çıkarun gətürün, dəpədən köpini süsəgən yırtar, at virün, ton virün didi. Gəldilər Əgrəgə aytdılar: Yigit sana

---

[59] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.199

təkür himmət eylədi, şunda bir dəlü yigit yolçınun yolukçınun çobanun çoluğun ətməgin alur, tut ol dəlüyi öldür, səni koyı virəlüm, var git, didilər. Xoş ola, didi”[60].

Casuslara gəldikdə isə Oğuznamə dastanlarında bu adamların nədən xəyanət etdiklərinin, kafirlərə çalışdıqlarının səbəbi anlaşılmır. “Kırk yigit ilən yiyüp içüp otururlardı. Yarımasun yarçımasun, kafirün casusu bunları casusladı, varup Bayburt Hisarı biginə xabər virdi, aydur: Nə oturursın sultanum, Pay Piçən Big ol sana virəcəgi kızı Beyrəgə virdi, bu gicə gərdəgə girür didi. Yarımasun yarçımasun, olməlun yidi yüz kafir ilə yılqadı”[61]. Sadəcə onların müsəlman olmadıqları, Oğuz elindən nifrət etdiklərini təxmin etmək olar. Ancaq Oğuznamə dastanları bu barədə lazımi məlumatı verməkdən çəkinir. Oğuz elindən kənarda yaşayan düşmən casusları da vardır. “Məgər Kara Təkürün casusu vardı, bunları gördi. Gəlüp aydur: Mərə Oğuzdan bir bölük atlu gəldi, korunun kapusın uvatdılar, atlarınun əyərin alup geyimlərin çıkardılar, mərə nə turursız didi. Altı yüz kara kara tonlu kafir bunlarun üzərinə koyuldılar. Yigitləri kırdılar, Əgrəgi tutdılar, Alınca Kalasına zindana bırakdılar”[62]. Casuslar ilk baxışda məsum kimi görünən, oğuzlarla heç bir vaxt üz-üzə vuruşmayan, kimliklərini bəlli etməyən daxili, həm də təhlükəli düşmənlərdir. Onların varlığı düşmənlərin yaxşı təşkilatlandığından, qonşuları və

---

[60] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.230
[61] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.129-130
[62] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.225-226

düşmənləri olan oğuzların hər hərəkətindən, davranışlarından xəbərdar olduqlarına icazə verir.

Daxili düşmən tipinə Yalançı oğlu Yaltaçuqu da daxil etmək mümkündür. Belə ki, oğuz həyatı igidlik, cəngavərlik, ülvilik və digər yüksək əxlaqi keyfiyyətlərlə yanaşı, şər, yalan, böhtan, xəbislik, paxıllıq, özgəsinin bədbəxtliyi üzərində özünün xoşbəxtliyini qurmaq istəyi və s. kimi mənfi keyfiyyətlərdən də xali deyildir. Epik repertuarda bütün bu xüsusiyyətlər Yalançı oğlu Yaltaçuq obrazı üzərində ümumiləşdirilmişdir. Yalançı casus olmasa da, oğuz igidlərinin üzərinə düşmən qoşununu çəkməsə də Beyrək kimi bir igidin nişanlısına göz dikməsi, yalan danışması, namərd davranışı, qorxaqlığı və s. onu mənfi obraz səviyyəsinə qaldırır. Hətta onun Oğuz elində sevilmədiyi də məlum olur. "Bunun üzərinə on altı yıl kiçdi. Beyrəgün ölüsin dirisin bilmədilər. Bir gün kızın kardaşı Dəlü Karçar Bayındır Xanın divanına gəldi, dizin çökdi, aydur: Devlətlü Xanun ömri uzun olsun, Beyrək diri olsa, on altı yıldan bərü gəlürdi, bir yigit olsa dirisi xabərin gətürsə, çırqap çuxa, altun akça virüridüm, ölüsi xabərin gətürənə kız kardaşum virüridüm didi. Böylə digəç, yarımasun yarçımasun, Yalançı oğlı Yırtaçuq aydur: Sultanum, bən varayın, ölüsi dirisi xabərin gətürəyin didi. Məgər Beyrək buna bir kömlək bağışlamış idi, geyməz idi, saklar idi. Vardı, könləgi kana kuna baturdı, Bayındır Xanun öginə gətürib birakdı. Bayındır Xan aydur:

Mərə, bu nə kömləkdür? Beyrəgi Qara Dərvənddə öldürmişlər, uşda nişanı, sultanım didi”[63].

Burada da yalan üzərində qurulan ölüm xəbərini qanlı köynək təsdiqləyir. Yalançı oğlu Yaltaçuq həm də qorxaqdır ki, bu özəllik də Oğuz alp ərənləri üçün spesifik deyildir. Bu durumda onu qəhrəman tiplərindən heç birinə aid etmək mümkün deyildir. O, Oğuz elinin qəhrəman tipologiyasında ümumiləşə bilməmiş tək fərdi özəllikli yalançı, yaltaq, qorxaq və əhv diləyən obrazıdır.

Nəhayət, bu fəsli yekunlaşdırmaq lazımdırsa oğuzlarla kafir adı ilə simvollaşan düşmənlərin xarakterik cəhətlərinə də toxunmaq lazımdır. Bəzi təsbitlərə görə oğuzlarla kafirlərin milli-psixoloji, etik-mənəvi özəllikləri aşağıdakı kimidir[64]:

Boylarda Oğuzlar təbiətlə iç-içədirlər, güclərini də buradan alırlar. Belə ki, Qazan Bəy, su ilə, yurdla, qurdla, itlə danışdığı dildə Qaraca Çobana da müraciət edir... Təbiətlə iç-içə olmaq, onunla qarşılıqlı anlaşmaq və nəhayət, təbii ahəng qonar-köçərliyin əsas həyat fəlsəfəsidir. Əkinçilik bunun əksinə, təbiətə hökm etmək, cəmiyyətlə təbiəti qarşı qarşıya gətirmək, təbiətin üstündə bir növü zor tətbiq etməkdir. Kafirlərin ov quşlarını (qaz, ördək, kəklik), heyvanlarını (keyik, dovşan) bir yerə yığıb onlardan tələ kimi istifadə etmələri təbiətə oturaq mədəniyyət xalqlarının

[63] Ergin Muharrem. Dede Korkut Kitabı-1, s.131-132
[64] Bayat Fuzuli (2016). Mitten tarihe sözden yazıya Dede Korkut Oğuznameleri. İstanbul: Ötüken, s.128-163

münasibətinin nəticəsidir... Bir digər məsələ oğuzlarda ana haqqının Tanrı haqqı olmasıdır. Oğuz alp-ərənləri əsir düşmüş analarını qurtarmağı namus borcu bilirlər. Bu dəyər ətrafında Qalın Oğuz eli birləşmişdir. Kafirlər də oğuzların bu milli özəlliklərini yaxşı bildikləri üçün əsir aldıqları yaşlı qadınları, anaları təhqir etməklə oğuzlardan intiqam almaq istəyirlər. Salur Qazanın ban evlərini, ağır xəzinəsini, bol akçasını, qırx incə belli qızla xanımı Burla Xatunı, qırx igidlə oğlu Uruzu, tövlə-tövlə şahbaz atlarını, qatar-qatar dəvələrini Şöklü Məligə kölgə, xərclik, yesir, qul, binət, yüklət kimi sadalayaraq vermək istəməsi, yalnız qarıcıq anasını düşməndən istəməsi, bu etnopsixoloji özəlliyin, ana qutsallığının, namus anlayışının əsas şərtləridir. Belə bir həyat fəlsəfəsinə sahib olan oğuzların baş qəhrəmanının ozanın dilində ideallaşdırılması təbiidir.

# DÖRDÜNCÜ FƏSİL

## OĞUZNAMƏ DASTANLARINDA DİNİ-MİFOLOJİ (QEYRİ-ADİ VARLIQLAR) OBRAZLARIN TİPOLOGİYASI

Ümumilikdə Oğuznamələrdə dini-mifoloji obrazları və bəzi real varlıqları da daxil etməklə qəhrəman tipologiyasında yardımçı obrazları adı altında da öyrənmək olar. Belə ki, bu fəsildə dini-mifoloji varlıqlar başlığı altında həm müsbət, həm də mənfi obrazlar yer alır. Digər tərəfdən Oğuznamə dastanlarında qarşımıza çıxan bəzi real obrazlar araşdırmadan kənarda qalır. "Oğuz kağan" dastanında və Dədə Qorqud boylarında köməkçi personajları əsasən, iki gurupda öyrənmək mümkündür:

1. Dini-mifoloji köməkçi obrazları
2. Real varlıqlar.

Dini-mifoloji köməkçi tipləri bozqurd, Uluq Türk, Dədə Qorqud, Xızır Əleyhissəlam daxildir. Real varlıqlara isə çoban tipini, bəzi qadınlar, məsələn Dirsə Xanın xatunu, Qanturalının sevgilisi Selcan xatunu, qırx igidi göstərə bilərik. Hər halda dini-mifoloji obrazlar başlığı altında alp, alp-ərən, qazi qəhrəman tiplərindən kənarda qalan obrazların tipologiyasını öyrənmək daha uyğun yoldur.

## 4.1. Kıat

Oğuznamə dastanlarından Uyğur versiyası adlandırılan "Oğuz Kağan" və "Kitab-i Dədə Qorqud" boylarında bir neçə dini-mifoloji obraz vardır ki, onların semantikasını mətnin müxtəlif yerlərində verilən məlumatları bir yerə gətirməklə açmaq mümkündür. Oğuznamə dastanlarında dini-mifoloji obrazlar bozqurd, Kıat, Xızır, Əzrail, pəri və Təpəgözdür. Buraya həmçinin Oğuzun evləndiyi qızlar, Kıpçak, Kaqarluk, Masar və başqa obrazlar da daxildir.



**Şəkil 9. Kıat**

Bu dini-mifoloji tiplərin dəyişik variantları türk epik ənənəsində bu və ya başqa şəkildə təkrarlanır. Məsələn, Orta Asiya epik ənənəsində Xızırın yerinə çox vaxt Hz.Əli

və ya qırx çiltanlar keçir, Təpəgözün yerində Jeztırnak, Kəlləgöz, Jelmaus Kəmpir kimi tipləri görmək mümkündür. Bütün bunlar türk dastan mədəniyyətində qeyri-adi özəlliyə sahib varlıqların mifoloji çağdan qalma olduğunu, ancaq epik qanunauyğunluğa tabe edildiyini isbatlayır. Bozqurd və Kıat obrazları iki bir-birinə zidd qüvvələri təmsil edir. "Oğuz Kağan" dastanında bunlardan biri dünya dövləti qurmaq istəyən Oğuz Kağana yol göstərir, onu çətinliklərdən xilas edir, oğuzlara hamilik edir, digəri isə oğuz elinin düşməni olub, həm insanlara, həm də mal-qaraya zərər verir. Oğuzun Kıatı öldürməsi ilə xaotik dünya yerini düzənli, nizamlı dünyaya təhvil vermiş olur.

Başqa sözlə xaos kosmosla əvəz edilir. Oğuz Kağan dastanında Kıat haqqında verilən məlumatdan da onun məhv edilməsinin şərt olduğunu görmək mümkündür: "Bu yerdə bir uluğ orman bar erdi. Köp mürənlər köp öqüzlər bar erdi bunda kelqənlər kik köp bunda uçkanlar kuş köp köp erdi. Oşul orman içində bedük bir Kıat bar erdi, yılkılarnı el künlərni yer erdi. Yaman bir kik erdi" [65]. (O yerdə bir meşə vardı. Orda çoxlu irili-xırdalı çaylar axırdı. Orda vəhşi heyvanlar, uçan quşlar çox idi. Meşədə nəhəng bir Kıat yaşayırdı, atları, adamları yeyirdi. Çox böyük bir yırtıcı idi). Oğuzun Kıatı öldürməsi ilə xalq rahat nəfəs alır, bununla da Oğuz ilk qəhrəmanlığını göstərir və kosmik nizam yaratmaq üçün dünyanı fəthə çıxır.

[65] Bayat Füzuli (1993). Oğuz epik ənənəsi və Oğuz Kağan dastanı. Bakı: Sabah, s.110, 124

## 4.2. Bozqurd

Bozqurd obrazı, Oğuzun ordusu ilə düşmənləri üzərinə yürüş etməsi ilə səhnəyə çıxır. Bozqurd türk mifologiyasında əcdad, xilaskar, yol göstərən, darda qalanlara kömək edən kult xarakterli qeyri-adi obrazlardan biridir.

Hər iki qaynaqdan məlum olur ki, "Oğuz Kağan" dastanının arxaik qatında mövcud olan mifoloji varlıqlardan biri də bozqurd (kök börü) dür. Türk mifoloji sisteminin əsas qəhrəmanlarından biri olan bozqurd bir neçə funksiyanı yerinə yetirir. Bu mifoloji varlıq, geniş şekildə yalnız "Oğuz Kağan" dastanında qalmışdır. Dədə Qorqud dastanlarında qurd, bəzi ad-titullarda (Bay Börə, Beyrək) və mətndə təsvir edilən mövzularda, məsələn, motiv-dialoq, ya da motiv-hadisələrdə (ıssız yeri qurdu kimi ulaşmaq) görünür. Tarixi Oğuznamələrdə (Salır Baba Qulalı oğlunun Oğuznaməsi istisna olmaqla) bozqurd obrazına rast gəlinmir. Həm də "Oğuz Kağan" dastanındakı bozqurd, Göytürklərin bozqurd mənşə mifindəki əcdad qurd qəhrəmanının fərqlı funksiyalarını yerinə yetirir. "Oğuz Kağan" dastanında bozqurdun konkret funksiyasına yol göstərənlik, Oğuzların savaş rəhbəri olması daxıldır.

Burada təbii ki, türk mifologiyasında bozqurdun funksiyası, semantik rolu, simvollaşması və s. kimi məsələlər araşdırılmayacaqdır. Hətta "Koroğlu" dastanının mənşəyi bilindiyi kimi mifoloji obrazlarla zəngindir və orada da əsas yeri bozqurd tutur. Burada əsas məsələ konkret olaraq Oğuz

dastanlarında dini-mifoloji obrazların və onların tipoloji baxımdan necə işlənməsidir. "Oğuz Kağan" dastanında bozqurdun yol göstərənlik funksiyası bel təsvir edilir: "(Oğuz Kağan) Muz tağ deqən tağnunq adağıqa keldi. Kurıkannı tüşkürdi şük bolup uyup turdı. Çanq ertə boldukta Oğuz Kağannunq kurıkanığa kün təq bir jaruk kirdi, ol jaruktın kök tülüklüq, kök jalluğ bedük bir erkək böri çıktı. Oşul böri Oğuz Kağanqasöz berip turur erdi. Takı dedi kim ay ay Oğuz Urum üstiqə sən atlar bolasan. Ay ay Oğuz tapuğunlarqa men yürir bolaman dep dedi"[66]. (Oğuz Kağan Muz dağ deyilən dağın ətəyinə çatdı. Alaçıqlarını qurdurdu, sakitləşdi, yuxuya getdi. Dan söküləndə Oğuz Kağanın alaçığına gün kimi bir işıq düşdü. Bu işıqdan göy tüklü, göy yelkəli böyük, erkək bir qurd çıxdı. bu qurd Oğu Kağana söz deyib durdu. Ta ki belə dedi: Oğuz, ay Oğuz, sən Urum üstünə getmək istəyirsən. Oğuz, ay Oğuz, mən səndən irəlidə gedəcəyəm).

Bozqurd bütün səfərləri boyu Oğuz Kağanın ordusunun önündə gedir, durduğu yerdə ordu da durur və orada savaş başlayır. Burada bozqurdun yol göstəricilik funksiyası ilə bərabər həm də kutsallığını görürük. İslama qədərki Oğuznamə dastanı olan "Oğuz Kağan" mifoloji obraz və elementlərlə zəngindir. Bunlara misal olaraq Oğuzun atını, qapısı-pəncrəsi olmayan dəmirdən evi, yenilməyən xalqları və s. göstərmək olar.

---

[66] Bayat Füzuli (1993). Oğuz epik ənənəsi, s.114-115, 128-129



**Şəkil 10. Bozqurd**

Oğuzun evləndiyi qızlardan biri göydən enmiş, o biri də ağac oyuğunun içindən çıxmışdır. Oğuzun bu qızlarla evlənməsi və onlaradn olan altı oğlunun bozok və üçok qəbilə birliyini yaratması Tanrı iradəsi kimi təqdim edilir: "Oğuz Kagan bir yerde Tengrini jalbarguda erdi. Karanguluk keldi, köktün bir kök yaruk tüşti. Kündün ay aydın kugulgulukrak erdi. Oğuz Kagan yürüdi kördi kim oşbu yaruknung arasında bir kız bar erdi. Jalğuz olturur erdi. Yakşı körüklük bir kız erdi. Anung baş(ı)nda ataşluk yarukluk bir mengi bar erdi. Altun kazuk teg erdi"[67]. (Oğuz Kağan bir yerdə Tanrıya yalvarmaqda idi. Qaranlıq çökdü. Göydən bir işıq düşdü: Günəşdən işıqlı, aydan parlaq idi. Oğuz Kağan yüyürdü, gördü ki, bu işığın içində bir qız durub, yalnız oturub. Onun başında işıqlı Altın Kazıq tək yanan bir xalı vardı).

İkinci qızın da təsvirindən onun bir pəriyə bənzədiyini görmək mümkündür. "Kenə bir kün Oğuz Kagan avga ketti. Bir köl arasıda alındın bir yıgaç kördi. Bu yıgaçnung kabuçakında bir kız bar erdi. Yalguz olturur erdi. Yakşı körüklük bir kız erdi. Anung közü köktün kökrək erdi. Anung saçı mürən usuğu təg, anung tişi ünjü təg erdi"[68]. (yenə günlərin bir günü Oğuz Kağan ova getti. Köl arasında bir ağac gördü. Bu ağacın oyuğunda bir qız vardı, yalqız oturmuş idi. Çox gözəl bir qız idi. Onun gözləri göydən də göy idi. Saçları dalğa kimi, dişləri inci kimi idi).

---

[67] Bayat Füzuli (1993). Oğuz epik ənənəsi, s.111-112, 125-126

[68] Bayat Füzuli (1993). Oğuz epik ənənəsi, s.112, 126

## 4.3. Xızır

Dini-mifoloji obrazlar Dədə Qorqud dastanlarında dörddür. Belə ki, on iki boydan üçündə dini-mifoloji obrazlar iştirak edirlər. Bunlardan bəziləri qəhrəmanın köməkçisi, bəziləri düşmən, bəziləri də əmri yerinə yetirən tipik surətlərdir. Xızır, Əzrail, pəri və Təpəgöz kimi dini-mifoloji varlıqların struktur semantikası onu göstərir ki, bu obrazlar mətnə təsadüfü daxil edilməmişdir. Buraya Tanrı, qurd, ağac kimi obrazları da daxil etmək olardı, ancaq adları çəkilən dini-mifoloji varlıqlar dastanda epizodikdir və süjet xətti ilə əlaqəli deyildir. Dədə Qorqud dastanlarında bu dörd tip mənəviyyatla, kutsallıqla, inancla bağlı olub bəziləri türk mifologiyası, bəziləri də İslam dini ilə bağlıdır. İslam dini ilə bağlı olan Əzrail obrazı epik qanunauyğunluğa görə antropomorflaşdırılmış, daha doğrusu insanlaşdırılmışdır. Beləliklə, Dədə Qorqud dastanlarında əski inanclarla, təbiət kultu ilə monoteist dini varlıqların bir yerdə, eyni epik ənənədə funksinallaşdığını görürük.

Belə dini qaynaqlı epik qəhrəmanlardan biri də Xızırdır. Hz.Xızır sadəcə Oğuz dastanlarında deyil, daha çox məhəbbət (eşq) dastanlarında funksiollaşan əbədi diri olduğuna inanılan köməkçi obrazdır. Darda qalanlara yardım edən, övladsızlara övlad, aşiqləri buta verən, onları bir-birinə qovuşduran Boz atlı Xızır adı Qiran-i Kərimdə keçməsə də İslam alimlərinin peyğəmbər, yaxud da vəli adlandırdıqları elmin qaynağı olan dini bir obrazdır. İslam ənənəsinə

görə Xızır qeyb aləmini, bilinməyənləri bilən və Allahın (cc) sevimlisi bir quldur.



**Şəkil 11. Xızır Əleyhissəlam**

Hz.Xızır bir çox halda Hz.Əli ilə bərabər yad edilir, məsələn, "Koroğlu" dastanının türkmən variantında, ya da Hz.Əlinin min bir adından birinin də Xizir olduğu deyilir. Bir sözlə müsəlmanların Hz.peyğəmbərdən nəqlən anlatdıqları Xızır və Musa peyğəmbər qissəsi sonradan bu obrazın məşhurlaşmasına səbəb olmuşdur. O, Xıdır, Xızır peyğəmbər, Xızır nəbi və Xızır əleyhissəlam kimi adlarla xatırlanır çətin zamanlarda, fəlakətlərdə və savaşlarda igidlərin yardımına qoşur, haqlıları mükafatlandırır, zalımları isə cəzalandırır, bəzən də yaxşı insanlara bərəkət və bolluq verir, əsa-

sən boz, yaxud da qır atlı, yaşıl, yaxud ağ paltarlı, ak saqqallı bir ermişdir[69].

Dədə Qorqud dastanlarında Xızır "Dirsə Xan oğlu Buğaç Xan" boyunda görünür. Dirsə Xanın qırx igidi tərəfindən böhtana uğrayan Buğaç ovda atasının atdığı oxla ağır yaralanır. Xızır dağda yalnız başına ölümə tərk edilmiş qəhrəmanın imdadına yetişir. "Oğlan anda yıkıldukda boz atlu Xızır oğlana hazır oldu, üç katla yarasın eli-y-ile sığadı, sana bu yaradan korkma oğlan ölüm yokdur tağ çiçegi anan südi-y-ile senün yarana melhemdür didi, gayıb oldu"[70]. Hz.Xızırın Oğuznamə dastanlarında missiyası yalnız bu boyla, Buğaç hadisəsi ilə bağlıdır.

## 4.4. Əzrail

Dədə Qorqud dastanlarında qeyri-adi varlıqlardan biri də Əzraildir ki, İslam mədəniyyətində dörd böyük mələkdən biri olub əsas funksiyası can almaqdır. Ancaq onun can alması sadəcə əmri yerinə yetirməsi formasındadır. Həm də Hz.Xızır kimi Əzrail adı da Qur'an-ı Kərimdə çəkilmir. Ancaq Səcdə surəsində insanların canını alan və ölüm mələyi mənasına gələn mələkü'l məvtdən bəhs edilir. Bu obrazla bağlı mifoloji təsəvvürlər həm qədim mədəniyyətlərdə, həm səmavi, həm də fəlsəfi dinlərdə vardır. Xüsusən

[69] Ocak Ahmet Yaşar (2012). İslam-türk inançlarında Hızır yahut Hızır-İlyas kültü. İstanbul: Kabalcı, s.109-110
[70] Ergin Muharrem. Dede Korkut Kitabı-1, s.88

türk folklorunda Əzraillə bağlı əfsanə, nağıl, bayatı çoxdur. Məsələn, bunlardan birində Əzrailin nəyə görə can almaqla vəzifələndirildiyi təhkiyə edilir. Əfsanədə deyilir ki, Allah (cc) insan yaratmaq üçün torpaq gətirməyə Cəbraili, İsraili, Mikaili göndərir. Ancaq onlar yerin yalvarışlarına, göz yaşlarına dözə bilməyib torpaq almadan geri dönürlər. Yalnız Əzrail yerin bütün yalvarışlarına, göz yaşlarına baxmayaraq insan yaratmaq üçün lazım olan torpağı alıb gətirir. Ona görə də Allah can almaq vəzifəsini bu acımasız və əmri qeydsiz-şərtsiz yerinə yetirən mələyə tapşırır[71]. Dini folklorda Əzrail bir çox özəlliyi ilə bərabər təqdim edilir: bəzən o, çox qorxuncdur, əlində dərzisi ilə ətrafa ölüm saçır, bəzən o yaşlı bir adamdır, bəzən skeletdir, bəzən, yaraşıqlı bir gəncdir, bəzən eyni anda bir neçə yerdə ola bilir. Əzrailin dondan-dona düşə bilmək qabiliyyəti vardır: o, göyərçin olub uçur, ilan olub sürünür, həkim olub xəstənin başı və ya ayağı ucunda durur və s.

Oğuznamə dastanlarından yalnız "Duxa Koca oğlu Dəlü Dumrul" boyunda görünən Əzrail əslində Dəli Dumrulun qürrələnməsini bəyənməyən Allahın əmri ilə bu alpı qorxutmaq üçün gəlmişdir. "Mərə Əzrail didigünüz nə kişidür kim adamuncanın alur, ya kadir Allah birligün varlığun hakkı-y-içün Əzraili mənüm gözümə göstərqil, savaşayım çəkişəyüm dürişəyim yaxşı yigidün canun kurtarayım bir

---

[71] Boratav Pertev Naili (2012). Türk mitolojisi. Oğuzların - Anadolu, Azerbaycan ve Türkmenistan türklerinin mitolojisi. Çeviren: R.Özbay. Ankara: BilgeSu, s.37-38).

dahı yaxşı yigidün canın almaya didi. Kayıtdı döndi Delü Dumrul ivinə geldi. Hak Taalaya Dumrulun sözi xoş gəlmədi”[72].

Əzrailin təsviri Qorqud Ata əfsanələrində də verilmişdir. Belə ki, ölümdən qaçan Qorqudu hər yerdə ölüm mələyi izləyir. Bu, həm Dəli Dumrulda, həm Qorqud Ata əfsanələrində, həm də şamanlıqda insanın ölümə məğlub olmasının bədii təsviridir.

Şamanların ölümlə savaşını və ya ölüb dirilmə mübarizəsini, Qorqud biraz dəyişik formada, özünü qorumaq, ölməmək üçün aparır. Şaman isə ölümlə mübarizəni öz xeyrinə deyil, tayfanın qorunması üçün aparır. Şaman xəstəlik, ölüm, kütləvi qırğın gətirən şər ruhlara qalib gəlməklə ölümə meydan oxuyur. Dədə Qorqu boylarında Dəli Dumrulun Əzraillə savaşı eyni mifoloji bilginin dastan variantıdır. Dastan variantı olduğu üçündür ki, Dəli Dumrul Əzrailə məğlub olur.

Dastandan da göründüyü kimi Əzrail Allahın əmri ilə can alır və heç kimə görünmədən Dəli Dumrulun yanına gələ bilir və yalnız onun gözünə görünür. Dəli Dumrul bu qorxunc mələyi gördükdə heyrətindən əli-ayağı boşalır, dili söz deməz, gözləri qaranlıq olur. Burada Əzrailin təsviri xalq inaclarında ölüm mələyi haqqındakı düşüncələrlə paralellik təşkil edir:

---

[72] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.177

Mərə nə heybətli kocasın
Kapuçular səni görmədi
Çavuşlar səni tutmadı
Mənim görür gözüm görməz oldı
Tutar mənim əllərim tutmaz oldı
Ditrədi mənim canum cuşa gəldi
Altun ayağım əlimdən yirə düşdi
Ağzum içi buz kibi
Mərə sakalçuğı ağça koca
Mərə nə heybətlü kocasın degil mana
Kadam bəlam tokınur bu gün sana[73].

Dəli Dumrulun Əzrailə yalvarmasına Əzrail yalnız əmr qulu olduğunu can verib can alanın Allah olduğu söyləyir. Dəli Dumrulun Qurandan türkcə oxuduğu ayə Allaha xoş gəlir:

Yücələrdən yücəsin
Kimsə bilməz niçəsin
Görklü Tenri
Niçə cahillər səni göktə arar yirdə istər
Sən hod müminlər könlindəsin
Dayim turan cəbbar Tanrı
Baki kalan səttar Tanrı
Mənüm canum alur olsan sən algıl
Azrailə almağa komagıl[74].

[73] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.178

## 4.5. Pəri

Həm "Oğuz Kağan" dastanında, həm də Dədə Qorqud dastanlarında qeyri adi varlıqlardan pəri obrazına rast gəlirik. Hər iki Oğuznamə dastanında pəri qadındır. Pəri obrazına müxtəlif xalqların mif, əfsanə və dastan yaradıcılığında rast gəlirik. Pərilər insan şəklində, xüsusən də çox gözəl qız cildində təsəvvür edilən, uça bilən, sehrbazlıq edən, gələcəyi görən varlıqlardır. Çox uzun yaşadıqlarına, ancaq yaşlanmadıqlarına, gözəlliklərini itirmədiklərinə inanılan pərilər, insanlar kimi ölümlüdürlər. Avropa, xüsusən də Skandinaviyada və İngiltərədə mifoloji inanca görə pəri xalqına elf deyilir. Elflər çox vaxt xeyirxah, mərhəmətli, xəstələri sağaldan, hətta bitkilərin, daşların sirlərini bilən və bunları insanlara öyrədən varlıqlar kimi təsəvvür edilirlər.

Xalq inancına görə pərilərin kişiləri də vardır ki, bu da onların bir yerdə cəmiyyət daxilində yaşadıqlarını göstərir. Hətta bir Azərbaycan nağılında pəriyə aşiq olan qəhrəman onu atasından istəmək üçün Qaf dağına gedir. "Koroğlu" dastanının həm türkmən, həm də özbək variantlarında qəhrəman pəri qızları ilə evlənir. Avropa mifologiyasında pərilər əsasən kiçik boylu, ancaq sehr gücünə sahib varlıqlardır ki, inanca görə Hz.Adəmlə Lilithin qızlarıdır[75]. Avropa xalqlarının miflərindən, əfsanə və nağıllarından fərqli

---

[74] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.180

[75] Bax. Coleman J.A. (2007). The dictionary of mythology. An A-Z of themes, legends and heroes. London: Arcturus, s.355

olaraq türk folklorunda pəri qeyri-adi gözəlliyi və sehrli gücü ilə bilinən başqa bir dünyanın varlıqlarıdır. Onların əsas özəlliyi göyərçin donuna girərək yaşamaları, qəhrəmanlara yardım etmələridir. Dədə Qorqud dastanı "Basat Təpəgözü öldürdüyü boyu"nda da pərilər göyərçin donundadırlar. Bir qayda olaraq pərilər su qırağında, meşələrdə yaşasalar da mifoloji əfsanələrdə onların məskəni bəzən Qaf dağı, bəzən yeraltı dünyası, bəzən də səmadır. Türk xalqlarının folklorunda pəri müsbət obraz olsa da onun bəzən insanlara zərər verdiyi də görünür. Pərilər yaşlanmaz, qocalmaz və gözəl-



**Şəkil 12. Pəri**

liklərini itirməzlər. Necə ki, Koroğlunun Gülnar Pəri və Misqal Pəri adlı iki xanımı qəhrəmanın yaşlanmasına və mağarada qeyb olmasına baxmayaraq gənc qalırlar.

Pərilər quşa və ya başqa bir heyvana çevrilə bilsələr də onların əsasən göyərçin donları vardır ki, göl qırağında bu göyərçin donlarını çıxarıb çimməyi sevirlər. Qəhrəman onu göyərçin donunu gizlətməklə əldə edir. Nağıllarda qəhrəman pərinin göyərçin donunu yandırmaqla onun quşa çevrilmə qabiliyyətini əlindən almış olur. Pəri su və meşə qoruyucusu kimi diqqət çəkir, quş donunda olarkən yerə buraxdığı lələyi ilə kor edilmiş qəhrəmanların gözləri açılır. Pəri sehrli gücü, qutsallığı ilə həm İslam, həm də İslamdan öncəki inancların sintezi nəticəsində formalaşmış obrazdır.

Dədə Qorqud dastanlarında pəri yuxarıda da deyildiyi kimi "Basat Təpəgözü öldürdüyü boyu"nda qısa, ancaq çox böyük hadisələrlə müşahidə edilən bir əhvalatda anlatılır. Boyda oğuzların yaylaya köç zamanı Aruz Qocanın çobanı Qonur Qoca Sarı Çoban Uzun Pınar adlı bir yerə çatdığı zaman sürüsünün ürkdüyünü görür, çoban sürünün ürkdüyü bulağın başına gəldikdə orada pərilərin qanad qanada bağlanmış olduğunu görür: "Çoban kəpənəyini üzərlərinə atdı, pəri qızlarınun birini tutdı. Tama idüb cima eylədi. Koyun ürkməyə başladı, çoban koyunun öninə səgirtdi. Pəri qızı kanat urub uçdı, aydur: Çoban, yıl tamam olıcaq məndə amanatun var, gəl al didi. Amma oğuzun başına zaval gətürdün didi. Çobanun içinə korku düşdi amma qızın dərdindən bənzi sarardı. Zaman ilə oğuz yinə yaylaya köçdi. Ço-

ban ginə bu bınara gəldi. Ginə koyun ürkdi. Çoban ilərü vardı. Gördü kim bir yığanak yatur, yıldır yıldır yıldırur. Apəri kızı gəldi, aydur: Çoban əmanətun gəl al, amma Oğuzun başına zaval gətürdün didi. Çoban bu yığanağı göriçək ibrət aldı. Girü döndi, sapan taşına tutdı. Urdukça büyüdi. Çoban yığanağı kodı kaçdı. Koyun ardına düşdi"[76]. Pəri qızı sözünü çobana deməklə məlum olur ki o, Təpəgözün gələcək əməllərindən xəbərdardır. Bu da onu gələcəyi bilməsi, qeyri-adi varlıq olması ilə bağlıdır. Təbii ki, pəri qızının mənşəyinə daha geniş ölçüdə baxdığımızda onun animistik miflərlə bağlı olduğunu, təbiətin saflığını qoruduğunu görürük.

Pərinin Oğuz elinə bəla kimi dəyərləndirdiyi bu varlıq Təpəgözdür. Torba içindəki bu əcayib yığanak Bayındır Hanla gəzintiyə çıxmış bəylərə rast gəlir. Bəylər atlarından enib bu yığanağı təpiləyirlər, ancaq hər təpik zərbəsindən sonra yığanak böyüyür. Nəhayət, bir az öncə aslanın bəslədiyi Basat evinə gətirən Aruz Bəy mahmızı ilə yığanağı yırtır, içindən çıxan tək gözlü uşağı övladlığa götürür: "Xanum munı mana virün, oğlum Basatla bəsləyəyin didi. Bayındır Xan sənin olsun didi. Aruz Dəpəgözü aldı ivinə gətürdi"[77]. Ancaq uşaq onu əmizdirən dayələrin bir dəfə sormaqla südlərini, ikinci dəfə də sormaqla qanlarını, üçüncüdə isə canlarını alır. Gündə bir qazan süd ona çatmır. Böyüyüb uşaqlarla oynamağa başlayanda birinin qulağını, o biri-

[76] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.207
[77] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.208

nin burnunu yeyir və nəhayət Aruz Qoca onu evindən qovmağa məcbur olur. Təpəgözün pəri anası gəlib onun barmağına sehrli bir üzük taxaraq: “Oğul sana ox batmasun, tənüni kılıç kəsməsün” deyərək oğlunu tilsimləyir.

### 4.6. Təpəgöz

Bundan sonrakı hadisələrdə oğuzların başına fəlakət olan yeni qeyri-adi bir varlıq ortaya çıxır. Eyni boyda ozan iki bir-birinin tərsi qeyri-adi varlıqdan söz açır ki, bunun biri pəri, digəri də pəri ilə çobanın zinasından ortaya çıxan Təpəgözdür. Oğuz dastanının bu qolundan məlum olur ki çobanın pəri ilə qarşılaşdığı bulaq xaosla kosmosun keçid nöqtəsidir. Türk xalqlarının folklorunda pərilər doğrudan da kosmosdan xaosa və əksinə keçid nöqtəsində məskən tuturlar. Bu marjinal obraz ona qarşı olan hörmətsiz münasibətdən xaosun ən qorxulu varlıqlarından birini – Təpəgözü doğurur. Təpəgöz və ya Kəlləgöz obrazının tipologiyası onun ilkin varlıq olması, xaosu simgələməsi, kosmosun düşməninə çevrilməsi ilə türk xalqlarının mifologiyasında müxtəlif variantlarda diferensiallaşır. Tək gözlülük, normalın, düzənin tərsi olub destruktiv dünyanı simvolizə edir.

Təpəgöz Oğuz elində soykökü etibarı ilə izləri qədimlərə gedən, bir sıra məkrli məqsədləri özündə ehtiva edən həm real, həm də mifoloji obrazıdır. Onun reallığı Oğuz elinin içərisində dünyaya göz açıb, oğuzların çörəyini yeyib, suyunu içib ona düşmənçilik etməsi ilə təsdiqlənir. Tə-

pəgözün mifoloji obraz olması onun qeyri-adi gücə, soykökə malik olması, xaosu təmsil etməsi, ölümü simvollaşdırmasına görədir.



**Şəkil 13. Təpəgöz**

Oğuzların bu mifoloji obrazının başqa bir variantına "Nart" dastanında, əsasən də osetin variantında rast gəlirik. Bu dastanda bədheybət obrazlar, kəlləgözlər, şər və pisliyin simvoluna çevrilən mənfi obrazlar vardır. Məsələn, osetin variantında qəhrəman Uruzmaq ova gedərkən dağın ətəyində qoyun otaran nəhəng Təpəgözə rast gəlir. O da Təpəgözü tək gözünü dağlamaqla öldürür. "Nart" dastanının bir çox variantında geniş yayılmış "Soslan və Mukara" hekayətinə nəzər saldıqda bu obrazların bəziləri ilə tanış oluruq.

"Soslan və Mukara" hekayətində deyilir ki, qışda aclıqdan əziyyət çəkən nartlar sürülərini bədheybət Mukaranın varlı otlaqlarına göndərməyi qərara alırlar. Sürüləri otarmaq Soslanın öhdəsinə düşür. Mukara öz məskənində yad sürüləri gördükdə hirslənir və deyir: "Sənin nə ixtiyarın var ki, sürülərini mənim torpağımda otarırsan?" Mukara nartların məşhur qəhrəmanı olan Soslan haqqında çox eşitmişdi və buna görə də onun nə qədər güclü, qüvvətli bir igid olmasını bilirdi. Mukara Soslanın sevdiyi döyüş fəndləri haqqında soruşur. Soslan deyir ki, onun belə bir döyüş fəndi var: nartlara öz qılınclarını yaxşıca itiləməyi tapşırır, sonra isə onun boynunu vururlar. Bu zaman qılınclar toqquşur, qığılcım çıxır, qılınc onun boynuna toxunmur, ona görə də Soslanın boynunda bir dənə də olsun cızıq əmələ gəlmir. Bunu eşidən Mukara həmin oyunu özünə tətbiq edir. Soslan var gücü ilə onun boynunu vurmaq istəyir, ancaq zərbə Mukaraya təsir etmir. Soslanın Mukaranı məhv etmək üçün etdiyi bütün cəhdləri boşa çıxır. Nəhayət, Soslan yeni bir

fənd fikirləşir, Mukara dənizə girsin və başı üzərində qalın buz təbəqəsi əmələ gələndən sonra həmin buzu sındırıb dənizdən çıxsın. Soslanın etdiyi dualar nəticəsində Mukaranın başı üzərində elə bir qalın buz təbəqəsi yaranır ki, o yalnız başını çıxara bilir. Nəhayət, Mukara Soslana təslim olur, ancaq Soslan bilir ki, bədheybət ancaq öz qılıncı ilə öldürülə bilər. Soslan bu sirri öyrənir və Mukaranın boynunu vurur.

Mukara ölmədən əvvəl Soslana təklif edir ki, onun bel sümüyünü özünə kəmər etsin. Ehtiyatlı Soslan onu qalın ağacın belinə bağlayır, ağac o saat iki yerə bölünür. Sonda Soslan Mukaranın var-dövlətini və arvadını götürüb qalib kimi evinə qayıdır[78]. "Nart" dastanındakı bu əhvalat bəzi yerləri ilə Homerin "Odisey" və Dədə Qorqud boylarındakı Təpəgözə bənzəyir. Sanki bu dastan türklərlə yunanlıların tək gözlü div haqqındakı miflərini alaraq onu birləşdirmiş və ortaya Mukara və ya qoyun otaran Təpəgöz kimi nəhəg bir bədheybət obrazı çıxmışdır. Onu da qeyd etmək lazımdır ki, Təpəgöz obrazı dünyanın bir çox xalqlarının şifahi yaradıcılığında vardır.

Oğuz eposundakı Təpəgözlə bağlı hər şeydən əvvəl, əlyazma mətnindən çıxış edərək müəyyən mülahizələr söyləmək mümkündür. İlk öncə demək lazımdır ki, Təpəgöz Oğuz elində dünyaya göz açıb burada böyüsə də, o, Oğuza

[78] Осетинский героический эпос "Нарт". Сухуми, 2005, s.118

yaddır. Başqa düşüncə və əxlaqın, antropoloji strukturun yetirməsidir.

Təpəgöz, dünyaya gəldiyi gündən Oğuz elinə qənim kəsilmişdir. O, dünya folklorunun səyyar motivləri içərisində “tapılan uşağın” ən qəddarı, ən amansızıdır. Məlumdur ki, tapılma yolu ilə əldə edilən və övladlığa götürülən bütün uşaqlar (adətən oğlanlar) onu tapıb böyüdəni böyük məhrumiyyətlərə dücar edirlər. Təpəgöz isə oğuz elinə fəlakət gətirir. Xarici düşmənin oğuza edə bilmədiyini o, əslində həyata keçirir. Başlıcası isə Təpəgöz uşaqlıqdan insan qanına susayır, adam yeyir. Taş Oğuz qəhrəmanı Aruz Qoca isə onu yalnız döymək-söymək və evdən qovmaqla kifayətlənir.

Təpəgöz günbəgün böyüyür, insanlara xətər yetirir. Ancaq nədənsə onun bu düşmənçiliyini Oğuz eli adi qarşılayır, ona böyüyüb azmana çevrilməyə imkan verilir. Təpəgözü vaxtında cəzalandırmır, onun əməllərinə göz yumulur. Aruz Qoca da Təpəgözün əməllərinə sanki diqqət yetirmir.

Aruz Qoca Təpəgözü evindən qovandan sonra o, dağa çəkilir. Pəri anası bu vaxt gəlib onun barmağına bir üzük keçirir və deyir ki, “Oğul, sana ox batmasun, tənüni qılıç kəsməsün”. Sonradan məlum olur ki, bu üzük sehrli imiş. Təpəgözə həsr edilmiş səkkizinci boyda bu xaotik obrazın məşhur Oğuz alplarına təkbətək döyüşdə qalib gəlməsi verilmişdir. Təpəgözün məğlub etdiyi və ya öldürdüyü alplar aşağıdakılardır:

Alplar başı Qazana zərb urdı, - dünya başına tar oldı.
Qazanın qardaşı Qaragünə Dəpəgöz əlində zəbun oldı.
Dözən oğlı Alp Rüstəm şəhid oldı.
Uşun Qoca oğlı kibi pəhləvan əlində şəhid oldı.
Dəmur Tonlı Mamaq əlində həlak oldı.
Bığı qanlu Bəgdüz Əmən əlində zəbun aldı.
Ağ saqallu Aruz qocaya qan qusdurdı.
Oğlı Qıyan Səlçükin ödi yarıldı…

Oğuz elini tərk edən Təpəgöz yüksək bir dağa (Salaxana qayasına) çıxır, yol kəsir, adam öldürür, hərami olur. Oğuzların çoban-çoluğunu da yeməyə başlayır. Oğuz bəyləri bir neçə dəfə onun üzərinə hücum etsələr də heç bir şey edə bilmədən geri dönməyə məcbur olurlar. Hətta ozan onun əlində zəbun olan, yenilən və ölən oğuz alp-ərənlərini bir-bir sayır. Bunlar epik mətnə görə yuxarıda da deyldiyi kimi oğuzun səkkiz alpıdır. Ölənlərin sayı isə dörddür ki, bunlardan biri də ödü yarılan Qıyan Səlçükdir ki, o da Basatın böyük qardaşıdır.

Təpəgözün törətdiyi vahimə Taş və İç Oğuz üçün eyni dərəcədə təhlükə yaratdı. Buna baxmayaraq İç Oğuza Təpəgözün düşmənçiliyi daha dəhşətli idi. Təsadüfi deyil ki, o, Qazanın qardaşını həlak etmiş, özü isə təsadüfən ölümdən xilas ola bilmişdir.

Təpəgöz insan əti yeyir. Oğuz eli də bu çətin məqamda Təpəgözü ram etmək üçün yanına Dədə Qorqudu göndərirlər.

Heç kimə yenilməyən oğuzlar Təpəgözün qarşısında çarəsiz qalırlar. Təpəgöz Dədə Qorqudla qarşılaşdığı epizodda elin ən başlıca düşməni səviyyəsinə yüksəlir. Oğuz elində Təpəgözlə razılığa gedən, toxunulmazlıq funksiyalarını özündə saxlayan yenə Dədə Qorquddur. Təpəgöz onunla rəftarda mülayimdir, onun fikrini eşidən və qəbul edib razılığa gələndir. Aşağıdakı epizoda diqqət yetirək: "Dədəm Korkudı Dəpəgözə göndərdilər. Gəldi, səlam verdi, aydur: Oğul Dəpəgöz, Oğuz əlündə zəbun oldı, bunaldı, ayagun toprağına məni saldılar, sana kəsim verəlüm, dirlər didi. Dəpəgöz aydur: Gündə altmış adam virün, yiməgə didi. Dədə Korkut aydur: Bu vəchilə sən adam komaz, dükədürsin didi, amma gündə iki adam ilə biş yüz koyun virəlüm didi. Dədə Korkut böylə digəç Dəpəgöz aydur: Xoş, öylə olsun, əvət, həm mana iki adam virün, yiməgüm bənüm pişürsün, mən yiyəyim didi. Dədə Korkut döndi Oğuza gəldi"[79].

Bu, oğuzların tarixində rast gəldiyimiz xaotik bir varlıqla Dədə Qorqudun bağladığı ilk və son saziş, razılıqdır. Qılıncın görə bilmədiyi, əldə edə bilmədiyi razılığı Dədə Qorqud Təpəgözlə qarşı-qarşıya dayanıb əldə etdi. Oğuz elini başdan-başa qırılmaqdan saxladı, həm də cəmiyyətin özündə bu fəlakətin qarşısını ala bilən bir qəhrəmanın meydana çıxması üçün imkan yaratdı. Düşməni səngitdi, başını qatdı.

---

[79] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.209

“Məgər xanum, Aruz oğlı Basat kazaya gitmiş idi, ol mahalda gəldi. Karıçuk aydur: Basat şimdi akından gəldi, varayın, bolayki, mana bir əsir virəydi, oğlançuğum kurtaraydım didi.

Basat altunlu günlügin tiküb oturur ikən gördilər ki bir xatun kişi gəlür. Gəldi içərü Basata girdi, səlam virdi, ağladı. Aydur:

Avcına sığmayan əlüklü oğlı,
Ərdil təkə buynuzından qatı yaylu.
İç Oğuzda, Taş Oğuzda adı bəllü,
Aruz oğlı xanum Basat, mana mədəd –

didi. Basat aydur: Nə dilərsin? Karıçuk aydur: Yalançı dünya yüzində bir ər kopdı, yayılımında Oğuz ilin kondurmadı, kara polad öz kılıçlar kəsən kılını kəsdürmədi, kargu cıda oynadanlar ildürəmədi, kayın oxı atanlar kar kılmadı, alplar başı Qazana bir zarb urdı, kardaşı Kara Gönə əlində zəbun oldı, bıyığı kanlu Bügdüz Əmən elində zebun oldı, ağ sakallu baban Aruza kan kusdurdı, meydan yüzində kardaşun Kıyan Selçük ödi sındı, can virdi, kalın Oğuz bəglərin dəxi kimini zəbun idüb, kimini şəhid eylədi, yidi katla Oğuzı yirindən sürdi, kəsim didi kəsdi…”[80]. Bu qadın elin başına gələni Basata danışdı. Təpəgözün Oğuzu qara günə qoyduğunu söylədi. Gündə eldən

[80] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.200-210

iki adam, beş yüz qoyun istədiyini söylədi. İki oğlu olduğunu, birisini verdiyini, birisinə də növbə gəlib yetdiyini söylədi. Basatdan Təpəgözə vermək üçün bir əsir istədi. Basatın gözləri yaşla doldu. Qardaşının şərəfinə bir söyləmə dedi və Oğuz elinə gəldi.

Bu epizoddan Oğuz elinin birliyi aydın ifadə edilir. Bütün igidlərlə yanaşı, Qazan bəy dayısı oğlunun pişvazına gəlir, mehriban bir məclis başlayır, yeyib içirlər. Məclis başa çatandan sonra Basat üzünü bəylərə tutub deyir ki, Bəglər, qardaş uğrına Dəpəgöz ilə buluşuram. Nə buyurursız? Burada Qazan düşməni təsvir edir və ondan yaxa qurtarmağın mümkün olmadığını bildirir. Bu, eposda Qazanın düşmən qarşısında acizliyini göstərən yeganə epizoddur. "Qazan Big burada soylamış, görəlüm xanum niçə soylamış, aydur:

Kara əvrən kopdı Dəpəgöz,
Arş yüzində çevürdüm, alımadum, Basat
Kara qaplan qopdı Dəpəgöz,
Kara-kara tağlarda çevürdüm, alımadum, Basat
Kağan aslan qopdı, Dəpəgöz
Kalın sazlarda çevürdüm, alımadum, Basat
Ər olsan, big olsan mərə
Mən Qazança olmayasın Basat
Didi.

Ağ saqallu babanı ağlatmağıl
Ağ pürçəklü ananı buzlatmağıl[81].

Burada Qazan Basata Təpəgöz kimi yağı bir düşməni tanıtmaq, nə kimi bir təhlükə ilə üz-üzə qaldığını göstərmək istəyir. Bəylərbəyinin bütün bu sözlərinin cavabında isə Basatın mövqeyi qəti və inamlıdır.

Burada amansız düşmənə qarşı dayanan Basatın vətənpərvərliyi, igidliyi, torpağına olan məhəbbəti onun qəhrəmanlığı ilə vəhdətdədir.

Təpəgöz sadəcə Oğuz elinə qarşı deyil, oğuzların simasında kosmik düzənə qarşıdır. O baxımdan Təpəgöz təkcə onu tapıb böyüdən Aruz qocaya, onun ailəsinə yox, bütün Oğuz elinə düşmən kəsilir, çünki oğuzlar düzənli, tarazlı dünyanı simvolizə edirlər. O, hər kəsi öldürməklə sanki insanlıqdan intiqam almaq istəyir. Oğuz eli Basatın qəhrəmanlığı sayəsində nicat tapır. Basatın qardaşı Qıyan Səlçük Təpəgözün əlində can verdiyinə görə o, bu varlıqdan qisasını almalıydı. O, Təpəgözlə döyüşə girməklə Oğuz elində, yəni nizamlı dünyada bu azman tərəfindən pozulmuş sakitliyi və birgəyaşayış normalarını bərpa edə bilir.

Təpəgöz Oğuz elində böyüyüb boya-başa çatsa da, xaotik bir əxlaqın sahibidir. Həm də bu yaşayış qaydası oğuz ənənələrinə zidd olub, qeyri-normal, ifrat dərəcədə oğuz əxlaqına ziddir. Buna baxmayarq o, Oğuz elində bö-

[81] Ergin Muharrem. Dede Korkut Kitabı-1, s.211

yüyüb başa çatmış və bir çox xarakterik cəhətləri ilə insanlığa zərər verdiyinin fərqindədir. Təpəgözün son söyləməsi bu baxımdan ibrətamizdir. Bu söyləmədə eldə böyüyüb ona xəyanət edən bir varlığın etirafı açıq-aydın sezilir, Təpəgöz gözünü itirdikdən sonra sanki həyatın, yaşayışın mənasını başa düşür və əməllərinə peşman olur:

Ağ sakallu kocaları çok ağlatmışam
Ağ sakallı, karışı tutdı ola, gözüm səni
Ağ pürçəklü karıçuqları çok ağlatmışam
Gözi yaşı tutdı ola, gözüm səni
Bıyıçağı kararmış yigitçükləri çok yimişəm
Yigitlikləri tutdı ola, gözüm səni
Əlçügəzi kınalı kızçuğazları çok yimişəm
Karışçuları tutdı, ola, gözüm səni
Eylə kim çəkərəm mən göz bunını
Hiç yigidə virməsün kadir Tanri göz bunını
Gözüm, gözüm, ay gözüm yalunuz gözüm didi[82].

Ancaq bu artıq geçikmiş etiraflar da Basatın Təpəgözü öz qılıncı ilə öldürməsinə əngəl olmur və Basat onun başını kəsib yayın kirişinə taxmaqla Oğuz elinin pozulmuş həyat və yaşayış ritmini, ayaq altına salınmış əxlaq normalarını bərpa etmiş olur. Beləliklə, Basat oğuzların yenilməz mədəni qəhrəmanı kimi yüksək zirvəyə ucalır və dastanın

[82] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.215

obrazlar sisteminə daxil olan qəhrəmanlar arasında xüsusi yer tutur.

Göründüyü kimi Basat-Təpəgöz savaşı kəskin qarşıdurma olub Oğuz elinin müqəddəratını həll edən zəfər məqamına yüksəlir.

Bütün bunlar isə türkün tarixi taleyi üçün əlamətdar həqiqətləri önə çəkməkdədir. Bir tərəfdən türkə fəlakət gətirən qüvvələr varsa, digər tərəfdən onu zərərsizləşdirən, türkün qoluna qüvvət, taleyinə işıq salan böyük qüvvələr də mövcuddur. Onlar türk elini daim hifz edir, şərdən və məkrdən qoruyub saxlayır. «Kitabi-Dədə Qorqud» bu həqiqəti geniş ölçülərdə yaratmaqla türkün gələcək işıqlı və şərəfli sabahından soraq verir.

Oğuzlar qaçmaq istədikdə də Təpəgöz onların qarşıını alıb yerlərinə qaytarır. Nəhayət, Dədə Qorqud onunla kəsim kəsir: iki adam ilə beş yüz qoyun. Bu zülm Basatın Təpəgözü öldürməsinə qədər davam edir.

Basat onun tək gözünə qızdırılmış süngü sokmakla sehrli gücünü zəiflətmiş olur. Bundan sonra Basat Təpəgözün sehrli üzüyünü də ələ keçirərək onun öz qılıncı ilə başını kəsir.

İstər Oğuz dastanlarında, istərsə də türk və dünya mifologiyasında Təpəgöz obrazı yetərincə araşdırılmışdır. Hətta "Kitab-ı Dədə Qorqud" boylarının tapılması və haqqında ilk məlumat verilməsi də Təpəgöz obrazı haqqında

yazılan geniş məqalə ilə başlamışdır[83]. Bu dini-mifoloji obraz haqqında ən geniş məlumat verənlərdən biri də von Diezdir. O, Təpəgözün mənşəyindən, Avropada yayılma səbəblərindən, müxtəlif xalqlarda yaşayan variantlarından bəhs etmiş, onun mənşəyi barədə dəyərli mülahizələr irəli sürmüşdür[84]. Azərbaycanda da bu məsələ xeyli araşdırılmışdır. Ə.Sultanlı, M.H.Təhmasib, A.Nəbiyev, F.Əlimirzəyeva və başqaları bu obrazın türk epik mədəniyyətindəki yeri və mövqeyi, fenomenal şəxsiyyəti barədə dəyərli mülahizələr irəli sürmüşlər. Həm də haqqında müstəqil dastan olan tək fövqəladə varlıq da Təpəgözdür. Bu obraz daha çox Homerin "Odisey" əsərindəki təkgözlü Polifemlə müqayisə edilmişdir.

Dünya xalqlarının, özəlliklə də yunanların tək gözlü varlıqlarla bağlı təsəvvürləri daha geniş yayılmışdır. Belə ki, yunan mifologiyasında tək gözlü nəhəng Kikloplar və Polifemdir. Yunan mifologiyasına görə tək gözlü Kikloplar Uranus ilə Qayanın, başqa bir varianta görə də Poseydon və Amfitridanın övladlarıdır. Bu mifik obrazın alnının tam ortasında bir gözü vardır[85]. Təbiətin qaba, ilk və ibtidai gücünü təmsil edən tək gözlülük Təpəgözün də əsas özəlliyidir. Qaba və ibtidai təbiət isə mifologiyada bir qayda olaraq

---

[83] Bax. Schmiede H. Achmed "Dede Korkut araştırmacılığının banisi: Türk medeniyetinin bilgin aşığı Heinrich Friedrich von Diez (1751-1817) 250 yıl önce doğdu", dspace.khazar.org/.../kitabi%20dedem%20qorq

[84] Binyazar Adnan (2007). Dede Korkut. İstanbul, s.10-13

[85] Coleman J.A. (2007). The dictionary of mythology, s.262

xaos kimi başa düşülür. Yunan epik ənənəsində isə Polifem daha çox antropomorflaşmaya məruz qalmış tək gözlü Kikloplardan biridir. Sicilyada bir adada çobanlıq edən Polifem dəniz tanrısı Poseydonun oğlu Odisey tərəfindən kor edilməklə öldürülür. Gözün kor edilməsi ilə öldürmə qismən Oğuz dastanında da olduğundan və həm Basatın, həm də Odiseyin qoyun dərisinə bürünərək mağaradan çıxmaqla xilas olmaları və s. motivlər yunan dastanı ilə oğuz dastanını bənzər duruma gətirmiş və Ə.Sultanlıdan başlayaraq K.Abdullaya qədər bir çox araşdırmaçılar bu mövzuya xüsusi diqqət göstərmiş, müqayisələr apararaq Təpəgözün qədimliyini qeyd etmişlərdir[86].

F.Bayat isə məsələyə fərqli yanaşmışdır: "Əslində cinlə, pəriylə, orman ruhları ilə cinsi əlaqə qurmaq o biri dünya ilə təmas halında olmaq deməkdir. Qonur Qoca Sarı Çoban bu tabunu pozmaqla oğuzların başına bəla gətirmiş olur. Xaosun simvolu olan Təpəgöz tabuya əməl edilməməsinin məhsuludur. Təpəgözlə Basatın savaşı iki qardaşın – kosmosla xaosu simvolizə edən fövqəladə güclərin savaşıdır. Bəlkə də dastanın daha əski variantında Basatla Təpəgöz əkizdirlər və dastanın mövzusu əkizlər mifi ilə bağlı olub xeyirin şər üzərində qələbəsidir. Hətta Təpəgöz də Basatın kim olduğunu öyrəndikdən sonra "İmdi qardaşuz qıyma mana" deyir. Ancaq dastanda Təpəgöz doqquz qoca başı Alp Aruzun mənəvi oğludur. Basat isə Aruzun öz oğlu-

---

[86] Sultanlı Əli (1971). Məqalələr. Bakı: Azərnəşr; Abdulla Kamal (1991). Gizli Dədə Qorqud. Bakı: Yazıçı

dur. Hər ikisi – qəhrəman və anti-qəhrəman təbiətdən cəmiyyətə gəlmişdir. Birini çoban tapıb xəbər vermiş, bəylər də onu alıb oğuzların içinə gətirmişlər, digərini də ilk görən yenə çobandır, onu da bəylər alıb cəmiyyətə gətirmişlər"[87]. İstər mifologiyada, istərsə də dastanlarda əkizlər mifi daha çox xaos-kosmos ikili qarşıdurması zəminində gerçəkləşmişdir. Mifologiyada və xalq yaradıcılığında əkizlər mifi məna sıraları, qarşıdurmalar baxımından çox vaxt xaos və kosmosu təmsil edən obrazlar vasitəsilə təcəssüm olunur. Əkizlər mifi təkcə iki tərəfin deyil, həm də üç, dörd, beş, altı, yeddi qardaş və bacıların qarşılaşdığı münasibətləri təsvir edir. Ona görə də mifologiyada əkizlər modeli təkcə eyni vaxtda, eyni gündə dünyaya gələn qardaş və bacıları əhatə etmir. Əkizlər modeli həm obrazları, həm də bu obrazların qarşılaşdığı mifik düşüncəni yansıdır. Əkizlər mifi kosmoqonik aktların əsası olan kosmos və xaos münasibətləri baxımından fəaldır, çünki bu obrazların ikiləşməsi onun təsir gücünü daha da artırır.

Dədə Qorqud dastanında əkizlər mifi Basat-Təpəgöz əkizlik modelində kosmos-xaos qarşıdurmasını simvollaşdırır. Və təbii ki, əkizlər mifi folklorda, dəyişmiş, başqa bir formaya dönüşmüş şəkildə özünü göstərir. Dəyişikliyin mühüm əlamətlərindən biri əkiz qardaşların yerinə əkiz olmayan qardaşlarla, yaxud hansı baxımdansa doğma olan adamlarla bağlı obrazlara folklorda daha çox təsadüf edil-

[87] Bayat Fuzuli (2016). Mitten tarihe sözden yazıya Dede Korkut, s.144-145

məsidir. Belə obrazlar "Dədə Qorqud" eposu üçün də səciyyəvidir[88]. Basatla Təpəgözün qarşılaşması birbaşa kosmosla xaosun mübarizəsini əks etdirir. Bu mübarizə birmənalı şəkildə əkizlər mif modelinin strukturuna əsaslanır. Belə ki, Basat və Təpəgöz məna etibarilə bir-birinin əksinə olsalar da, onlar ortaq genetik kökə bağlıdırlar, ilk öncə təbəitdə formalaşmış, sonra alınıb cəmiyyətə gətirilmişlər. Basatın Təpəgözü öldürməsi ilə Oğuz eli məhv olmaqdan qurtulur: oğuz cəmiyyətində kosmik nizam bərpa olunur. Bu da əkizlər mif modelinin kosmos-xaos funksiyasını təmsil etdiyini göstərir.

---

[88] Kazımoğlu Muxtar (2011). Folklorda obrazın ikiləşməsi. Bakı: Elm, s.42

# BEŞİNCİ FƏSİL

# QADIN QƏHRƏMANLAR

## 5.1. Oğuznamələrə görə qadın surətlərinin xarakteristikası

Oğuznamə dastanlarında qəhrəmanları tipoloji xüsusiyyətinə görə alp (bahadır), alp ərən, qazi kimi növlərə ayırdıq. "Oğuz Kağan" dastanında və "Kitab-i Dədə Qorqud" boylarında rast gəldiyimiz mifoloji varlıqları ayrıca kateqoriya kimi araşdırmağı uyğun gördüyümüz kimi düşmən obrazlarını da başqa bir başlıq altında tədqiq etməyə çalışdıq. Ancaq Oğuznamə qəhrəmanları sadəcə kişilərdən ibarət deyildir. Özəlliklə epik Oğuznamə dastanlarında qadın qəhrəmanlar, obrazlar vardır ki, onları ayrıca öyrənməyi uyğun hesab etdik. Digər tərəfdən tarixi Oğuznamə dediyimiz salnamələrdə də epizodik qadın surətlərinə rast gəlmək mümkündür. İlk olaraq qeyd etmək lazımdır ki, Dədə Qorqud dastanlarında qadın obrazlarının süjetin ümumi məzmunundakı yeri müxtəlif dövrlərdə araşdırmaçıların tədqiqat obyekti olmuş, bu fərqli kateqoriyalarda duran qadın obrazları müxtəlif aspektlərdən araşdırılmışdır[89]. Daha

[89] Əliyeva B. "Kitabi-Dədə Qorqud dastanlarında qadına münasibət", Kitabi-Dədə Qorqud dastanının 1300 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Səda, 1999, s.62-66; Əliyeva İ.S. "Dədə Qorqud dastanında qadın – ana obrazları", Kitabi-Dədə Qorqud – 1300

doğrusu qadın qəhrəmanlarla (obrazlarla) bağlı iri həcmli əsərlər yazıldığı kimi[90] bu mövzuya ötəri toxunanlar da olmuşdur.

Oğuznamə dastanlarında qadın obrazları "epik yaddaşdakı alplığın yeni şəkildə davamı və əsl cəngavərlik"[91] timsalıdır. O halda sarı donlu Selcan xatunun, boyu uzun Burla xatunun, Banu Çiçəyin və digərlərinin qəhrəmanlığı dastanın sevilən qəhrəmanlarından olan Salur Qazanın, Beyrəyin, Qara Günənin, Əmranın, Yegnəyin, Basatın qəhrəmanlığından və dastandakı rolundan heç də geridə qalmır. "Kitab-i Dədə Qorqud" boylarında qadın qəhrəman probleminə hər halda süjetin ümumi kompozisiyası, strukturu daxilində baxmaq, onların funksiyasını və qəhrəman kateqoriyasındakı yerini müəyyənləşdirmək lazımdır. Əvvəlan, qadın qəhrəmanların əsas səciyyəvi cəhəti onları alp, alp ərən, qazi tiplərinə ayırmağın mümkün olmamasıdır. İkincisi, epik düşüncədə qadına biçilən rol Oğuznamə dastanlarında fərqlidir. Belə ki, həm Dədə Qorqudda, həm də salnamələrdə qadının ləyaqəti, tədbirliliyi, sədaqəti önə çəkilmişdir, yəni onun qəhrəmanlığı fiziki deyil, mənəvidir.

---

Respublika elmi konfransının tezisləri (25-26 may 1999, BDU). Bakı, 1999, s.9; Əsgərova K. "Kitabi-Dədə Qorqudda qadın igidliyi", Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. Kitabi-Dədə Qorqud - 1300 VI elmi-nəzəri konfransın materialları. Bakı: Örnək, 1999, s.71-74

[90] Özmen M. Korkut hikayetlerinde kadın ve aile içi ilişgileri. İstanbul, 1994, s.43-49

[91] Özmen M. Korkut hikayetlerinde kadın, s.43

Oğuznamə dastanlarında qəbilə-tayfa münasibətləri fonunda qadın-ana-uşaq probleminə aid araşdırmalarda qadın qəhrəmanlara birtərəfli yanaşmanın şahidi oluruq[92]. Belə ki, qadın qəhrəman dedikdə baş kəsib, qan tökmək başa düşüldüyündən qadınların cəmiyyətdəki rolu, ailədəki yeri, əxlaqi davranışları, nişanlı məsələsi, ana qayğısı, qadın sədaqəti kimi məsələlər səviyyəsində tədqiqata cəlb edilmişdir. Ona görə də qadın obrazları bəzən oğuz alpları kimi qılınc qurşanan, savaşan tiplər kimi təqdim edilir.

Hər halda türk epik düşüncəsində qadın əsasən doğuran, yaşadıcı və övlad tərbiyə edən obraz kimi formalaşmış, türk xalqlarının yaddaşına da bu şəkildə daxil olmuşdur. Onun fiziki qəhrəmanlığı, alplığı isə sonradan cəmiyyət həyatında əldə edilən nailiyyətlərdir. Odur ki, bu nailiyyət,

---

[92] Bağırov İ., Əliyev V. "Kitabi-Dədə Qorqudda qadına münasibət", Azərbaycan müəllimi qəz., 19 oktyabr, 1999; Əliqızı S. "Kitabi-Dədə Qorqud dastanı oğuz cəmiyyətinin əxlaqi-etik normaları haqqında", Kitabi-Dədə Qorqud – 1300. Respublika elmi konfransının tezisləri (25-26 may, 1999, BDU). Bakı, 1999, s.20-21; Əliqızı S. "Kitabi-Dədə Qorqud dastanında əxlaq məsələləri", Millət qəz., 1999, 29 aprel; Əliyeva B. "Kitabi-Dədə Qorqud dastanlarında qadına münasibət", Kitabi-Dədə Qorqud dastanının 1300 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Səda, 1999, s.62-66; Əliyeva İ.S. "Dədə Qorqud dastanında qadın – ana obrazları", Kitabi-Dədə Qorqud – 1300. Respublika elmi konfransının tezisləri (25-26 may 1999, BDU). Bakı, 1999, s.9; Əliyeva N. "Kitabi-Dədə Qorqud dastanında məhəbbət motivləri", Kitabi-Dədə Qorqud dastanının 1300 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları. ADPU-nun Xəbərləri, Humanitar elmlər seriyası, 1999, № 1, s.115-117; Əsgərova K. "Kitabi-Dədə Qorqudda qadın igidliyi", Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. Kitabi-Dədə Qor-qud - 1300 VI elmi-nəzəri konfransın materialları. Bakı: Örnək, 1999, s.71-74

yaxud hal, vəziyyət, qələbə keçici xarakter daşıyır. Müəyyən məqamda, hadisə daxilində özünü göstərir, bir müddətdən sonra qəhrəman bu xüsusiyyətini itirir. Məsələn, sarı donlu Selcan xatun yalnız bir dəfə döyüşür, özü də atasının göndərdiyi qara donlu, dəmir qılınclı, dəbilqəli altı yüz kafirə qarşı. Bu qadının Qanturalı ilə bir-birini sınama döyüşü həqiqi döyüş deyil, iki sevgilinin bir-birini başa düşməməsidir. Bununla da Selcan xatunun alplar kimi döyüşməsi sonrakı boylarda davam etmir, əksinə onun alplığı bununla da başa çatmış olur. Epik yaddaş süjetə hər hansı əlavəni qəbul etmir, Selcan xatunun savaşçılıq qabiliyyəti, əski türk cəmiyyəti üçün spesifik olsa da Dədə Qorqud boylarında artıq qadının rolu daha çox ailə içi münasibətlə məhdudlaşdırılmışdır.

Buna baxmayaraq qadın obrazları oğuzların həyatını tamamlayan bir ünsür kimi dastanda mühim funksiya daşıyır. Hər halda "Oğuz Kağan" dastanında epizodik obraz olan Oğuzun xanımları və Rəşidəddinlə Əbülqazidəki Oğuzun üç xanımı və sonrakı Oğuz padşahlarının anaları və xanımlarını nəzərə almasaq əsas qadın obrazlarına Dədə Qorqud boylarında rast gəlirik.

Oğuz cəmiyyətinin baş biləni, ağsaqqalı Dədə Qorqud hələ kitabın əvvəlində qadınları dörd soya bölərək onların hər birini öz adına uyğun xarakterizə etməyi məsləhət görür. Beləliklə, Dədə Qorqud oğuz cəmiyyətinin qadın həyatını güzgüdəki əksi ilə göstərmiş olur. Müqəddimədə o, hətta qadınların özünəməxsus həyatını, psixologiyasını ne-

cə varsa elə də yansıtmağa çalışır. Dədə Qorqud hər bir qadının özünəməxsus səciyyəvi xüsusiyyətini belə şərh edir:

“Dədə Korkut dilindən ozan aydur: Karılar dört dürlüdür. Birisi solduran soptur. Birisi tolduran topdur. Birisi ivün tayağıdur. Birisi niçə söylərsən bayağıdur. Ozan ivün tayağı oldur ki yazıdan yabandan ivə bir konuk gəlsə, ər adam ivdə olmasa, ol anı yidürür içürür ağırlar azizlər göndərür. O Ayişə, Fatıma soyıdur xanum. Anun bəbəkləri yetisün. Ocağuna bunçılayın avrat gəlsün. Geldük ol-kim solduran sopdur: Sabadança yirindən örü turur, elin yüzin yumadın tokuz bazlammaç ilən bir külək yoğurd gözlər, toyınça tıka basa yir, əlin böğrinə urur aydur: Bu ivi xarab olası erə varaldan berü dahı karnum toymadı, yüzüm gülmədi, ayağum paşmak yüzüm yaşmak görmedidir, ah nolaydı, bu öleydi, birinə dahı varayidüm, umarumdan yaxşı uyar olayidir. Anun kibinün xanum bəbəkləri yetməsün. Ocağuna bunçılayun avrat gəlməsün. Geldük ol kim tolduran topdur: Depidinçə yirindən örü turdı, əlin yüzün yumadın, obanun ol uçından bu uçına bu uçından ol uçına çırpışdurdı, kov kovladı din dinlədi, öylədənçə gəzdi; öylədən sonra ivinə gəldi, gördi kim oğrı köpək yikə tana ivini bir birinə katmış, tavuk küməsinə, sığır tamına dönmiş; konşularında çağurır ki kız Zəliha, Zübeydə, Ürüveydə, Çan Kız, Çan Paşa, Ayna Mələk, Kutlu Melek ölməgə, yitməgə gitməmiş idüm, yataçak yirüm ginə bu xarap olasıydi, nolaydı benüm ivümə bir lahza bakay idünüz, konşı hakkı, Tanrı hakkı diyü söylər. Bunun kibinün xanum bəbəkləri yetmə-

sün. Ocağuna bunun kibi avrat gəlməsün. Geldük ol kim niçə söylər isən bayağıdur: Ötə yazıdan yabandan bir odlu konuk gəlsə, ər adam ivdə olsa, ana disə ki: Tur ətmək gətür yiyəlüm, bu da yisün disə, pişmiş ətməgün bakası olmaz yimək gərəkdür; avrat aydur: Neyləyəyim, bu yıkılaçak ivdə un yok, ələk yok, dəvə dəgirmənindən gəlmədi dir; nə gəlürsə bənüm sağrıma gəlsün diyü əlin götinə urur, yönin anaru sağrısın ərinə döndürür; bin söylər isən birisini koymaz, ərün sözini kulağına koymaz. Ol Nuh Peygambərün eşəği asılıdur. Andan dahı sizi xanum Allah saklasun, ocağunuza bunçılayın avrat gəlməsün”[93].

Dədə Qorqud dastanlarının müqəddiməsində qadın tipləri barədə Dədə Qorqudun bu açıqlaması qadının cəmiyyətdəki rolu və mövqeyi ilə bağlı Oğuz elinə bir xəbərdarlıqdır. Ozan Oğuz elinin qadın tiplərini qruplaşdırır, onların ər evinə gəldikdən sonrakı mərhələdə, ailəni idarəetmədə rolunun vacibliyinə görə son üç tip qadının Oğuz ocağına gəlməsini arzulamır. Dədə Qorqud Oğuz elini xəbərdar edir ki, qadın evin dirəyidir, dayağıdır, onu ucaldıb möhkəmlədə də bilər, yıxa da bilər.

Dədə Qorqud boylarında müqəddimədən sonra bütün qadın və kişi obrazlarının müxtəlifliyi yalnız III boyda üzə çıxır. “Pay Pürə oğlu Bamsı Beyrək” boyunda kişi obrazlarından Yalançıoğlunun, qadınlardan da Qısırca yengə ilə Boğazca Fatmanın və başqalarının xarakteristikası verilmişdir.

---

[93] Ergin Muharrem (1997). Dede Korkut Kitabı. Ankara: TDK, s.76-77

Tayfa həyatının bu üstüörtülü layı Beyrəyin qayıdışından sonra keçirilən məclisdə açıqlanır.

Məclisdə Qısırca Yengə deyilən bir qadın vardı, ona dedilər ki, dur oyna, dəli ozan nə bilir ki, sən ərə gedən qız deyilsən.

Qısırca Yengə də "Mərə, dəlü ozan, ərə varan kız mənəm" deyə ayağa durub oynayanda Beyrək onun sirlərini məclisə belə təqdim edir:

"And içmişəm, kısır kısrağa bindügüm yok
Binübəni qazavata varduğım yok
Öküz ardında sarvanlar sana bakar
Buldur buldur gözlərinün yaşı akar
Sən onların yanına vargil.
Muradunı anlar virür, bəllü bilgil!
Sənünlə mənüm işim yok
Ərə varan kız kalka
Kol saluban oynaya
Mən kopuz çalam"[94].

Deмək, cəmiyyətin gizli layının sirri olan Qısırca yengələrin əməlləri üzə vurulmasa da onların mahiyyəti cəmiyyətə bəllidir. Bir zümrə kimi onlar da Oğuz cəmiyyətində azad həyat sürür, ancaq eyni zamanda öz əməlləri ilə də tanınırlar. Yaxud dastanda Boğazca Fatma da eyni zümrənin təmsilçilərindəndir. Ona da təklif edirlər ki, qalx sən

---

[94] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.146

oyna, dəli ozan nə bilir ki, sən ərə gedən qız deyilsən. Boğazca Fatma isə "Hey, şu dəlü məğmun mənə də şayəd ancılayın olmaz sözlər söylər" - deyərək ehtiyat edir. "Kızun kaftanını geydi, çal mərə dəlü ozan, ərə varan kız mənəm, oynayayım didi". Beyrək məqamdan istifadə edərək Boğazca Fatmanın da əxlaqına aydınlıq gətirir və Boğazca Fatmaya belə tanıtma verir.

"And içəyim bu gəz boğaz kısrağa bindügüm yok
Binübəni qazavata varduğum yok
İvünüz ardı dərəçük degülmiydi
İtünüz adı Barak degülmiydi
Sənin adın kırk oynaşlu Boğazca Fatma degülmiydi
Dəxi aybın açaram, bəllü bilgil didi
Sənünlə mənüm oyunum yok
Var yerinə oturğıl
Ərə varan kız yirindən tura
Mən kopuz çalam
Kol saluban oynaya"[95].

Ozan tayfadaxili əxlaq normalarını epik repertuara gətirərkən böyük məharət göstərir, məişət həyatını bütövlükdə əks etdirməyə çalışır. Ancaq cəmiyyətdəki neqativ əxlaq daşıyıcılarını elə Oğuz elindəki qəhrəmanların dili ilə danışdırır. Həqiqətləri məharətlə açıqlayır. Beyrəyin dili ilə Boğazca Fatma və Qısırca Yengənin həyat tərzini, qəbahət-

[95] Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1, s.147

lərini üzlərinə deməklə təkcə onları ifşa etmir, eyni zamanda tayfa həyatının ziddiyyətlərini də açıqlayır. Hər bir cəmiyyətdə müsbətlə yanaşı mənfiliklər də mövcuddur. Oğuz eli də bunlardan xali deyildir. Ozan Beyrəyin dili ilə onların keçmişini xatırlamaqla, eyni zamanda cəmiyyət həyatını olduğu kimi göstərir. Onların əməllərindən bir neçə kəlmə deyərək "Var yerinə oturgıl!" müraciətilə onları elin böyük tədbirlərindən kənarda saxlamağın zəruriliyinə işarə vurur.

Buradan belə anlaşlır ki, bütün alplar Salur Qazanın, bütün ana və ideal xanım qadınlar boyu uzun Burla xatunun, yüngül məcazlı qadınlar da Qısırca Yengə ilə Boğazca Fatmanın paradiqmalarıdır.

## 5.2. Ana, xanım, bacı obrazlarının semantikası

"Kitab-i Dədə Qorqud"un ayrı-ayrı boylarında, xüsusilə Beyrəyin toy məclisinə gəlib çıxdığı epizodda qadınların mövqeyi, müxtəlif əxlaqi səciyyəsi açıqlansa da, bütövlükdə oğuz hekayətlərində təsvir edilən qız və qadınlar ozanın birinci tipə daxil etdiyi qadınlar sırasından seçilmişdir. Diqqət yetirsək görərik ki, Dirsə Xanın xatunu xan qızıdır. Dirsə Xan Bayındır Xanın məclisindən evə qayıdıb gələrkən xatununa müraciət edir, burada xatunun gözəlliyi, ona ev, ailə daxilindəki münasibət məlum olur:

"Bərü gəlgil, başum baxtı, ivüm taxtı
İvdən çıkup yorıyanda səlvi boylum

Topuğında sarmaşanda kara saçlum
Kurulu yaya bənzər çatma kaşlum
Koşa badəm sığmayan tar ağızlum
Güz almasına bənzər al yanaklum”[96].

Bu təsvirdən qadının evdəki ailədaxili münasibətləri aydın görünür. Buradan göründüyü kimi Dirsə Xanın xatunu Dədə Qorqudun şərh elədiyi qadınların birinci tipinə məxsusdur. Ancaq Bayındır Xanın məclisində övladı olmadığına görə cəzalandırılan, “qara çadırda” əyləşdirilən Dirsə Xan təhqir edilməsindən qəzəblənmişdir. Qəzəbini xatununa belə bildirir:

Xan qızı, yirümdən turayımmı
Yakan ilə boğazundan tutayınmı
Kaba önçəm altına salayınmı
Kara polat öz kılıcum əlümə alayınmı
Öz gevdəndən başunı kəsəyinmi
Can tatlusın sana bildürəyinmi
Alça kanun yir yüzinə dökəyinmi
Xan kızı, səbəbi nədür, digil mana
Katı kazab idərəm şimdi sana – dedi”[97].

Oğuz elində hər nə qədər qadınlar söz sahibi olsalar da, fikirlərini açıq söyləsələr də, onların ayrıca müstəqil

[96] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.79
[97] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s80

statusu yoxdur. Ailədə hakim və hökmran mövqe kişiyə məxsusdur. Dirsə Xanın xanımının ağıllı davranışı, cavabları qılınc qəhrəmanlığından daha yüksək dəyərə və kəsərə malik bir mənəvi qəhrəmanlıqdır. Oğuznamə dastanlarında gördüyümüz digər qadın obrazlarına diqqət yetirsək, onların hər birinin qılınc qəhrəmanı yox, xan evində yaxşı tərbiyə almış, ər evinə özünün ailə tərbiyəsini, dünyagörüşünü gətirmiş qızlar olduğunu görərik. Çünki bu qadınlar alpları yetişdirən anadırlar, ərlərinin ən yaxın məsləhətçiləridirlər. Ona görə də eposdakı qadın obrazlarını bizcə üç qrupa ayırmaq mümkündür.

Birinci qrupa daxil olanlar xan qızlarıdır. Buraya Dirsə Xanın xatunu, Bayındır Xanın qızı və Qazan Bəyin xatunu Burla xatun daxildir.

İkinci qrupa Oğuz elinə qismən sonra gələn, nəzir-niyazla doğulan Banu Çiçək, Dəli Dumrulun övladlarının anası, Dəli Dumrulun öz anası, düşmən elindən Oğuz elinə gətirilən təkurun qızı sarı donlu Selcan xatun, Bəkilin xatunu və Beyrəyin bacıları daxildir.

Üçüncü tip qadınları isə əsasən Beyrəyin qayıdışı məqamında Banu Çiçəyin yanında olan Qısırca Yengə, Boğazca Fatma, Pəriqız, həmçinin dastanın ayrı-ayrı boylarında gördüyümüz düşmən elindən əsir götürülmüş şərab paylayan kafir qızları və Burla xatunun qaravaşları əhatə edir. Oğuznamələrdə Oğuz elindəki qadınların bütün sosial zümrələri təmsil olunmuşdur.

Hər bir zümrənin mənəvi-əxlaqi dəyərləri, psixoloji durumu, ictimai-siyasi mövqeyi boylarda özünü aydın şəkildə əks etdirir. Burada qadın ailənin mənəvi dayağı, ərinin ən yaxın köməkçisi və məsləhətçisi, cəmiyyət həyatında ədalətin tənzimlənməsi, ailədaxili münasibətlərin qorunub saxlanması və ata-övlad qarşıdırmalarının aradan qaldırılmasında xüsusi mövqeyi olan cəmiyyət üzvüdür. O, eyni zamanda Oğuz elində dünyaya övlad gətirib, onu ləyaqətlə tərbiyə edəndir. Bütün bu xüsusiyyətlər isə cəmiyyətdəki qadın tipləri arasında bölüşdürülür. Tayfa həyatının müxtəlif zümrələrini təmsil edən qadınlar bir sıra funksiyaları üzərinə götürür və onları həyata keçirirlər. Haqqında bəhs edilən qadın mənəviyyatının bütövlüyü Oğuznamələrdə birinci tip qadın obrazlarının şəxsində cəmləşmişdir. Onların boylarda əks olunan ilk nümayəndəsi isə yuxarıda da deyildiyi kimi Dirsə Xanın xatunu, Salur Qazanın xanımıdır. Dastanda Dirsə Xan namərd igidlərinin sözünə inanıb oğlunu ovda ölümcül yaralayır. Ancaq geri dönəndə oğlunun ilk ovu şərəfinə məclis düzəldən anaya həqiqəti deyə bilmir. Ovdan qayıdanların içərisində oğlunu görməyən ana yurda tək qayıdan Dirsə Xana xitabında bir daha xarakterinin ən yüksək cizgilərini əks etdirir:

Bərü gəlgil, başum baxtı, ivüm taxtı
Xan babamun güyəgüsi
Kadın anamun sevgüsi
Atam-anam verdügi

Göz açuban gördügüm
Könül virüb sevdügüm
a Dirsə Xan
…İki vardun, bir gəlürsən, yavrum kanı
Karanu dündə bulduğum oğul kanı[98].

Burada qadının analıq funksiyası bütün tərəfləri ilə üzə çıxır. Dirsə Xanın dinməməsi, qırx namərdin müəmmalı cavabı ananın həyəcanını daha da artırır. O, geri qayıdıb, qırx incəbelli qızla birlikdə oğlunu axtarmaq üçün Qazılıq dağına gedir. Bu gediş cəngavərlik yürüşü deyildir. Cəsur bir ananın övladı yolunda fədakarlığıdır. El içində böyük hörmət sahibi olan xan qızının igidliyi, cəsarəti, ərinin qeyri-əxlaqi əməlinə qarşı üsyanıdır.

Övladını tapdıqdan sonra onun yarasına ana südü ilə dağ çiçəyindən hazırlanmış məlhəm qoyur, onu əzizləyir, qoruyur, ehtiyatla evinə gətirir. Burada Buğacın yenidən həyata qayıtmasının daha böyük, mühüm bir səbəbi də ana məhəbbətidir. Hz.Xızırın ağır məqamda Buğacın yarasını "sığaması", ana məhəbbətinin əzəməti ilə bilavasitə bağlıdır. Boyda ana böyüklüyü yüksələn xətt üzrə inkişaf edir. Ana təkcə övladının xilaskarı deyildir, o, eyni zamanda Dirsə Xanın və Oğuz elinin xilaskarı və himayəçisidir. Boyun əvvəlində olduğu kimi, sonradan Dirsə Xanı övlad qatilliyindən xilas edir, bununla da kifayətlənmir, atasını qur-

[98] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.86

tarmaq üçün oğlunu onun arxasınca göndərir. Qırx namərd düşmənin ona qarşı yönəlmiş planını pozur, ata-oğul qarşıdurmasını aradan qaldırır.

Dədə Qorqud boylarında birinci tip qadının ikinci mükəmməl nümayəndəsi boyu uzun Burla xatundur. Burla xatun xanlar xanı Bayındır Xanın qızı, Oğuz elinin bəylərbəyi Qazan Bəyin xatunudur. Mənəvi qəhrəmanlıq sərhəddində təbii ki, o Dirsə Xanın xatunu ilə eyni zirvədə yer tutur. Burla xatun Dirsə Xanın xanımının davamçısıdır. "Salur Qazanın evi yağmalandığı boyı"nda o, yalnız əxlaqi dəyərlərin himayəçisidir. Əsir həyatında Burla xatun Şöklü Məliyə əyilmir. Hətta düşmənin Uruzun ətini qara qovurma edərək qırx bəy qızına yedirmək niyyətini də daxili ağırı ilə, zahiri təmkinlə qarşılayır:

"Oğul, oğul, ay oğul
Bilürmisin nələr oldı
Söyləşdilər fısıl-fısıl
Kafərin filin tuydum
Dünlügi altun ban ivümün kabzası oğul
Kaza bənzər kızımun – gəlinümün çiçəgi oğul
Oğul, oğul, ay oğul
Tokuz ay tar qarnumda götürdügüm oğul
On ay diyəndə dünyaya gətürdügüm oğul
Tolması altun beşikdə bələdügüm oğul"[99].

---

[99] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.106

Kafirlər Uruzun doğranıb yeyilməsini, bununla da Burla xatunu tapmağı planlayırlar. “Qazanun oğlı Uruzı tartun çəngələ asun, kıyma-kıyma ağ ətindən çəkün, kara kavurma pişürüp kırk big kızına ilətün, hər kim yidi, ol degül, hər kim yimədi oldur, alun gəlün, sağrak sürsün didi”[100].

Boydan məlum olduğu kimi Uruz öldürülmədən Salur Qazan özünü yetirir, Şöklü Məliklə üz-üzə dayanır. Türk epik ənənəsində dustaq edilib aparılan qız-gəlinin geri qaytarılma ənənəsi bu boyda saxlanmışdır. Oğuz bəylərinin məclislərində kafir qızları şərab paylayır, oğuz bəyləri ilə əylənirlər. Ancaq bunu dustaq edilən oğuz xatunları barədə, xüsusilə Burla xatun haqqında demək olmaz. Düşmən nə qədər məkrli olsa da, dastanda Oğuz elinin xatunlarının tanınmaması adı ilə onların toxunulmazlığı qorunur. Ehtimal ki, bu, Burla xatunun xan qızı olması ilə, Qazanın xanımı olması ilə və nəhayət, özünün mənəvi keyfiyyətləri ilə bağlıdır.

Dədə Qorqud boylarında Burla xatun bir çox epizodda iştirak edir. Onun mənəvi bütövlüyü, kamilliyi həm epizodik parçalarda, həm də “Salur Qazanın tutsaq olub oğlı Uruz çıxardığı boyu” da özünü göstərir. Bu boyda onun daha bir neçə özəlliyi önə çıxır.

Burla xatun Oğuz elinin qadın məclislərində ən öndə oturandır. Məsələn, “Bamsı Beyrək” boyunda Banı Çiçəyin toy məclisini idarə edən Burla xatundur. Bu, Oğuz elinin ən

---

[100] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.106

böyük toyu idi. Burla xatun ərə Salur Qazan kimi oğuz birliyinin simvoludur. Toya gəlib çıxan Beyrək Qazan Bəydən icazə alıb Banu Çiçəyin məclisinə daxil olur. Bunu görən "Qazan bəgün xatunı boyı uzun Burla kakıdı, aydur: Mərə, kavat oğlı dəlü kavat, sana düşərmi bitəkəllüf mənüm üzərümə gələsən didi. Beyrək aydır: Xanum, Qazan bigdən mana buyruk oldı, mana kimsə tolaşmaz didi. Burla xatun aydur: "Mərə çün kim Qazan bigdən buyruk olupdur kon otursun didi. Yenə döndi, Beyrəgə aydur: Mərə dəlü ozan, ya maksudun nədür. Aydur: Xanum maksudum oldur ki ərə varan kız kalka oynaya, mən kopuz çalam didi"[101].

Bu kiçik epizodda Burla xatunla bağlı iki məqama diqqət yetirmək vacibdir. Birincisi, məclisdə ixtiyar sahibi olan Burla xatun dəli ozana açıqca etirazını bildirir ki, təklif olunmamış, icazəsiz sənin mənim olduğum yerə gəlməyin nə deməkdir. Ancaq biləndə ki, dəli ozanın Qazandan icazəsi var, onda məclisə girməsinə etiraz etmir. Demək, Qazan Xanın icazəsi hamı üçün, o cümlədən Burla xatun üçün də pozulmaz qanundur. Dirsə Xanın xatunundan fərqli olaraq boyu uzun Burla xatun daha böyük səlahiyyətə malikdir. Ancaq bununla belə məclisdə tam səlahiyyət sahibi olduğunu gizlətmir, ozandan məclisə nə məqsədlə gəldiyini bildikdən sonra rahatlıq tapır. Bu, Burla xatunun yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik olduğunu göstərir. Onun mənəvi kamilliyinin yetkin səhnəsi isə oğlu Uruzun atasını

[101] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.145-145

dustaqlıqdan azad etmək üçün düşmən üzərinə getmək məqamında üzə çıxır.

Burla xatun burada ehtiyatlı və tədbirli bir qadın kimi təqdim edilir. Atasının Tumanın qalasında kafirlərin əlində olduğunu gizlətməkdə məqsədini açıqlamaqla yanaşı, oğlunun bu səfərə tək getməməsi üçün ona əmisi ilə məsləhətləşməyi tövsiyə edir. Anasının tövsiyəsi ilə Uruz Bəy tələsik qərar qəbul etmir, məsləhətləşir və başda əmisi və Oğuz elinin igidləri olmaqla Tumanın qalasına hücum edib Qazan Bəyi dustaqlıqdan azad edir.

"Kitab-i Dədə Qorqud"un qadın qəhrəmanları içərisində xüsusi yeri və mövqeyi olan Burla xatun da fiziki güc qəhrəmanı, meydan savaşçısı deyildir. O da ləyaqətli xan qızı, vəfalı ömür-gün yoldaşı, oğuz elinin boylarda diqqət çəkən birinci xanımıdır. Dustaq olduğu vaxt o, qaravaşlarına tövsiyə edir ki, "Kankınuza yapışurlarsa Qazan xatunı kankınuzdur diyü, kırk yirdən avaz virəsiz didi"[102]. Yaxud oğlu Uruza müraciətində də Burla xatunun Qazanın namusunu hər şeydən, hətta doğma balasından da uca tutduğunu görürük. Bu, təkcə öz elinə, ailəsinə, Qazan Bəyə sədaqət simvolu deyildi, eyni zamanda Oğuz elində qadının namusu hər şeydən uca tutduğunun sübutu idi. Təbii ki, bu səhnələrdən boyu uzun Burla xatunun mənəvi qəhrəmanlığının şahidi oluruq. O, eyni zamanda gözəllik, vəfa və sədaqət rəmzidir. Dirsə Xanın xanımı ilə Burla xatun iki ana, iki sə-

---

[102] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.106

daqətli və tədbirli qadın kimi Oğuznamələrin ən məşhur qadın qəhrəmanlarıdırlar.

Dədə Qorqud boylarındakı qadın qəhrəmanların ikinci tip nümayəndələri də yenə əxlaqi dəyərlərə söykənən, yüksək ailə tərbiyəsi görən qızlardır. Onların birincisi Banu Çiçəkdir. O, oğuz bəylərinin alqışı ilə dünyaya gəlmişdir və yenə də özü kimi alqışla doğulan Beyrəyə beşikkərtmədir. Ancaq Baybicanın öz atalıq səlahiyyətlərini oğlu Dəlü Karçara verməsi bu iki qəhrəmanın həyatına təsirsiz ötüşmür. Bunu Beyrəyin qızı istədiyini atasına bildirdiyi və atasının oğluna cavabında görürük. "Babası aydır: "Ay oğul, Banu Çiçəgün bir dəlü kartaşı vardur, adına Dəlü Karçar dirlər, kız diləyəni öldürür"[103]. Beşikkərtmə olduqlarını xeyli sonra anlayan cavanlar bir-birini sevir, bundan sonra evlənməyə qərar verirlər. Burada ozan Banu Çiçəyin fiziki cəhətdən güclü olduğunu göstərmək üçün onu Beyrəklə yarışdırır. Banu Çiçək də oğuz alpları kimi mahir ox atandır, at minəndir, güləş tutandır.

Bu boyda ozan Banu Çiçəyin igidliyi ilə yanaşı sədaqətini də sınaqdan çıxartmaq üçün toy günü Beyrəyi əsir düşürür. Mətndən belə aydın olur ki, Banu Çiçəyə bu uğursuzluq atası Baybicanın onu başqa birisinə vermək kimi şərtini pozması nəticəsində baş verir. "…Yarımasun-yarçımasun  kafirin casusı bunları casusladı. Varup Bayburd Hisarı biginə xabər virdi. Aydur: Nə oturursın, sultanum Pay

[103] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.124

Piçen big ol sana verəçəgi kızı Beyrəgə virdi, bu gicə gərdəgə girür didi”[104]. Baybicanın Beyrəyin elçilərini qəbul etməyi Dəli Karçara həvalə etməsi boyda açıqlanmamış qalır. Hər halda Baybican o vaxt ya həyatda yox idi, ya da türklərdə böyük oğulun da söz sahibi olması məsələsi önə çəkilmişdir. Dədə Qorqudun elçiliyi ilə baş tutan izdivac düşmən təkuru tərəfindən pozulur. Hər halda Baybican Bəy nə vaxtsa qızını təkura verəcəyi sözünü vermişdir ki, bunu casusun sözlərindən də anlamaq mümkündür. Beyrək dustaq aparılır. Banu Çiçək isə elin adətlərinə hörmət qoyan, nişan üzüyünü daim barmağında gəzdirən Oğuz elinin etibarlı və sədaqətli qızıdır. O, elin adətinə uyğun olaraq düz on altı il Beyrəyin yolunu gözləyir, ancaq adətə görə nişanlısının ölüm xəbərini xatirənə ərə getməyə məcbur olur. Nəhayət, məlum olduğu kimi, Beyrək toy günü özünü məclisə yetirir və yalan ortaya çıxır.

Mənəvi-əxlaqi dəyərlərə, o cümlədən sevgisinə Banu Çiçək axıra qədər sadiq qalır, bu cəhəti ilə kamilliyin zirvəsinə ucalır. O, boyun əvvəllərində bir qədər aktiv olsa da, sonrakı epizodlarda fəallığını itirir. Buna baxmayaraq Banu Çiçək ismətli bir oğuz qadını kimi nəzəri cəlb edir. Beyrəyin ölümündən sonra isə taleyi qeyri-müəyyən qalır, toy günü yenidən Beyrəyə qovuşur və bununla da hadisələr başa çatır.

[104] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.130

Bu qadın tipləri içərisində tale etibarı ilə Banu Çiçəyə qismən yaxın olan düşmən təkurunun qızı sarı donlu Selcan xatundur. Selcan xatun eposun ən mürəkkəb, ziddiyyətli obrazlarındandır. Başlıca məsələ Selcan xatunun şərtlə ərə verilməsidir. Təkur qızı olan Selcan xatunun fiziki cəhətdən ən güclü olan bir alpa ərə verilməsi, bu məqsədlə boyda görünən meydan tamaşalarının təşkili ilk mənada başa düşüləndir. Ancaq Qanturalı Selcan xatuna alplıqla nail olduqdan sonra atası doğma övladını ər evinə yola salmaq üçün heç bir mərasim düzəltmir. Selcan xatun ata evindən çox pərişan halda ayrılır. Onu heç kim yola salmır. Hətta təkurun adamları Selcan xatunu geri qaytarmaq istəyəndə o, qəti şəkildə geri qayıtmamaq qərarına gəlir və hətta atasının ordusuna qarşı vuruşub onu məğlub edir. Boydan anlaşıldığına görə Selcan xatunun Qanturalının elində qəhrəmanlığı təkrarlanmır, o, burada elindən birdəfəlik gedən, igidliyi, fiziki gücü sarsılan bir insan həyatı yaşayır, qısacası ozan tərəfindən unudulur. Bütün ziddiyyətli yaşayış tərzinə baxmayaraq, onun təbiətində mükəmməl tərbiyə görmüş qürurlu bir gənc qızın xüsusiyyətləri özünü göstərir.

Dastan Banu Çiçəyi, düşmən elindən Oğuza köçüb gələn Selcan xatunu, Dirsə Xanın xatununu, Bayındır Xanın qızı boyu uzun Burla xatunun ardıcılları və davamçıları kimi təqdim edir. Bu qadın obrazlarında əsas birləşdirici cəhət əxlaqi dəyərlərə üstünlük verməleri, ər evinə qədaqətləri, ərlərinin ən yaxın məsləhətçiləri olmalarıdır.

“Kitabi-Dədə Qorqud”da Oğuz elinin başqa təbiətli qadın obrazları kimi Beyrəyin bacıları nəzər-diqqəti cəlb edir. Bu qızlar Oğuz elinin namuslu, ismətli, sadə elat qızlarıdır. Beyrəyin düşmən elində dustaq olması, Baybörənin ağlamaqdan gözlərinin kor olması ilə bağlı düşdüyü vəziyyət bacılara da mənəvi-psixoloji təsir göstərmişdir. Beyrək Bayburt qalasından qaçdıqdan sonra bacıları bulaqdan su gətirməyə gedəndə onlarla qarşılaşır. “Beyrək bakdı gördi kim kiçi kız karındaşı binardan su almağa gəlür kardaş Beyrək diyü ağlar-buzlar, toyun-dügünün kara oldı diyü ağlar. Beyrəgə katı firak gəldi, katlanımadı, buldur-buldur gözinün yaşı rəvan oldı”[105]. Beyrək təbii ki, bacılarını və öz ata yurdunu tanısa da, özünü tanımamazlığa qoyur, onlardan bu elin dağının, dərəsinin, düzlərinin, ilxılarının kimin olduğunu soruşur. Cavab olaraq bacılardan biri belə deyir:

“Çalma ozan ayıtma ozan
Karaluça mən qızun, nəsinə gərək ozan
Karşu yatan kara tağı sorar olsan
Ağam Beyrəgün yaylasıydı
Ağam Beyrək gidəli yaylarum yok
Sovu-sovu sularını sorar olsan
Ağam Beyrəgün içidi idi
Ağam Beyrək gidəli içərüm yok
Tavla-tavla şahbaz atları sorar olsan

---

[105] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.138

Ağam Beyrəgün binidi idi
Ağam Beyrək gidəli binərüm yok
Katar-katar dəvələri sorar olsan
Ağam Beyrəgün yüklədiydi.
Ağam Beyrək gidəli yüklədüm yok
Ağayılda ağça koyunı sorar olsan
Ağam Beyrəgün şöləniydi
Ağam Beyrək gidəli şölənüm yok
Karalu-göklü otağı sorar olsan
Ağam Beyrəgündür
Ağam Beyrək gidəli köçərüm yok”[106].

Bacılar qardaşlarını bu qədər çox sevsələr də onu tanımırlar. Ozandan Beyrəyi soruşurlar:

“Mərə ozan
Karşu yatan kara tağdan
Aşub gəldügündə-keçdügündə
Beyrək adlu bir yigidə bulışmadunmı
Taşkun-taşkun suları aşub gəldügündə keçdügündə
Beyrək adlu bir yigidə bulışmadunmı
Ağır adlu şəhirlərdən gəldügündə kiçdügündə
Beyrək adlu bir yigidə bulışmadunmı
Mərə ozan gördün isə digil mana
Kara başum kurban olsun ozan sana”[107].

[106] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.139-140

Burada 16 illik ayrılıqdan sonra bacılar bulaq başında qardaşları ilə qarşılaşırlar, ancaq onu dəli ozan hesab edirlər. Ona görə də bacılar obrazlı şəkildə qardaşlarının yoxluğunu yıxılan dağa, kəsilən ağaca bənzədirlər:

“Karşu yatan kara tağum yıkılupdur
Ozan sənün xabərün yok
Kölgəlüçə kaba ağacum kəsilüpdür
Ozan sənin xabərün yok
Dünyəlikdə bir kardaşum alınupdur
Ozan sənin xabərün yok
Çalma ozan ayıtma ozan
Karaluça mən kızun nəsinə gərək ozan
İləyündə dügün var dügünə varup ötgil didi”[108].

Bacılar yavaş-yavaş Beyrəyi tanımağa başlayanda Beyrək onların qəlbini ağrıtmamaq, elə soraq salmamaq, tanınma süjetinin bütün mərhələlərini keçərək son məqama yetmək üçün bacılarının Beyrək deyib onu tanımalarına imkan vermir, hadisələri tanınmama məqamına istiqamətləndirir.

Bu boyda maraq doğuran başqa bir düşmən qızı da var. O, Beyrəyin düşmən qalasından, əsirlikdən azad edilməsinə köməklik edən təkur qızıdır. Öz təbiəti, xeyirxahlığı, Beyrəyə olan sevgisi ilə yadda qalan təkur qızı epizodik

[107] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.140
[108] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.140

obrazdır. Ancaq Beyrək onun məhəbbətini, sevgisini layiqincə qiymətləndirmir, bu da təbiidir. Bəlkə də Beyrəyin Oğuz elinə düşmən təkur qızını gətirməməsi, qarşısına çıxan yasaq və qadağalarla bağlıdır. Onlar hətta Beyrəyi öz əhdinə xilaf çıxmağa vadar edirlər. Ancaq bununla belə, epizodun özündə mövcud olan Oğuz elinə, onun alplıq, qəhrəmanlıq həyatına ehtiram duyğusu özünü göstərir.

Beyrəklə bağlı bu boyda yuxarıda da deyildiyi kimi cəmiyyətin alt qatına məxsus Qısırca Yengə, Boğazca Fatma kimi mənəvi-əxlaqi dəyərləri təhrif edən obrazlar da vardır. Bu o deməkdir ki, Oğuz cəmiyyəti fəsadlardan, təzadlardan da azad deyildir. Həm də ozan heç bir halda Oğuz alplarını, qadın qəhrəmanlarının hamısını ideallaşdırmır. Epik repertuar oğuz həyatını tamlığı ilə əks etdirməklə cəmiyyətin eybəcərliklərinə də münasibət bildirir. Oğuz elində yüksək dəyərlərlə yanaşı, mənəvi təmizliyə olan ehtiyacı ozanlar qadın obrazlarının şəxsində önə çəkirlər.

Oğuznamə dastanlarında qadının alplıq şücaətlərindən daha çox, onun mənəvi bütövlüyü, tərbiyəedicilik rolu qabardılır. Bu baxımdan "Bəkil oğlı Əmranın boyı"nda Bəkilin xatunu və Dəli Dumrulun həyat yoldaşı diqqəti daha çox cəlb edir. Bəkili Oğuza xəyanətdən – Qazan Xanla soyuq münasibətdən qeyzlənib düşmən tərəfə keçmək fikrindən xanımı çəkindirir. Ona ova çıxmağı, fikrini dağıtmağı, tələsik qərar qəbul etməməyi məsləhət görür. Boyda bu qadının rolu bir bəyin səhv edərək öz elinə küsməsinin, hətta düş-

mən olmasının qarşısını almaqdır və o, bu vəzifəsini ən yaxşı şəkildə yerinə yetirir.

"Duxa Qoca oğlı Dəlü Dumrul boyu"nda sadə və səmimi bir qadının öz canını ərinə qurban verməyə hazır olması əsl qadın, ana fədakarlığı nümunəsi kimi nəzərə çatdırılır. Ata və ananın öz canını "dünya şirin, can aziz, canumı kıya bilməm bəllü bilgil"[109] deyib Dəlü Dumruldan əsirgəməsi onun xatununu çox təəccübləndirir:

"Sənün ol muxannət anan-baban
Bir canda nə var ki sana kıyamamışlar
Arş tanığ olsun, kürsi tanığ olsun
Kadir Tanrı tanığ olsun

Mənüm canum sənün canuna kurban olsun, dedi[110].

Bu isə Oğuz qadınlarının ucalığı, ülviliyidir. Elə bu ülvilikdir ki, Haqq-Taalaya xoş gəlir, Dəli Dumrul xanımının mənəvi kamilliyi hesabına ikinci həyat qazanır. Dəli Dumruldan Əzrailin əl çəkməsi onun böyüklüyü, alplığı, yaxud alicənablığı sayəsində yox, xanımının, ailəyə, övlada və ərə olan böyük məhəbbəti sayəsində mümkün olur. Bu qadın böyüklüyü və nəcibliyi isə öz kökü etibarı ilə oğuzların etik düşüncəsi ilə bağlıdır. V.M.Jirmunski Dəli Dumrulla bağlı çalışmasında qadınının soy kökündən gəlmə ucalığından bəhs edərkən yazırdı ki, "...Bu, dünya dastanlarında

[109] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.181, 182
[110] Ergin Muharrem (1997). Dede Korkut Kitabı, s.183

sevgili böyüklüyü və müqəddəsliyinin ən uca məqamı və çox az xalqların dastanlarında özünü göstərən motivdir. Belə mükəmməl qadın düşüncəsi isə Oğuznamə dastanına əski türk düşüncəsindən gələ bilər və dünya eposu ilə qarşılıqlı zənginləşmədə cilalanıb etnik yaddaşda yaşaya bilərdi”[111].

Bütün bu kimi dəyərlərin Oğuznamə dastanlarında bir tərəfdən qadının mənəvi qəhrəmanlığının alplıqla yanaşı dayanıb qarşılıqlı şəkildə bir-birini zənginləşdirməsi ilə bağlıdırsa, digər tərəfdən Oğuznamə boylarının zəngin ifaçılıq imkanlarına malik olduğunu göstərməkdədir.

Oğuznamələrdə qadın obrazları öz mənəvi yetkinliyi ilə alplıq ruhunu zənginləşdirib tamamlayır, alpliğın sadəcə güc və qüvvət olmadığını, həm də əxlaqi ucalıq olduğunu dinləyicilərə çatdırır. Bununla bərabər Dədə Qorqud Oğuznamələrində qadınlar dastanların qəhrəmanlıq ruhuna uyğun olaraq təqdim edilmişdir, deyə bilərik. Yekunlaşdırmış olursaq Oğuznamələrdə üç qadın tipinə rast gəliyimizi deyə bilərik. Bunlardan:

1) İdeal ana, sevgili olub, fiziki gücə dayanan alplıq göstərməyən qadın qəhrəmanlar.

2) Alp qadınlardır ki, bunlara Oğuznamələrdə az yer verilmişdir; tək nümayəndəsi sarı donlu Selcan xatundur. Ancaq bütün oğuz qadınları savaşmağı bilirlər; bunu Banu Çiçəyin Bamsı Beyrəklə at çapıb ox atması, güləşməsi də sübut edir.

---

[111] Жирмунский В.М. (1958). “Китаби Коркут” и огузская эпическая традиция”, Советское Востоковедение, № 4, с.95

3) Bir az yüngül əxlaqlı Boğazca Fatma, Qısırca Yengə kimi obrazlar.

Ancaq Oğuznamə dastanlarının heç birində (salnamələrdəki bəzi ögey ana tiplərini nəzərə almasaq) xain olan, insanları bir-birinə düşürən, əxlaqsızlıq edən və sədaqət hissindən uzaq qadın obrazı yoxdur.

# NƏTİCƏ

Oğuznamə qəhrəmanlarının tipologiyasının öyrənilməsi bizi Oğuz dastan dünyasına, onun yaradıcılıq ənənəsinə, hadisələrin qəhrəman mərkəzli məkanına və ən əsası da qəhrəman tipologiyasının digər türk xalqları dastanları üçün model olacağı gerçəyinə götürdü.

Oğuznamə dastanlarında istər alplıq və alp-ərənlik, istər qazilik olsun, bəylik semantik dairəsi içində dastan qəhrəmanlarının davranışını müəyyən edir. Oğuz bəyliyi xalqın əxlaqi-mənəvi ideallarının ifadəsidir. Fərdiləşdirmənin, xarakter formalaşdırmağın əsas məqsəd olmadığı Oğuz dastanlarında bütün personajlar mahiyyətcə iki ideallaşdırılmış davranışda, gündəlik həyatda, düşüncə modelində təqdim edilir ki, bunlardan biri Oğuz alpları (alp-ərənləri, qaziləri), digəri də anti-qəhrəmanlardır, yəni kafirlərdir.

Bütün bunlar bizə oğuzların tarixi xarakterini, milli kimliyini bilməyə əsas verir. Və oğuzların xarakterik cəhətləri, keyfiyyətləri (həyat tərzinə bağlı tündməcazlıqları, savaşçı olmaları, namuslu, doğruçu və qonaqpərvərlikləri və s.) haqqında tarixi məlumatların azlığını təbii ki, epik mətnlərlə tamamlamaq mümkündür. Epik Oğuznamə dastanları bəylərin, alpların, anti-qəhrəmanların, hətta dini-mifoloji obrazların tiplogiyasını aşkarlamaqda birinci dərəcədən qaynaqdır. Bəzi məsələlərin daha yaxşı anlaşılmasında salnamə Oğuznamələrinə müraciət edilmişsə də bu epik mətnlərin aparıcı mövqeyinə əsaslı təsir göstərməmişdir.

Ritual-mif dünyası, etiket-davranış kodu Oğuz dünyasının bütün qutsal dəyərlərini dastanların məzmununda üzə çıxarmış, inisiasiya mərasimindən toya, ailədən evlənməyə qədər hər şeyin alplıq, alp-ərənlik üzərində qurulduğu və epik qanunlarla idarə edilən bir aləm formalaşdırmışdır. Oğuz qəhrəmanlarının tipologiyası təbii ki, epik dünyanın hər şeyi arxasınca çəkip aparan lokomotividir.

Oğuz dastanları millətləşmənin necə baş verdiyini, tarix səhnəsində var olmaq üçün necə mübarizə apardığını göstərən iri həcmli qəhrəmanlıq təhkiyəsidir. Çünki Oğuz dastanlarının ilkindən sonuna, ədəbi türündən salnaməsinə qədər millət olmaq yolunda həm kosmoqonik, həm də etnoqonik mifləri epik qanunauyğunluq içində təqdim edən və hər tərəfi ilə bütünlük yaradan bir mətn vardır. Oğuz dastanları sadəcə bunlardan ibarət də deyildir: dastanlar bizim fəlsəfəmizdir, etik-estetik dünyamızdır, uzaq keçmişimizin simvolik, qismən də metaforik izahıdır. Dastan qəhrəmanlarına aid bənzərliklər göstərən bir qəlib olduğunu bildirməklə yanaşı müasir dövr üçün bunun əsaslı bir məna ifadə etmədiyi məlumdur[112]. Dastanlar bu funksiyası ilə beynəlmiləldir, ancaq bu beynəlmiləl kodun içində dastanı yaradan millətə aid çox sayda özəl dəyərlər də mövcuddur.

Nəhayət, epik yaradıcılıqda bir-birinə zidd müxtəlif əks dünyalar var və onların arasında xəbərçilər (xəbər aparıb-gətirənlər) deyə biləcəyimiz epizodik obrazlar da var.

---

[112] Campbell Joseph (2010). Kahramanın sonsuz yolculuğu. İstanbul: Kabalcı, s.47-48

Marginal keçiddə duran obrazlar hər nə qədər epizodik olsalar da onların dastandan çıxarılması epik dünyanın pozulmasına, mətnin strukturunun parçalanmasına səbəb olar. Belə ki, çobanlar, ozan, casuslar və bəzirganlar epizodik obrazlar kimi görünsələr də xəbər daşıyıcıları kimi aparıcı mövqeyə malikdirlər. Bunlar bizimki-özgə məkan bölgüsünü rahatlıqla keçə bilən obrazlardır. Bütün bunlar bir daha sübut edir ki, qəhrəmanların (anti-qəhrəmanların, qadınların, mifoloji varlıqların) tipologiyası bir çox məsələ ilə bilavasitə və bilvasitə bağlıdır.

# QAYNAQLAR

## Azərbaycan, Özbək, Türkmən və Anadolu türkcələrində

Abdulla Kamal (1991). Gizli Dədə Qorqud. Bakı: Yazıçı

Abdulla Kamal (1999). Sirr içində dastan və yaxud gizli Dədə Qorqud- 2. Bakı: Yeni nəşrlər evi

Bağırov İ., Əliyev V. (1999). "Kitabi-Dədə Qorqudda qadına münasibət", Azərbaycan müəllimi qəz., 19 oktyabr

Bayat Füzuli (1993). Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah

Bayat Füzuli (2000). "Alp/Alb", Kitabi-Dədə Qorqud ensiklopediyası. II c. Bakı: Yeni Nəşrlər Evi, s.20-21

Bayat Füzuli (2000). "Oğuznamələr. 1-8", Kitabi-Dədə Qorqud ensiklopediyası, Cild II, Bakı: Yeni nəşrlər evi, s.225

Bayat Füzuli (2004). "Advermə", Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər nəşriyyat

Bayat Füzuli (2004). "Alp", Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər nəşriyyat

Bayat Fuzuli (2006). Oğuz destan dünyası. Oğuznamelerin tarihi, mitolojik kökenleri ve teşekkülü. İstanbul: Ötüken

Bayat Fuzuli (2007). Türk mitolojik sistemi. Ontolojik ve epistemolojik bağlamda türk mitolojisi. I cılt. İstanbul: Ötüken

Bayat Fuzuli (2007). Türk mitolojik sistemi. Türk Mitolojik Sistemi. Kutsal Dişi – Mitolojik Ana, Umay Paradigmasında İlkel Mitolojik Kategoriler – İyeler ve Demonoloji, Cilt: 2. İstanbul: Ötüken

Bayat Füzuli (2015). "Multikulturalizm baxımından oğuz cəmiyyətində fərqlilik və çoxçeşidlilik düşüncesi", Milli Zəka. Oktyabr-Dekabr, s.32-40

Bayat Fuzuli (2016). Mitten tarihe sözden yazıya Dede Korkut Oğuznameleri. İstanbul: Ötüken

Bayat Füzuli, Bəşirli Xatirə (2012). "Koroğlu" dastanının mənşəyi. Bakı: Elm və təhsil

Bayatlı Mahmud oğlu Hasan (1949). Cam-Cem-Ayin. Osmanlı Tarihleri. C. I. İstanbul: Türkiye Yayınevi

Bəşirli Xatirə (2000). "Koroğlu" dastanı. Tarixi-mifoloji gerçəklik və poetika. Bakı: Elm

Bəşirli Xatirə (2016). "Koroğlu" dastanı. Azərbaycan və Orta Asiya versiyaları əsasında. Bakı: Xəzər Universiteti Nəşriyyatı

Binyazar Adnan (2007). Dede Korkut. İstanbul: Yapı Kredi yayınları

Boratav Pertev Naili (1998). Halk hikâyeleri ve halk hikâyeceliği, Istanbul: Adam yayınları

Boratav Pertev Naili (2012). Türk mitolojisi. Oğuzların - Anadolu, Azerbaycan ve Türkmenistan türklerinin mitolojisi. Çeviren: R.Özbay. Ankara: BilgeSu

Campbell Joseph (2010). Kahramanın sonsuz yolculuğu. İstanbul: Kabalcı

Coleman J.A. (2007). The dictionary of mythology. An A-Z of themes, legends and heroes. London: Arcturus

Dits. F.H (2014).” Təpəgöz, yoxsa oğuz siklopu”. Tərcümə edən T.İ.Kazımov. Folklor və etnoqrafiya, sayı 3-4

Ergin Muharrem (1997). Dede Korkut Kitabı-1. Giriş-metin-tıpkıbasım. Ankara: TDK

Əbubəkr Tehrani (1998). Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən R.Şükürova. Bakı: Elm

Əbülqazi Bahadır xan (2002). Şəcəreyi-tərakimə. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB

Əliqızı S. (1999). “Kitabi-Dədə Qorqud dastanı oğuz cəmiyyətinin əxlaqi-etik normaları haqqında”, Kitabi-Dədə Qorqud – 1300. Respublika elmi konfransının tezisləri (25-26 may, BDU). Bakı, s.20-21

Əliqızı S. (1999). “Kitabi-Dədə Qorqud dastanında əxlaq məsələləri”, Millət qəz., 29 aprel

Əliyeva B. (1999). “Kitabi-Dədə Qorqud dastanlarında qadına münasibət”, Kitabi-Dədə Qorqud dastanının 1300 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: Səda, s.62-66

Əliyeva İ.S. (1999). “Dədə Qorqud dastanında qadın – ana obrazları”, Kitabi-Dədə Qorqud – 1300 Respublika elmi konfransının tezisləri (25-26 may 1999, BDU). Bakı

Əliyeva N. (1999). “Kitabi-Dədə Qorqud dastanında məhəbbət motivləri”, Kitabi-Dədə Qorqud dastanının 1300 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları.

ADPU-nun Xəbərləri, Humanitar elmlər seriyası, № 1, s.115-117

Əsgərova K. (1999). "Kitabi-Dədə Qorqudda qadın igidliyi", Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. Kitabi-Dədə Qorqud - 1300 VI elmi-nəzəri konfransın materialları. Bakı: Örnək, s.71-74

Erarslan Kamal (1976). "Manzum Oğuzname", Türkiyyat Mecmuası. C.XVIII. İstanbul: Edebiyyat Fakültesi Basımevi

Hacıyev Tofiq (1983). "Azərbaycan dilinin yazıya qədərki izləri haqqında", Azərbaycan filologiyası məsələləri. Bakı: Elm

Gökyay Orhan Şaik (2000). Dedem Korkudun kitabı. İstanbul: Milli Eğitim Basımevi

Kafesoğlu İbrahim (1997). Türk milli kültürü. İstanbul: Ötüken

Kaplan Mehmet (1996). Türk edebiyatı üzerine araştırmalar, 3 Tip tahlilleri, İstanbul: Dergah yayınları

Kazımoğlu Muxtar (2011). Folklorda obrazın ikiləşməsi. Bakı: Elm

Kırzıoğlu M.Fahreddin (2000). Dede Korkut Oğuznameleri. I kitab. Ankara: Atatürk Kültür Merkezi Başkanlığı Yayınları

Korkmaz Ramazan (2016). "Mitik terör tipi olaraq Tepegözün fenemenolojik açıdan yorumu", Epos və etnos. Beynəlxalq konfransın materialları. Bakı: Elm və təhsil

Koroğlu X.H. (1999) Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd

Köprülü Fuad (1989). Edebiyat araştırmaları, cild 1, İstanbul: Ötüken

Köprülü Fuat (1976). Türk edebiyatında ilk mutasavvuflar. Ankara: Türk Tarih Kurumu Basimevi

Köprülü Fuat (1989). "Alp", İslam Ansiklopedisi. c.2. İstanbul: MEB

Qarayev S (2013). "Kosmoqonik zəmində qadın və kişi", Dədə Qorqud 3. s.54- 68

Quliyev Ə. (2016). "Dədə Qorquddakı şəxs adlarının tarixi-filoloji təhlili", Epos və etnos. Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm və təhsil

Ocak Ahmet Yaşar (2012). İslam-türk inançlarında Hızır yahut Hızır-İlyas kültü. İstanbul: Kabalcı

Oğuznamə (1987). Çapa hazırlayanı S.Əlizadə. Bakı: Yazıçı

Oğuznamələr (1993). Tərtibçilər: K.Vəliyev, F.Uğurlu. Bakı: Bakı Universiteti nəşriyyatı

Özarslan Metin (1998). Oğuz Kağan Destanı'nda tarihi, dini, beşeri ve tabiatüstü unsurlar. http://turkoloji.cu.edu.tr/HALKBILIM/

Özmen M (1994). Korkut hikayetlerinde kadın ve aile içi ilişgileri. İstanbul

Rzasoy Seyfəddin (2009). Oğuz mifologiyası (metod, struktur, rekonstruksiya). Bakı: Nurlan

Schmiede H. Achmed. “Dede Korkut araştırmacılığının banisi: Türk medeniyetinin bilgin aşığı Heinrich Friedrich von Diez (1751-1817) 250 yıl önce doğdu”, dspace.khazar.org/.../kitabi%20dedem%20qor

Sultanlı Əli (1971). Məqalələr. Bakı: Azərnəşr

Sümer Faruk (1952). “Dede Korkut Kitabına Dair Bazı Mülahazalar”, Türk Folkloru Araştırmaları, sayı 30, s.467-472

Sümer Faruk (1980). Oğuzlar. Türkmenler. İstanbul: Ana Yayınları

Sümer Faruk (1987). Köroğlu. İstanbul: Türk dünyası araşdırmaları

Tanrıverdi Əzizxan (2013). “Dədə Qorqud kitabı”nın obrazlar aləmi. Bak: Nurlan

Təhmasib Məmmədhüseyn (1961). “Dədə Qorqud boyları haqqında”, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. II kitab. Bakı: Elm, s.5-29

Təhmasib Məmmədhüseyn (1972). Azərbaycan xalq dastanları (orta əsrlər) Bakı: Elm

Togan Zeki Velidi (1982). Oğuz Destanı. Rəşideddin Oğuznamesi, tercüme ve tahlili. İstanbul: Enderun Kitabevi

Vəliyev Kamil (1984). Dastan poetikası. Bakı: Yazıçı

Yazıcızade Ali (2009). Tevârih-i Âl-i Selçuk. [Oğuzname-Selçuklu Tarihi]. Giriş-metin-dizin. Hazırlayan: A.Baki. İstanbul: Camlıca Basım Yayın

## Rus dilində

Агаджанов С.Г (1969). Очерки истории огузов и туркмен Средней Азии IX-XIII вв. Ашхабад: Ылым

Бартольд В.В (1968). Сочинения. Т.V, Москва: Наука

Бернштам А.Н (1935). "Историческая правда в легенде об Огуз-Кагане", Советская этнография. № 6, с.33-43

Жирмунский Виктор Максимович (1958). "Китаби Коркут" и огузская эпическая традиция", Советское Востоковедение, № 4

Жирмунский Виктор Максимович (1974). Тюркский героический эпос. Ленинград: Наука

Кононов А.Н (1958). Родословная туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Москва-Ленинград: Издательство АН СССР

Короглы Х.Г (1986). "Новые данные о героическом эпосе огузов", Народы Азии и Африки, № 6, с.87-89

Родословное древо тюрков (1866). Сочинение Абуль-Гази Хивинского хана. Перевод Т.С.Саблукова. Казан: Типо-литография Императорского Университета

Зарифов Хади (1997). "Узбекские народные сказители". Сборник "Пулкан шаир". Ташкент

Осетинский героический эпос "Нарт" (2005). Сухуми

Шукюрова Рахила (1986). "Генеалогия Огузов и связанные с ней события в «Огуз-Наме" Изв. АН Азерб. ССР. Серия истории, философии и права. №1, с.72-79

Фазлаллах Рашид-ад-Дин (1952). Сборник летописей. Т. I, кн. 1. Перевод с персидского Л.А.Хетагурова. Москва-Ленинград: Издательство АН ССР

Фазлаллах Рашид-ад-Дин (1987). Огуз-Наме. Перевод с персидского Р.М.Шукюровой. Баку: Наука

Якубовский А.Й (1944). “Китаб-и Коркуд” и его значение для изучения туркменского общества в эпоху раннего средневековья”, Совет эдебиййаты, Ашгабат, №6

## MÜNDƏRİCAT

**Kitab haqqında bir neçə söz və ya Oğuzlardan Oğuznaməyə (Füzuli Bayat) ................ 3**

**BİRİNCİ FƏSİL**
**TÜRK DASTANÇILIQ ƏNƏNƏSİNDƏ OĞUZNAMƏ QƏHRƏMANLARI ........................... 10**

**İKİNCİ FƏSİL**
**ÖĞUZ DASTANLARINDA ALPLIQ, ALP-ƏRƏNLİK VƏ QAZİLİK TİPOLOGİYASI BAXIMINDAN QƏHRƏMAN.................................. 18**

2.1. Mövzuya Giriş................................................... 18
2.2. Oğuznamələrdə mifik və epik qəhrəmanın tipologiyası ........................................................... 20
2.3. Alp və alp-ərənlik .............................................. 30
2.4. Yalnız alplar...................................................... 45
2.5. Qazavat və qazilik ideyası ................................ 50

**ÜÇÜNCÜ FƏSİL**
**QƏHRƏMAN-ANTOQONİST ZİDLİYİNDƏ DÜŞMƏN OBRAZLARI (ANTİ-QƏHRƏMAN) VƏ ONLARIN TİPOLOGİYASI............................. 61**

3.1. Xarici düşmənlər................................................ 64
3.2. Daxili düşmənlər və ya casuslar ....................... 71

**DÖRDÜNCÜ FƏSİL**
**OĞUZNAMƏ DASTANLARINDA DİNİ-MİFOLOJİ (QEYRİ-ADİ VARLIQLAR) OBRAZLARIN TİPOLOGİYASI........................................................ 76**
4.1. Kıat................................................................ 77
4.2. Bozqurd.......................................................... 79
4.3. Xızır................................................................ 83
4.4. Əzrail.............................................................. 85
4.5. Pəri.................................................................. 89
4.6. Təpəgöz.......................................................... 93

**BEŞİNCİ FƏSİL**
**QADIN QƏHRƏMANLAR.......................................109**
5.1. Oğuznamələrə görə qadın surətlərinin xarakteristikası.........................................................109
5.2. Ana, xanım, bacı obrazlarının semantikası.....117

**Nəticə.................................................................136**
**Qaynaqlar.........................................................139**

**Xatirə Bəşirli.**
**Oğuznamə dastanlarında**
**qəhrəmanların tipologiyası,**
Bakı, Elm və təhsil, 2019.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 150 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış,
"Elm və təhsil" NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.